Xalqın qəzeti!
# Xalq qəzeti
№ 113 (30807) 1 iyun 2025-ci il, bazar
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Azərbaycan “yaşıl enerji” layihəsində əsas tərəfdaşdır




səhifə ⇨ 6

# Azərbaycanın yatırım imkanları yüksəlir

## I rübdə quruculuğa 3,5 milyard manat investisiya yönləndirilib



**Azərbaycan Mərkəzi Bankının (AMB) məlumatına əsasən, 2025-ci ilin birinci rübündə ölkə iqtisadiyyatına bütün maliyyə mənbələrindən 3,5 milyard manat həcmində investisiya yönəldilib. Bu göstərici iqtisadi fəallığın və infrastruktur layihələrinin genişləndiyini, ölkə daxilində kapital qoyuluşlarının artmaqda davam etdiyini təsdiqləyir. Hesabat dövründə neft-qaz sektoruna 1,03 milyard manat, qeyri-neft-qaz sektoruna isə 2,4 milyard manat məbləğində sərmayə yatırılıb. Bu göstərici Azərbaycanın enerji sektorundakı mövcud vəziyyəti diqqətə çatdırmaqla yanaşı, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atılan addımları, qeyri-neft sektoruna artan maraqları, həm dövlət siyasətinin prioritetlərinin, həm də xarici və yerli investorların diversifikasiya meyillərini nümayiş etdirir.**

Müəssisə və təşkilatların öz vəsaitləri hesabına əsas kapitala yönəltdiyi investisiyaların həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 7,9 faiz artaraq 2,1 milyard manata çatıb. Bu isə göstərir ki, sahibkarlığın maliyyə imkanları getdikcə genişlənir və özəl sektor iqtisadi inkişafa töhfə verən əsas oyunçulardan biri kimi çıxış edir.

Ümumi sərmayənin 52,3 faizindən məhsul istehsalı, 28 faizindən xidmət sahələrinin inkişafı, 19,7 faizindən isə yaşayış evlərinin tikintisi üçün istifadə olunub. Bu bölgü infrastrukturun və sosial təminatın balanslı inkişafını təmin etməyə yönəlmiş strateji yanaşmanın tərkib hissəsidir. Bu dövrdə investisiyaların 43,1 faizi dövlət sektoru, 56,9 faizi isə qeyri-dövlət sektoru tərəfindən reallaşdırılıb. Bu da iqtisadiyyatda özəl təşəbbüslərin payının artdığını və dövlətin iqtisadiyyatda tənzimləyici və stimullaşdırıcı rola üstünlük verdiyini göstərir.

(ardı 7-ci səhifədə)

## Macarıstandan Avropa İttifaqına ədalət çağırışı



səhifə ⇨ 3

## Paşinyan II Qareginə qarşı



səhifə ⇨ 5

## Duqinin “qırmızı rəngli” ideologiyası



səhifə ⇨ 4

# İslamofobiya ilə mübarizə: Azərbaycan dünyaya səslənir

### *Ölkəmiz qərəzi ifşa, stiqmaları alt-üst edir*

**Son gününü yaşadığımız ötən həftənin əlamətdar hadisələrindən biri də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin və Bakı Təşəbbüs Qrupunun birgə təşkilatçılığı ilə Beynəlxalq Mübarizə Gününün 3-cü ildönümünə həsr olunmuş “İslamofobiya: Qərəzin ifşa olunması və stiqmaların dağıdılması” mövzusundakı ikigünlük beynəlxalq konfrans idi. Əvvəla, onu bildirək ki, bu konfrans özlüyündə bir hərəkatın bəhrəsi və əməli nəticəsidir. Dünyada, xüsusən, Avropada islamofobiyaya qarşı müstəsna əhəmiyyət daşıyan hərəkatın mərkəzində məhz ölkəmizin dayanması isə ayrıca vurğulanmalıdır.**




Əlbəttə, daha vacib məsələ hərəkatın ənənə halını almasıdır. Bu məqam Prezident İlham Əliyevin “İslamofobiya: Qərəzin ifşa olunması və stiqmaların dağıdılması” mövzusunda konfransın iştirakçılarına ünvanladığı məktubunda da vurğulanıb: “Ölkəmizdə artıq ənənəvi olaraq təşkil edilən bu vacib tədbir bəşəriyyəti narahat edən islamofobiya probleminə diqqətin artırılmasına xidmət edir. Azərbaycan islamofobiya ilə mübarizəyə dair BMT Baş Assambleyası tərəfindən qəbul olunmuş qətnamələri alqışlayır və sənədlərdə qeyd olunan tədbirlərin təxirəsalınmaz qaydada həyata keçirilməsinə çağırış edir”.

*(ardı 5-ci səhifədə)*

## Şuşada daşnakların törətdiyi amansız qırğının tarixçəsi





səhifə ⇨ 9

## Süni intellektin yaradıcılıq potensialı yüksəkdir



səhifə ⇨ 8

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 167** **Bakı şəhəri, 26 may 2025-ci il**

**“Sərbəst istehlakçılar üçün illik elektrik enerjisi sərfiyyatının həddinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 fevral tarixli 64 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Sənaye parklarının bərpa olunan enerji mənbələrindən istehsal edilmiş elektrik enerjisi ilə təchizatına dair əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 7 may tarixli 389 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Sərbəst istehlakçılar üçün illik elektrik enerjisi sərfiyyatının həddinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 fevral tarixli 64 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 196) 1-ci hissəsinə “5 000 000 (beş milyon)” sözlərindən sonra “, sənaye parklarının rezidentlərinə və qeyri-rezidentlərinə münasibətdə 1 000 000 (bir milyon)” sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 168** **Bakı şəhəri, 26 may 2025-ci il**

**Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyində olan tibbi-bədən tərbiyəsi dispanserlərinin “Milli İdman Tibb və Reabilitasiya İnstitutu” publik hüquqi şəxsin tabeliyinə verilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 6 dekabr tarixli 193 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyində olan Bakı şəhəri Tibb bədən tərbiyəsi dispanseri, Sumqayıt şəhər Tibbi-bədən tərbiyəsi dispanseri, Gəncə şəhər Tibbi-bədən tərbiyəsi dispanseri, Lənkəran şəhər Tibbi-bədən tərbiyəsi dispanseri, Şirvan şəhər Tibbi-bədən tərbiyəsi dispanseri və Şəki şəhər Tibbi-bədən tərbiyəsi dispanseri Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyində “Milli İdman Tibb və Reabilitasiya İnstitutu” publik hüquqi şəxsin tabeliyinə verilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 6 dekabr tarixli 193 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1242 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nın “I. Büdcədən maliyyələşdirilən qurumlar:” bölməsinin 14–19-cu hissələri ləğv edilsin.

**3.** Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərardan irəli gələn məsələləri qanunvericiliyin tələblərinə uyğun olaraq həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 169** **Bakı şəhəri, 26 may 2025-ci il**

**“Diplomatik korrespondensiyanın daşınması Qaydası”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Feldyeger rabitəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 1 aprel tarixli 164-VIIQD nömrəli Qanununun tətbiqi və “Feldyeger rabitəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 903 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 may tarixli 384 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Diplomatik korrespondensiyanın daşınması Qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** “Azərbaycan Respublikası diplomatik poçtunun daşınması qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 12 iyul tarixli 269 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2025, № 2, maddə 187) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 170** **Bakı şəhəri, 29 may 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 dekabr tarixli 230 nömrəli Qərarı ilə təsdiq edilmiş “İxrac nəzarətinə düşən malların nomenklaturuna uyğun, habelə işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin qanunvericiliklə müəyyən edilmiş siyahısındakı malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) kateqoriyaları və bölmələri üzrə xüsusi icazə verən, ixrac nəzarətini, xüsusi icazə verilməsindən əvvəl və sonra yoxlamaları, ikili təyinatlı malların sifariş edilmiş məqsədlər üçün istifadə olunmasına nəzarəti həyata keçirən icra hakimiyyəti orqanlarının Siyahısı”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 sentyabr tarixli 196 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 dekabr tarixli 230 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1230 (Cild I); 2024, № 1, maddə 116, № 2, maddə 208, № 5 (II kitab), maddə 612; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 21 aprel tarixli 118 nömrəli Qərarı) ilə təsdiq edilmiş “İxrac nəzarətinə düşən malların nomenklaturuna uyğun, habelə işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin qanunvericiliklə müəyyən edilmiş siyahısındakı malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) kateqoriyaları və bölmələri üzrə xüsusi icazə verən, ixrac nəzarətini, xüsusi icazə verilməsindən əvvəl və sonra yoxlamaları, ikili təyinatlı malların sifariş edilmiş məqsədlər üçün istifadə olunmasına nəzarəti həyata keçirən icra hakimiyyəti orqanlarının Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3-cü kateqoriyanın “3A; 3A001; 3A002; 3A201; 3A225-3A230; 3B; 3C; 3D; 3E; 3A231; 3A232; 3A233; 3A234” bölməsinin 3-cü sütununa “Azərbaycan Respublikasının Energetika Nazirliyi,” sözlərindən sonra “tranziti istisna olmaqla” sözləri əlavə edilsin.

**2.** 6-cı kateqoriyanın “6A”, 7-ci kateqoriyanın “7A; 7B: 7D: 7E”, 8-ci kateqoriyanın “8A; 8B; 8C; 8D; 8E” və 9-cu kateqoriyanın “9A; 9B; 9C; 9D; 9E” bölmələrinin 3-cü sütunu üzrə:

2.1. “ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı, tranziti üzrə: hərbi məqsədlər üçün” sözləri “ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı üzrə: Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və hərbi xidmət nəzərdə tutulan digər dövlət orqanlarına münasibətdə hərbi məqsədlər üçün, o cümlədən tranziti üzrə” sözləri ilə əvəz edilsin;

2.2. “aidiyyəti dövlət orqanlarının rəyləri əsasında;” sözlərindən sonra “ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı üzrə: hərbi məqsədlər üçün: Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi (aidiyyəti üzrə);” sözləri əlavə edilsin;

2.3. “mülki məqsədlər üçün:” sözlərindən əvvəl “ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı, tranziti üzrə:” sözləri əlavə edilsin.

**3.** “10 Hərbi təyinatlı mallar” kateqoriyası üzrə:

3.1. “ML1; ML2; PL5018; PL5020; PL5021; ML3; ML4; PL5030” bölməsinin 3-cü sütununda “ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı tranziti üzrə” sözləri “ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı üzrə: Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və hərbi xidmət nəzərdə tutulan digər dövlət orqanlarına münasibətdə, o cümlədən tranziti üzrə” sözləri ilə əvəz edilsin və “əsasında” sözündən sonra “; ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı üzrə: Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi (aidiyyəti üzrə) - ixracına münasibətdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəyi əsasında” sözləri əlavə edilsin;

3.2. “PL5002; PL5006; ML5; ML6;”, “ML7”, “ML9”, “ML11”, “ML12; ML13; ML14; ML15; ML17”, “PL5033”, “ML18; PL5017 İML16; ML19; ML20; ML21; ML22” və “PL5001” bölmələrinin 3-cü sütununda “ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı tranziti üzrə” sözləri “ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı üzrə: Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və hərbi xidmət nəzərdə tutulan digər dövlət orqanlarına münasibətdə, o cümlədən tranziti üzrə” sözləri ilə əvəz edilsin və “əsasında” sözündən sonra “; ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı üzrə: Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi (aidiyyəti üzrə)” sözləri əlavə edilsin;

3.3. “ML8” bölməsi üzrə:

3.3.1. birinci və ikinci hissələrinin 3-cü sütununda “ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı tranziti üzrə” sözləri “ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı üzrə: Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və hərbi xidmət nəzərdə tutulan digər dövlət orqanlarına münasibətdə, o cümlədən tranziti üzrə” sözləri ilə əvəz edilsin və “əsasında” sözündən sonra “; ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı üzrə: Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi (aidiyyəti üzrə) - ixracına münasibətdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəyi əsasında” sözləri əlavə edilsin;

3.3.2. birinci hissənin 4-cü sütununa “Azərbaycan Respublikasının Müdafiə Nazirliyi,” sözlərindən sonra “Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi,” sözləri əlavə edilsin;

3.3.3. ikinci hissənin 4-cü sütununa “Azərbaycan Respublikasının Müdafiə Nazirliyi,” sözlərindən sonra “Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi (aidiyyəti üzrə),” sözləri əlavə edilsin;

3.4. “ML10” bölməsinin 3-cü sütunu aşağıdakı redaksiyada verilsin:

“ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı üzrə: Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və hərbi xidmət nəzərdə tutulan digər dövlət orqanlarına münasibətdə, o cümlədən tranziti üzrə: Azərbaycan Respublikasının Nazirlər Kabineti - aidiyyəti dövlət orqanlarının rəyləri əsasında;

ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı üzrə: Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi (aidiyyəti üzrə)”;

3.5. “PL5001” bölməsinin 4-cü sütununa “Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi,” sözlərindən sonra “Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi (aidiyyəti üzrə),” sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan – Pakistan diplomatik məsləhətləşməsi




**Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Pakistan İslam Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd İshaq Dar ilə telefon danışığı keçirilib.**

Nazirlər arasında Azərbaycan-Pakistan strateji tərəfdaşlığının gündəliyində müxtəlif ölçülər üzrə yer alan ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri müzakirə olunub.

Ali və yüksək səviyyədə qarşılıqlı səfərlərin artan dinamikasından məmnunluq ifadə olunaraq, gələcək təmaslar, o cümlədən Azərbaycanın cari ilin iyul ayında ev sahibliyi edəcəyi İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə Toplantısına hazırlıq işlərinə dair fikir mübadiləsi aparılıb.

***XQ***

# Bakı–Daşkənd ədliyyə əməkdaşlığı



**Ədliyyə naziri Fərid Əhmədov Daşkəndə səfəri çərçivəsində Özbəkistanın ədliyyə naziri Akbar Taşkulovla görüşüb.**

Ədliyyə Nazirliyindən bildiriblər ki, görüşdə Azərbaycan ilə Özbəkistan arasında əsrlər boyu davam edən dostluq və qardaşlıq münasibətlərinin bu gün də uğurla inkişaf etdiyi qeyd olunub, bu əlaqələrin möhkəmlənməsində prezidentlər İlham Əliyevin və Şavkat Mirziyoyevin mühüm rolu xüsusi vurğulanıb.

Nazirlər iki ölkə arasında ədliyyə sahəsində əməkdaşlıq perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparıblar. Həmçinin Türk Dövlətləri Təşkilatı çərçivəsində üzv dövlətlər arasında sahə üzrə uğurlu çoxtərəfli əməkdaşlıq əlaqələrinin mövcud olduğu vurğulanıb.

Görüş zamanı tərəflər arasında “Azərbaycan Respublikası Ədliyyə Nazirliyi ilə Özbəkistan Respublikasının Ədliyyə Nazirliyi arasında 2025-2026-cı illər üzrə Əməkdaşlıq Proqramı” imzalanıb.

***XQ***

# Fransa mətbuatı Müqavimət Hərəkatında azərbaycanlıların rəşadətindən yazıb


Une page de notre Histoire racontée par Vincent Besombes

L'ambassadrice d'Azerbaïdjan à Rodez : hommages et recueillement

Au cimetière de Rodez, l'ambassadrice d'Azerbaïdjan devant le carré militaire des Résistants, en présence du Souvenir Français de l'Aveyron.

Recueillement et commentaires sur le site mémoriel de Sainte-Radegonde, haut lieu de la Résistance en Aveyron.

Hommage aux soldats azerbaïdjanais devant l'ancienne caserne Burloup.

**Fransa Müqavimət Hərəkatında iştirak etmiş azərbaycanlı partizanlar İkinci Dünya müharibəsi dövründə faşizmə qarşı mübarizədə mühüm rol oynamış qəhrəmanlar sırasındadırlar. Nasistlər tərəfindən əsir götürüldükdən sonra Fransaya aparılmış azərbaycanlı əsgərlər Fransa Müqavimət Hərəkatına qoşularaq, azadlıq uğrunda savaşan partizanlar kimi tarixə düşüblər.**


L'ambassadrice d'Azerbaïdjan en visite à Rodez

Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayevanın və səfirliyin bir neçə diplomatının faşizm üzərində qələbənin 80 illiyi ilə əlaqədar azərbaycanlı əsgərlərin xatirəsini yad etmək üçün Fransanın Aveyron departamentinin Rodez şəhərinə səfərləri yerli mətbuatda geniş işıqlandırılıb, səfərlə bağlı bir neçə məqalə dərc olunub. Qeyd olunub ki, səfər zamanı azərbaycanlı əsgər Mişel Hüseynovun məzarı ziyarət edilib.

Məqalələrdə “Souvenir français” təşkilatının Rodez şəhəri üzrə komitəsinin prezidenti, Aveyron departamentindəki müqavimət hərəkatı ilə bağlı kitabların müəllifi, tarixçi Vənsan Bezombun partizan hərəkatı, azərbaycanlı əsgərlərin şücaəti haqqında tədqiqatları haqqında məlumatlar yer alıb.

Fransanın azadlığı uğrunda canlarından keçmiş azərbaycanlı əsgərlər xatırlanıb, 1943-cü ildə Aveyron departamentinə faşistlər tərəfindən əsir götürülmüş azərbaycanlı əsgərlərin Bürlup kazarmasına yerləşdirildiyi vurğulanıb. Bildirilib ki, əsir götürülmüş azərbaycanlılar gizli yollarla fransız partizanlara qoşulublar. Ancaq onların Fransa Müqavimət Hərəkatına qoşulmasından xəbər tutan faşistlər Bürlup kazarmasında qalan azərbaycanlı əsgərləri güllələyiblər. Buna baxmayaraq, bəzi əsgərlər partizanlara qoşulmağa nail olublar və Fransanın azadlığı uğrunda mübarizə aparıblar.

***XQ***

# Birgə tarix, mədəniyyət və dəyərlər

## Prezident İlham Əliyevin siyasi təcrübəsi kontekstində




II MƏQALƏ

### Siyasi təcrübənin konstitusion əsası

Azərbaycan Konstitusiyasının Preambulasında yer almış 6 müddəadan ikisi aşağıdakı kimidir: 1-ci müddəa: “Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq”; 6-cı müddəa: “ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək”.

Bu iki müddəanın liderlikdə siyasi təcrübə kontekstində ortaq məna çalarlarına baxaq. Konstitusiyaya görə, dövlətin başçısı (və həm də xalqın lideri) Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumağa mükəlləfdir. Burada müstəqillik, suverenlik və ərazi bütövlüyü eyni dərəcədə əhəmiyyətlidir – onlar bir-birini məna və həyatakeçmə mexanizmləri baxımından tamamlayırlar. Ərazi bütövlüyü olmadan müstəqillik və suverenlik yarımçıqdır, müstəqillik və suvrenliyin tam təmini ərazi bütövlüyünü qorumaq üçün vazkeçilməz, əvəzedilməz iki dəyərdir (siyasi-hüquqi institusional təsbitdir). Buna görə ərazi bütövlüyünün bərpası milli ideya səviyyəsində konkret məzmun almışdı. Yəni, öncədən konstitusion əsasda ərazi bütövlüyünün bərpasının müstəqilliyin və suverenliyin tam təsbitinə aparıb çıxaracağı incəliklə düşünülmüşdü.

6-cı müddəa isə bu prosesin xarici faktorlara münasibətini ifadə edir. Yəni, Azərbaycan dövləti ümumbəşəri dəyərlərə sadiq qalmalı, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamalı və digər dövlətlərlə qarşılıqlı fəaliyyət göstərməlidir. Bu məqamlar faktiki olaraq müstəqil Azərbaycan dövlətinin identikliyinin xarakteristikalarıdır. Müstəqil Azərbaycan Respublikası sülhyaradan kollektiv fəaliyyətə üstünlük verir və bu anlamda daim birləşdirici rol oynayır.

Azərbaycan Prezidenti İlham Əliyevin 2003-2020-ci illər və 2020-ci ildən sonrakı postmüharibə mərhələsində siyasi təcrübəsinin konstitusion əsaslarını vurğulanan prinsiplər təşkil edirlər. Suverenliyi əsas faktorlardan biri kimi mahiyyətində ehtiva edən bu təcrübə üçün Laçın Zirvəsi tamamilə təbii və məntiqi görünür. Özlüyündə suverenlik kontekstində Laçın Zirvəsinin geosiyasi anlamı çoxaspektlidir. Biz burada yalnız iki aspekt üzərində dayanacağıq.

### Geniş coğrafiyanın enerji xəritəsi

İndiki mərhələdə siyasi liderlik təcrübəsində enerji faktoru çox önəmli yer tutur. Hər bir dövlət üçün enerji təminatı strateji məna daşıyır. Xüsusilə, sürətlə və hərtərəfli inkişaf etmək planları olan dövlətin enerjiyə ehtiyacı dinamik olaraq artır. Məsələn, Türkiyənin enerjiyə olan ehtiyacı son illər iki dəfədən çox artıb. Bu proses indi də davam edir. Təsəvvür edək ki, ABŞ, Avropa, Çin, Yaponiya, Braziliya və digər sürətlə inkişaf edən edən dövlətlərin hansı səviyyədə enerjiyə ehtiyacları mövcuddur. Onlar getdikcə daha çox enerji sərf edirlər və bu səbəbdən də atmosferi daha çox çirkləndirirlər. Bu vəziyyət paradoksaldır, lakin gerçəklidir.

Deməli, siyasi lider enerji məsələsində ən azı iki özəlliyə diqqət etməlidir. Birincisi, ölkənin enerjiyə olan ehtiyacını elə ödəməlidir ki, enerji təhlükəsizliyi ilə milli təhlükəsizlik bir-birini tamamlasın.

İkincisi, bu modeli imkan daxilində geniş coğrafiyaya proyeksiya edə bilsin ki, müstəqillik və suverenlik təminatı daha möhkəm əsaslara malik olsun. Bu mərhələyə sülh, təhlükəsizlik və əməkdaşlıq platformalarının hazırlanması daxildir. İndi bu istiqamətdə siyasi liderlik təcrübəsi olduqca qiymətli hesab olunur.

Azərbaycan Prezidentinin vurğulanan anlamda uğurlu siyasi təcrübəsinin bir sıra özəllikləri Laçın Zirvəsindəki çıxışı zamanı ifadə edilmişdir: “Azərbaycan və Türkiyənin əməkdaşlığı nəticəsində yalnız bölgəmizin deyil, geniş coğrafiyanın enerji xəritəsi dəyişib. Ölkələrimiz enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rola malik olub və bu gün bərpaolunan enerjinin istehsalı və ixracı istiqamətində geniş layihələrə start verilib. Bununla yanaşı, Azərbaycan və Türkiyədən keçməklə Asiya ilə Avropanı birləşdirən nəqliyyat yolları strateji əhəmiyyət daşıyır. Multimodal yük marşrutunun inkişafı yolu ilə Pakistanın da bu təşəbbüsdə yaxından iştirakının əməkdaşlığımıza daha da təkan verəcəyinə əminik”.

Bu fikirlərdə çox yığcam və məntiqi olaraq aydın şəkildə enerji sferasında toplanan siyasi təcrübənin əlamətləri ifadəsini tapmışdır.

Birincisi, Azərbaycan–Türkiyə əməkdaşlığı enerji sahəsində təcrübənin zənginləşməsində xüsusi yer tutur.

İkincisi, bu təcrübə Cənubi Qafqaz regionunu aşaraq, regionlararası miqyasda siyasi təcrübənin formalaşmasında aparıcı rol oynayır.

Üçüncüsü, son illər həmin təcrübədə bərpaolunan enerji məsələsi ön plana çıxır.

Dördüncüsü, enerjinin daşınması marşrutları daha geniş coğrafiyada siyasi təcrübənin mühüm amillərindən birinə çevriir.

Beşincisi, yeni mərhələdə Pakistanın rolu daha da artmaqdadır.

Bununla İlham Əliyevin siyasi təcrübəsində geniş coğrafiyada enerji siyasəti məsələsi, faktiki olaraq, özünütəşkiledən sistem formasını almışdır və bu anlamda Azərbaycan Prezidentinin siyasi təcrübəsinin geniş bir geosiyasi məkanda ümumi “enerji xəritəsi”nin yaranmasında ciddi rol oynadığını deyə bilərik.

### Təhlükəsizlik və müdafiə sistemi

Enerji və milli təhlükəsizlik istiqamətlərindəki siyasi təcrübəni maraqlı bir şəkildə hərbi aspektdəki təcrübə tamamlayır. Bu tezisi Prezident İlham Əliyevin Laçın Zirvəsində irəli sürdüyü aşağıdakı fikir təsdiq edir: “Müdafiə sahəsində əməkdaşlıq tərəfdaşlığımızın önəmli istiqamətlərindən biridir. Birgə hərbi təlimlər və hərbi-texniki sahədə layihələr silahlı qüvvələrimizin potensialını gücləndirib. Bizim hərbi əməkdaşlığımız geniş coğrafiyada sülhü və sabitliyi gücləndirir”.

Azərbaycan Prezidenti açıq ifadə edir ki, Azərbaycan–Türkiyə–Pakistan hərbi əməkdaşlığı geniş coğrafiyada sülhə və sabitliyə xidmət edir. Yəni, bu, elə bir hərbi gücdür ki, istənilən təcavüzkarlığa, terrora, təxribata, regionun maraqlarına qarşı hansısa fəaliyyətə qarşı çəkindirici rol oynayır.

Hərbi əməkdaşlığın geniş coğrafiyada sabitliyi pozmağa yönəlmiş istənilən fəaliyyətdən çəkindirməyə xidmət etməsi Azərbaycan Prezidentinin postmüharibə mərhələsində siyasi təcrübəsinin çox mühüm aspektidir.

Buradan bütövlükdə yeni təhlükəsizlik və müdafiə sisteminin qurulmasının Azərbaycan nümunəsi haqqında tezislər irəli sürə bilərik.

### İlham Əliyevin yeni “TDT+” təhlükəsizlik və əməkdaşlıq formatı

Birincisi, yeni regionlararası təhlükəsizlik arxitekturasının qurulmasına Azərbaycanın verdiyi töhfə, enerji və milli təhlükəsizliklərini üzvi surətdə ölkənin təhlükəsizlik və müdafiə sisteminin qurulması ilə bağlayır. Burada Azərbaycan lideri ölkə miqyasında təhlükəsizlik, sabitlik və müdafiə sistemi ilə regionlararası miqyasda təhlükəsizlik və müdafiə sistemini daha geniş coğrafiyada uyğunlaşdırmaq təcrübəsini yaradır.

İkincisi, bu prosesi İlham Əliyev TDT dövlətlərinin liderləri və Pakistanla qarşılıqlı əməkdaşlıq kontekstində reallaşdırır. Burada Türkiyənin yeri və rolu xüsusi olsa da, bütövlükdə, Azərbaycan liderinin kollektiv liderlik modelinin yaradıcısı rolunu görə bilərik. Onun, ən azı, iki nümunəsini göstərmək olar. Onlardan biri İlham Əliyevin TDT çərçivəsində faktiki olaraq birləşdirici lider rolunu oynaması ilə bağlıdır. O cümlədən, Şimali Kipr məsələsində tutduğu qətiyyətli, ədalətli və fəal mövqeyi ilə Azərbaycan Prezidenti Budapeşt Zirvəsinə ayrıca ruh və məzmun verdi. Digər nümunə Laçın Zirvəsində yüksək təcəssümünü tapan “TDT+” yeni formatının təsbiti oldu.

Pakistan bu formatın ilk real təmsilçisidir. Azərbaycan və Türkiyə liderləri Pakistanı tam haqlı olaraq “qardaş dövlət” adlandırır və bu anlamda “üç qardaş” ifadəsini işlədirlər. Bununla yanaşı, Pakistan TDT üzvü deyil, bu təşkilata İslamabadın daxil olması məsələsi hələ gündəmdə yoxdur. Deməli, Azərbaycan, Türkiyə və digər türk dövlətlərinin Pakistanla əməkdaşlığını “TDT+” formatı çərçivəsində izah edə bilərik. Bu anlamda Laçın Zirvəsi həmin formatın ilk praktiki təsdiqi məkanı oldu.

### İki perspektivli istiqamət

Laçın Zirvəsinin Azərbaycan Prezidentinin yeni tarixi mərhələdə siyasi təcrübəsi kontekstində özündə ehtiva etdiyi anlamlar geosiyasi xarakterli iki perspektivli istiqaməti müəyyən etməyə imkan verir.

Onlardan birincisi, Azərbaycanın daha geniş və dərin formada Türk Dünyası liderliyinə yüksəlməsi ilə bağlıdır. Azərbaycan həm Türkiyə ilə Mərkəzi Asiyanı müxtəlif sferalar üzrə birləşdirən geosiyasi və coğrafi məkan rolunu yeni səviyyəyə keçirir, həm də TDT-nin real güc olması üçün çoxlu sayda layihələrin hazırlanması və reallaşmasının əsas təminedici faktoru statusuna yüksəlir.

İkincisi, Azərbaycan “TDT+” platforması ilə Türk Dövlətləri Təşkilatının siyasi, geosiyasi, ideoloji, energetik, nəqliyyat, logistika, elmi-texnoloji və informasiya təsir dairəsini genişləndirir. Bu format Pakistan nümunəsində çox perspektivli görünür. Laçın Zirvəsi həmin tendensiyanın əyani aspektdə ilk siyasi, hüquqi və geosiyasi təmsilçisi kimi qəbul edilə bilər.

Bütün bunlar Prezident İlham Əliyevin siyasi təcrübəsinin ümumi mahiyyətini dərk etməyə imkan yaradır. Yeni tarixi mərhələdə bu təcrübə Azərbaycanı regional liderlikdən regionlararası miqyasda ciddi geosiyasi oyunçuya çevirməyə istiqamətlənmişdir. Bunun üçün Azərbaycan liderinin TDT və “TDT+” platformalarını XXI əsrin yeni çağırışları kontekstində “formatlaşdırdığı” duyulur. Türk dövlətləri çevik surətdə yeni geosiyasi situasiyalarda uğurlu olmağın formullarını müəyyən edir, ona uyğun reaksiya verirlər. Həmin bağlılıqda Laçın Zirvəsi bir mərhələnin sonu, növbəti mərhələnin isə başlanğıcıdır!

Yeni mərhələnin “TDT+” platforması kontekstində yol xəritəsini Azərbaycan Prezidenti İlham Əliyevin aşağıdakı tezisləri müəyyən edir: “...beynəlxalq platformalarda və təşkilatlarda həmrəyliyimiz gücümüzə güc qatır. Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM), habelə D-8 kimi beynəlxalq platformalarda birgə səylərimizi daha da möhkəmləndirmək əzmindəyik”.

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Macarıstandan Avropa İttifaqına ədalət çağırışı

## *Cənubi Qafqazda sülh istəyiriksə, tərəflərə dəstək məsələsində fərq olmamalıdır*



**Macarıstan xarici işlər və xarici ticarət naziri Peter Siyartonun İrəvanda keçirilən beynəlxalq tədbirdəki çıxışı və həmin tribunadan rəsmi Brüsseli (diqqət edin, İrəvanı yox ha) tərəfdaşlıq etdiyi ölkələrlə münasibətdə obyektivlik nümayiş etdirməyə çağırması o qədər də adi və ya sadə məsələ deyil. Məlum məsələdir ki, Budapeşt həmin addımı atanda “Avropa İttifaqı bizim bu mövqeyimizə nə deyəcək?”– sualı ilə üz-üzə qalmaqdan çəkinməyərək, beynəlxalq hüququn təməl prinsiplərinə ehtiramla yanaşmağı üstün tutdu.**

Bütün dünya görür ki, bu gün Avropanın, demək olar əksər qurumları Cənubi Qafqazda sülh müqaviləsinin imzalanmasını arzulayır və tərəfləri tələsdirirlər. Həm Avropada, həm də Cənubi Qafqazda hamı yaxşı bilir ki, bu “tələskənliyin” kökündə Ermənistanı yaranmış vəziyyətdən xilas etmək məqsədi dayanır. Rəsmi Bakı dəfələrlə bəyan edib ki, keçmiş münaqişə başa çatan kimi biz həm Ermənistan rəhbərliyinə, həm də beynəlxalq ictimaiyyətə sülh təkliflərimizi göndərmişik: “Ermənistan bu təkliflərə müsbət cavab verərsə, lap yaxşı. Verməzsə, Azərbaycanın maraqlarına cavab verməyən sülh bizə lazım deyi”. Rəsmi Bakının bu mövqeyi Ermənistanın havadarlarını ciddi şəkildə narahat etdiyinə görə hansısa bir yalançı “sülh sazişinin” imzalanmasına nail olmağa çalışırlar. Ancaq istənilən addımda görürük ki, Avropa bu məsələdə təkcə İrəvanın maraqlarını nəzərə almağa çalışır.

Təbii ki, Azərbaycan və bizim beynəlxalq aləmdəki dostlarımız bütün bunlarla qətiyyən razılaşmır və mövqeyimizi daha aydın şəkildə ortaya qoyuruq.Üstəlik, bu prosesdə dost və tərəfdaşlarımız da Bakının mövqelərini dəstəkləməkdə daim qətiyyət nümayiş etdirirlər. Bu arqumentimizi əsaslandırmaq üçün son günlər şahidi olduğumuz bir neçə faktı xatırlatmaq kifayətdir.

Birinci, Azərbaycan Prezidenti İlham Əliyev bu il mayın 21-də Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının Macarıstanın paytaxtı Budapeştdə keçirilən qeyri-rəsmi Zirvə görüşündə Macarıstanın təşkilatdakı müşahidəçi statusunu və bu ölkənin Türk dünyası ilə dərin tarixi-mədəni bağlarını yüksək qiymətləndirdi. Dövlət başçımız, Macarıstanla strateji əməkdaşlığın daha da inkişaf etdirilməsinin əhəmiyyətini vurğuladı və bu ölkənin təşkilatın fəaliyyətinə verdiyi töhfələri xüsusi qeyd etdi. Yəni Macarıstan yetkilisi son günlər İrəvanda TDT-nin mövqelərini dəstəkləməkdən çəkinmədi.

İkinci, Macarıstan rəsmiləri daim Avropa İttifaqının xarici siyasət məsələlərinə, o cümlədən Cənubi Qafqaza münasibətdə ədalətli və balanslı yanaşmanın tərəfdarı olduğunu sübut edir. Belə ki, bu, dost ölkənin xarici işlər və xarici ticarət naziri Peter Siyarto “İrəvan Dialoqu – 2025” adlı konfransın panel müzakirəsi zamanı Avropa Sülh Fondundan Ermənistana 20 milyon avro ayrılması təklifinə maraqlı münasibət bildirib: “Budapeşt bu addıma etiraz etmir, əksinə balansın qorunmasında israrlıdır: eyni dəstək Azərbaycana da göstərilməlidir”.

Macar diplomat xatırladıb ki, biz əvvəllər də belə bir ayrı-seçkiliklə üzləşmişdik. Yəni Avropa İttifaqı müvafiq fonddan Ermənistana 10 milyon avro yardım ayıranda biz israr etmişdik ki, Azərbaycana da eynilə həmin məbləğdə yardım ayrılsın. O zaman bu təklifimiz qəbul edilmişdi : “Hər iki ölkəyə bərabər səviyyədə yardım ayrılmışdı”.

Təbii ki, bu fakt cənab Siyartonun fərdi qətiyyətinin və ya hansısa prinsipiallığının yox, ümumilikdə Macarıstan dövlətinin xarici siyasətindəki ədalət normalarına ehtiramın göstəricisidir. Odur ki, bu mövqe rəsmi Budapeştin Avropa İtifaqı daxilindəki gah qərəzli, gah da birtərəfli addımlara qarşı çıxmaq üzrə ardıcıl siyasətini əks etdirir. Budapeşt tələb edir ki, istənilən məsələdə bütün tərəfdaşların maraqları nəzərə alınsın.

Üçüncü: Bu il aprelin 16-da – yəni cənab Siyartonun İrəvan səfərindən təxminən bir ay əvvəl region mətbuatında oxumuşduq ki, Macarıstan Avropa İttifaqının Ermənistana hərbi yardım paketini bloklayır. Əlavə edilirdi ki, son altı həftə ərzində Macarıstan Avropa İttifaqının Avropa Sülh Fondundan Ermənistana göndərilən 10 milyon avroluq hərbi yardımın qarşısını kəsib. Xatırladaq ki, həmin fond 2021-ci ildə – yəni Ermənistanın rüsvayçı məğlubiyyətindən bir il sonra yaradılıb və bu, qitə miqyaslı quruma üzv ölkələrdən kənara hərbi yardım göndərmək üçün istifadə etdiyi fonddur. Yarandığı gündən vəsaitlər əsasən Ukraynaya yönəldilib, lakin 2024-cü ildə daha 10 milyon avronun Ermənistana köçürülməsi təsdiqlənib, lakin Macarıstan onlara mane olub. Qeyd olunurdu ki, Aİ-nin Xarici Siyasət üzrə rəhbəri Kaja Kallas tərəfindən təklif edilən yardım Avropa Sülh Mexanizmi vasitəsilə Ermənistanın “qeyri-öldürücü müdafiəsini” gücləndirmək məqsədi daşıyır. “Azadlıq” radiosu qeyd edir ki, Budapeşt sonda ölkədə minatəmizləmə əməliyyatlarını dəstəkləmək üçün Bakıya ekvivalent məbləğdə maliyyənin göndərilməsi şərti ilə etirazını dayandırıb.

Sonda. Təbii ki, erməni ideoloqlarının əsrlərdən bəri uydurduqları miflər əsasında törətdilən vəhşilik və vandallıqlar qədim Azərbaycan ərazilərində qurduqları dövləti elə bədbəxt günə salıb ki, avropalıların ayırdığı 10 və ya 20 milyon avrodan “Haykanuşa tuman olmayacaq”. Eləcə də, həmin vəsaitin Azərbaycana verilməsinə rəsmi Bakının o qədər də ehtiyacı yoxdur. Bunu Avropada da yaxçı bilirlər, Ermənistanda da. Əsas məsələ özünü demokratiyanın və ədalətin beşiyi adlandıran Avropanı təmsil edənlərin demokratiyadan və ədalətdən kənar addımlarının qarşısının alınmasıdır.

Biz məmnunuq ki, bu addımların qarşısının alınmasında Türk Dövlətləri Təşkilatının bayrağı altında fəaliyyət göstərən ölkələrdən birinin siyasətçi və rəsmiləri daha böyük prinsipiallıq nümayiş etdirirlər. Macar dostlarımıza təşəkkür edərək, “Yolunuz açıq olsun!” – deyirik.

***İttifaq MİRZƏBƏYLİ***

# Duqinin “qırmızı rəngli” ideologiyası

## Özünü “Türk dünyasının dostu” sayan rusiyalı politoloq, əslində, nəyi təbliğ edir?



**Yazımıza qısa arayışla başlayırıq. Rusiyanın rəsmi siyasi elitasına yaxınlığı ilə tanınan polittexnoloq Aleksandr Duqin “Beynəlxalq Avrasiyaçılıq” ideologiyasının, xüsusilə, şovinizmə söykənən “Rus dünyası” nəzəriyyəsinin müəllifidir. Onu, eyni zamanda, keçmiş SSRİ-yə daxil olan respublikaların Rusiyaya birləşməsini, hətta Rus İmperiyasının yaradılmasını təbliğ edən şəxs kimi tanıyırlar. Duqin çıxışlarında, məqalələrində özünü Rusiya–Türkiyə münasibətlərinin inkişafının, Rusiya–Azərbaycan münasibətlərinin daha da intensivləşdirilməsinin tərəfdarı kimi qələmə verir. Doğrudur, o, 44 günlük müharibədə Azərbaycanı dəstəklədi, erməni daşnak-faşizm ideologiyasını təhlükəli hesab etdiyini açıqladı. Amma bununla yanaşı, maraqlıdır ki, Aleksandr Duqin velikorus nasional şovinizminin mənəvi atalarından biri sayılır.**

### I HAŞİYƏ

***1962-ci ilin yanvarında Moskvada, SSRİ Müdafiə Nazirliyi Baş Kəşfiyyat İdarəsinin general-mayoru Geliy Aleksandroviç Duqinin (1935-1998) ailəsində dünyaya gələn politloq 1979-cu ildə Moskva Aviasıya İnstitutuna daxil olur və ikinci kursda institutdan xaric edilir. O, hələ 18 yaşında ikən Yevgeni Qolovinin yaratdığı və yeni sağçılar hesab edilən “SS-in Qara Ordeni” dərnəyinə qoşulur. 1993-cü ildən 1998-ci ilin aprel ayına qədər faşist ideoloqu Eduard Limonovun komandasında olur. 1994-cü ildə Fransanın “Aktuel” jurnalı sosiologiya və politologiya üzrə elmlər doktoru Aleksandr Duqini “postkommunist dövrünün ən nüfuzlu mütəfəkkiri” adlandırır. 1997-ci ildə onun “Geosiyasətin əsasları” kitabı çap olunur. A.Duqinin çıxışlarında radikalizm və aqressiya 2000-ci illərdən etibarən qabarıq hiss olunur.***

*

“Rus dünyası”nın tanınmış ideoloqlarından biri, Kremlin “beyni” adlandırılan Aleksandr Duqin postsovet ölkələrinin müstəqilliyini hədəf alan növbəti fikirləri ilə yenidən gündəmə gəlib. O, Ukraynaya qarşı aparılan müharibənin “yeni Rusiya imperiyası”nın yaradılmasının açarı olduğuna eyham vurub. Duqin Ukraynanın ardınca bütövlükdə postsovet məkanındakı müstəqil subyektlərin hamısı “udulduqdan” sonra Rusiyanın “sərt şaquli hakimiyyətə malik, hər hansı muxtariyyətlərin və liberal dəyərlərin olmadığı millətlərüstü makrodövlətə” inteqrasiyasını təklif edib. Onun modelində azlıqların hüquqları formal olaraq qorunub saxlanılır. Amma bu zaman siyasi subyektivlik məhv edilir və o, klassik “ənənə” ideologiyasına çevrilir. Qərb modeli üzrə insan haqları rədd edilir.

Bütün bunlar barədə, o, “Rusiyanın indiki geosiyasətində avrasiyaçılıq” seminarında etdiyi çıxışında söyləyib. A.Duqinin sözlərinə görə, keçmiş sovet respublikalarının inteqrasiyası Rusiyanın Ukraynadakı hərbi kampaniyasının nəticələrindən asılıdır. Yəni, o, açıq şəkildə postsovet ölkələrini, onların müstəqilliyini hədəfə alib.

Beləliklə, Duqin qonşu ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşdığını bəyan edən Kemlin sərgilədiyi siyasi mövqeyin tam əksinə gedir, yeni “Qırmızı imperiyanı”n yeni modelinin yaradılmasını zəruri sayır. Hədəfə çatmaqdan ötrü postsovet xalqlarının inteqrasiya prosesini önə çəkən Duqin deyir: “İnteqrasiya sürəti Ukraynadakı uğurumuzdan asılıdır, çünki bu, bizim üzləşdiyimiz Avrasiya proksisidir. Avrasiyanın əsas ideyası ondan ibarətdir ki, Ukrayna vahid imperiyanın bir hissəsi olmalıdır. Söhbət heç də keçmiş ittifaq formatından yox, mərkəzli tamhüquqlu geosiyasi birləşmədən gedir”.

Təbii olaraq ortaya belə bir sual çıxır: Duqinin bu sayıqlaması rəsmi Kremlin



və ya Rusiya hərbi-sənaye kompleksinin mövqeyini nə dərəcədə ifadə edir? Konkret olaraq, Azərbaycan bu kimi şovinist bəyanatları ciddi qəbul etməlidirmi? Bu fikirlərin Duqinə deyil, Kremlin altqatda fəaliyyət göstərən ideoloqlarına məxsus olduğu fərz edilə bilər. Sadəcə olaraq, Kreml özünün siyasi ambisiyalarını Duqin kimilərin dilindən bəyan edir. Buna qədər rəsmi Moskvanın ən böyük sözçüsü başqa bir sərsəm – Vladimir Jirinovski idi... Dünya birliyi nə yolla olursa-olsun Rusiyanın bu ambisiyalarının qol-qanad açmasına imkan verməməlidir. Təəssüflər olsun ki, Qərbin və ilk növbədə ABŞ-ın iqtisadi maraqları hələ dünyanın üzləşdiyi bir sıra probleminin, o cümlədən yeni imperiyalar qurmaq səylərinin qarşısında bir əngəl olaraq qalmaqdadır.

### II HAŞİYƏ

***Rusiyalı jurnalist, politoloq və Avrasiyaçı fəal Darya Aleksandr qızı Platonova (Duqina) 2022-ci il avqustun 20-də qətlə yetirildi. Moskva vilayətinin Mojaysk şossesində onun idarə etdiyi avtomobildə partlayıcı qurğu işə düşdü və 30 yaşlı Darya həlak oldu. Dünyanın nüfuzlu yazılı və elektron mediası bu qətlin Aleksandr Duqin üçün nəzərdə tutulduğunu vurğuladı. Amma maraqlıdır ki, Aleksandr Duqinə ünvanlandığı şübhə doğurmayan qətl hadisəsi müvafiq beynəlxalq təşkilatları, insan hüquqları müdafiəçilərini narahat etmədi.***

*

Son illər Şimal qonşumuzun ictimaiyyətinin beyninə yeridilməyə çalışılan, ətraf ölkələrin də ictimai rəyini məşğul edən duqinlərin “bəlkə də qaytardılar” arzularından qaynaqlanan ideoloji mesajların əsas yaranma səbəbini Ukrayna ilə müharibədə axtaranlar bəlkə də yanılmırlar. Yaxından diqqət yetirsək görərik ki, Ukrayna ilə hərbi qarşıdurmanın başlandığı vaxtdan Rusiyaya qarşı tətbiq edilən sanksiyalar heç də tam gücü ilə işləmir. Hazırda bu sahədə durumun bərbad vəziyyətdə olduğunu hamı deyir. Qərbin Rusiyanı neft-qaz gəlirlərindən məhrum etmək istiqamətində atdığı addımlar da tam formal xarakter daşıyır. Rusiya Ermənistan kimi başıpozuq dövlətlərin vasitəsilə öz hərbi sənayesi üçün lazım olan bütün məhsulları Qərb və Şərq istehsalçılarından rahatlıqla alıb gətirir. Elə bunun sayəsində istehsal etdiyi müasir silahlarla Ukraynanın başına od ələyir.

Ağ Evin yeni administrasiyasının Moskvanın nazı ilə oynaması Rusiyanın əl-qolunu daha geniş açmasına rəvac verir. Bunları oxucuya ona görə xatırladırıq ki, ədalətsiz müharibələrin stixiyasında nostalji kökənli istək və niyyətlərin boy verməsi təsadüfi sayılmamalıdır. Duqin bu müstəvidə hətta sərsəm görünsə belə, onun dedikləri həqiqət payından məhrum deyil. Bəli, Rusiya bu müharibədən qalib çıxarsa, ilkin mərhələdə hansı formada olursa-olsun, Sovet İttifaqını bərpa etməyə cəhdlər göstərə bilər. Təbii ki, ruslar yeni ittifaqı SSRİ-nin süqutundan əvvəlki vəziyyətə dərhal qaytarmaq istəməyəcəklər. Bu, hərbi-siyasi, eləcə də hüquqi cəhətdən mümkün deyil. Ola bilsin ki, onlar bu işi tədricən, addım-addım görməyə üstünlük verəcəklər. Əlbəttə, bu, sadəcə, bir ehtimaldır.

*

Yerli ekspertlərin Kremlin “beyni" adlandırdıqları Aleksandr Duqinin son açıqlamaları onun imperiya təfəkkürünün, ümumilikdə, zaman-zaman Rusiyada meydana çıxan “velikorus” meyillərin növbəti dəfə açıq etirafıdır. Əslində, bu cür ideoloji “tiryəklərin” ictimai şüura yeridilməsinə qarşı postsovet ölkələrinin hamısında etiraz səsləri eşidilməli, Duqinə layiq olduğu cavab verilməlidir. Onun Rusiyanın imperiya arzularını təbliğ edən bir ideoloq kimi cəmiyyətin siyasi kəsiminin mövqeyini ifadə etməsi qəbul olunmaya bilər. İntəhası, “Avrasiyaçılıq" adlandırdığı doktrina Rusiyanın Avropa və Asiya arasında yerləşən bir imperiya olaraq hegemonluğunu bərpa etməsini hədəflədiyi sirr deyil. Eyni zamanda, onun Rusiyanın Ukraynadakı müvəqqəti uğurunu digər keçmiş sovet respublikalarının “udulması” üçün əsas olaraq göstərməsi, dolayısı ilə Kremlin geosiyasi ambisiyalarını açıq şəkildə ortaya qoyması kimi də yozmaq mümkündür. Təbii ki, rəsmi Moskva hələlik belə avantürist çağırışları təkzib edən hər hansı bir açıqlama vermədikcə bu qənaəti bölüşənlərin sayı artacaq.

İndi özümüzə sual verək: Azərbaycan bu kimi bəyanatları ciddiyə almalıdırmı? Bəli, çünki bu kimi çıxış və bəyanatlarda ölkələrin suverenliyinə təhdid var. A.Duqinin “qırmızı rəngli” imperiya modeli postsovet ölkələrin müstəqilliyini və siyasi iradəsini şübhə altına alır. Amma o da danılmaz həqiqət və reallıqdır ki, daha nə dünya o dünyadır, nə də zaman o zamandır. SSRİ adlı Şər imperiyasının “dirildilməsi” həm tarixi proses, həm dünyada cərəyan edən hadisələrin xarakteri, həm də dialektikanın qanunları ilə düz-mütənasib deyil. Azərbaycan bu zərərli ideologiyaya qarşı bütün müstəvilərdə – siyasi, ideoloji cəbhələrdə mübarizə aparmağa, qətiyyətli iradə və sərt mövqe sərgiləməyə qadir dövlətdir.

*İmran BƏDİRXANLI*
*XQ*

**Xəzər dənizinin səviyyəsinin enməsi kompleks və çoxtərəfli ekoloji problemdir. Bu prosesin qarşısını almaq və onun fəsadlarını minimuma endirmək üçün həm elmi araşdırmalara, həm də Xəzəryanı ölkələr arasında beynəlxalq əməkdaşlığa ehtiyac var.**

# Xəzər dayazlaşdıqca problemlər çoxalır

Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayevin sözlərinə görə, bu məqsədlə 2025-ci ildə Xəzəryanı ölkələrin ekologiya nazirlərinin sammitinin keçirilməsi nəzərdə tutulur. Azərbaycan artıq bu təşəbbüslə çıxış edib və tədbirin dəqiq tarixi yaxın zamanda açıqlanacaq. “Biz bütün Xəzəryanı dövlətləri müvafiq məsləhətləşmələr aparmağa və dənizinin dayazlaşması məsələsini müzakirə etməyə dəvət etmişik. Hazırda müvafiq nazirliklər və idarələr problem üzərində fəal işləyir və irimiqyaslı tədbirin vaxtını müəyyənləşdirir” – M.Babayev deyib.



Onun sözlərinə görə, bir neçə gün əvvəl Sankt–Peterburqda Azərbaycan–Rusiya işçi qrupunun iclası və XI Neva Beynəlxalq Ekoloji Konqresi keçirilib, sessiyalardan biri Xəzər dənizinin dayazlaşması probleminə həsr edilib: “Orada da çox mənalı və ciddi müzakirələr aparılıb. Hazırda Astana Beynəlxalq Forumu, AİF2025 çərçivəsində belə müzakirələr davam edir... Biz artıq İranda Urmiya gölü və Qazaxıstanla Özbəkistan arasında yerləşən Aral dənizində baş verənlər kimi ekoloji fəlakətlərin nəticələrinin şahidi olmuşuq. İndi Xəzər dənizi üzərində də oxşar təhlükə var. Bu, daxili miqrasiyaya gətirib çıxarır – insanlar həm Urmiya, həm də Aral dənizi ətrafındakı sahilyanı rayonları tərk edirlər. Bu səbəbdən də bütün regionda ciddi sosial problem yaranır. Bütün Xəzəryanı ölkələr bu kontekstdə beynəlxalq təcrübədən istifadə etməklə birlikdə hərəkət etməlidirlər”.

Sankt-Peterburqda keçirilən müzakirələrdə də Xəzər dənizinin səviyyəsinin aşağı düşməsi, iqlim dəyişikliklərinə qarşı dayanıqlılığın artırılması və transsərhəd ekoloji əməkdaşlığın inkişafı kimi aktual məsələlər də diqqət mərkəzində olub. Bildirilib ki, Xəzər dənizində suyun səviyyəsi son 400 ilin tarixi minimumuna enib. Bu isə region üçün fəlakət siqnalıdır. Bu barədə Rusiya Federasiya Şurası sədrinin birinci müavini Andrey Yatskin deyib: “Dəniz səviyyəsinin dəyişməsi həmişə baş verib, lakin indi vəziyyət fərqlidir. Xüsusilə, Xəzərin şimal və şərq sahillərində su kilometrlərlə geri çəkilir. Bu, balıqçılıq, limanlar və gəmiçilik üçün dağıdıcı təsirə malik ola bilər”.

A.Yatskinin sözlərinə görə, Rusiya artıq “Rusiyanın suyu” adlı layihə ilə Volqa, Ural və Terek kimi Xəzəri qidalandıran çayların su balansını bərpa etməyə çalışır. Amma, o, vurğulayıb ki, bu problemi təkbaşına həll etmək mümkün deyil: “Yalnız Rusiya, Azərbaycan, İran, Qazaxıstan və Türkmənistan birgə fəaliyyəti ilə Xəzəri xilas etmək mümkün olacaq. Üçüncü ölkələrin müdaxiləsi burada yolverilməzdir”.

Federasiya Şurasının Aqrar və ərzaq siyasəti komitəsinin üzvü Sergey Anopriyenko isə suyun səviyyəsinin azalmasını tam dayandırmağın mümkün olmadığını, lakin buxarlanmanı azaltmaq, suyun təkrar istifadəsi texnologiyalarını tətbiq etmək və ölkələr arasında effektiv məlumat mübadiləsi qurmaqla vəziyyəti nəzarətdə saxlamağın mümkünlüyünü bildirib.

Konqresdə iştirak edən ekspertlər, o cümlədən azərbaycanlı mütəxəssislər bildirirlər ki, əgər indi birgə tədbirlər görülməsə Xəzər regionu genişmiqyaslı ekoloji fəlakətlə üzləşəcək. Bu isə milyonlarla insanın həyatına təsir göstərəcək. Yəni, vaxtında həll edilməyən problemlər sonradan qlobal fəlakətə səbəb ola bilər

*

Xəzər dənizinin və onun sahillərinin ekoloji problemləri, ilk növbədə, region ölkələrinin iqtisadi inkişafının nəticəsidir. Ekoloq Səid Səfərov bildirdi ki, bu, həm uzunmüddətli iqlim dəyişiklikləri, həm də günümüzün kəskin sosial-iqtisadi problemləri ilə birləşir: “Ekoloji problemlərin nəticələrini şərti olaraq iki kateqoriyaya bölmək olar– birbaşa və dolayı. Birbaşa nəticələr bioloji resursların itirilməsidir. Bu, özünü Xəzər regionu ölkələrinin nərə və digər vətəgə əhəmiyyətli balıqlarının ehtiyatlarının davamlı azalmasında göstərir. Nəticədə, onların satışı, həm də buna uyğun olaraq Xəzərsahili ölkələrin gəlirləri azalır. Buraya həmçinin dəymiş zərərin ödənilməsi də daxildir”. Ekspertin sözlərinə görə, Xəzərin problemlərinin dolayı nəticələri isə ekosistemin özünütəmizləmə qabiliyyətinin, tarazlığının itirilməsi və tədricən yeni vəziyyətə keçidi ilə bağlıdır: “Bu, uzunmüddətli perspektivdə daha ciddi sosial, iqtisadi və ekoloji fəsadlara səbəb olur. Vaxtında qabaqlayıcı tədbirlər görülməsə, daha ağır nəticələr verir. Çünki Xəzərin su sisteminin özünü bərpaetmə (məsələn, çirkləndiriciləri təbii yollarla parçalama və ya udma) qabiliyyəti zəifləyir ki, bu da bioloji müxtəlifliyin sürətlə azalmasına, xüsusilə də plankton və bentos kimi kiçik, lakin mühüm canlıların yox olmasına gətirib çıxarır. Qida zəncirinin pozulması öz növbəsində balıqçılıq sənayesinə və qida təhlükəsizliyinə təsir edir. Artıq balıqların, köçəri quşların və endemik Xəzər suitilərinin əsas qida mənbələrinin yerləşdiyi dənizin şimal hissəsində mənfi təsirlər hiss olunur”.

*

Hazırda Xəzərdə nərəkimilərin ehtiyatı azalıb, vətəgə əhəmiyyətini itirmək həddinə çatıb. 1980-ci illərlə müqayisədə 2009–2010-cu illərdə nərə balıqlarının ov həcmi 30 dəfə azalıb. İndi isə bütün Xəzəryanı ölkələrin ovu birlikdə min tonu keçmir. Bu məsələ Sankt–Peterburq ekoloji konqresində diqqət mərkəzində olub. Məsləhət görülüb ki, region ölkələri Xəzərdə nərə balıqlarının ovlanmasına qoyulan kommersiya qadağası uzadılsın. Mütəxəssislər həm də Xəzəryanı ölkələr üçün dənizdə nərə cinsli balıqlarla yanaşı, kilkələrin də sənaye məqsədilə kütləvi ovuna moratorium qoyulmasını təklif edirlər. Xəzərin fauna kütləsinin 60–70 faizini kilkələr təşkil edir ki, azalma onlarla qidalanan nərə cinsli balıqların və suitilərin sayının azalmasına səbəb olur.

Balıqçılıq və Akvakultura Mərkəzinin direktoru Ceyhun Əliyev bildirdi ki, balıqçılığa tək qida istehsalı kimi yanaşılmamalıdır: “Bu, həm qida təhlükəsizliyi, kənd təsərrüfatının inkişafı, eyni zamanda, biomüxtəlifliyin qorunması kimi böyük bir sahəni əhatə edir. Ümumiyyətlə, ekoloji problemlərin nəticələri dərhal hiss olunmasa da, uzun müddətdə daha dərin və dağıdıcı nəticələrə gətirib çıxarır. Buna görə də Xəzər ekosisteminin bərpası yalnız bioloji deyil, humanitar və iqtisadi məsələ kimi qəbul olunmalı, davamlı yanaşmalar tətbiq edilməlidir”.

Xəzər dənizində son illərdə müşahidə olunan dayazlaşma sahilyanı dövlətlərin iqtisadiyyatına mənfi təsir göstərir. Liman infrastrukturunun fəaliyyətini çətinləşdirir, yük daşımalarının effektivliyini azaldır və əlavə xərclərə səbəb olur. Məsələn, Qazaxıstanın Aktau limanında naviqasiya marşrutlarının saxlanma xərcləri son beş ildə 30 faiz artıb. Yük gəmilərinin və neft tankerlərinin limana təhlükəsiz daxil olması üçün onlar 10 faiz az yüklənir. Əks halda, tam yüklü gəmilərin gövdəsinin aşağı hissəsi dənizin dibinə toxunur. Ona görə də, limanda dərinləşdirmə işləri aparılmalıdır. Bunun üçün milyonlarla dollar vəsait tələb olunur. Əks halda suyun səviyyəsi aşağı düşməkdə davam edəcək, gəmiçilik səmərəsiz sahə olacaq.

Eyni vəziyyət Azərbaycan, Rusiya və Türkmənistan limanlarında müşahidə olunur. Məsələn, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı genişlənir, dərinliyinə də xüsusi diqqət yetirilir. Ekspertlərin hesablamalarına görə, Xəzəryanı ölkələrin dayazlaşma ilə bağlı ümumi iqtisadi itkiləri ildə bir milyard ABŞ dollarına çata bilər. Bu, enerji, nəqliyyat və balıqçılıq sektorlarında itkilərlə yanaşı, regional əməkdaşlıq və ticarət potensialına da mənfi təsir göstərir.

Beləliklə, Xəzərin ekoloji problemləri təkcə ekosistemlərin tənəzzülü ilə deyil, həm də dərin sosial-iqtisadi və siyasi nəticələrlə müşayiət olunur. Burada əsas məsələ uzunmüddətli təbii dəyişikliklərlə antropogen (insan mənşəli) təsirlərin üst-üstə düşməsi və kompleks böhran yaratmasıdır. Problemin qarşısı isə Xəzərsahili ölkələrin birgə səyi ilə aradan qaldırılmalıdır.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# İslamofobiya ilə mübarizə: Azərbaycan dünyaya səslənir

(əvvəli 1-ci səhifədə)




Nəzərə alaq ki, ötən ilin martında ölkəmizdə “Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə” mövzusunda beynəlxalq konfrans keçirilmiş və tədbir dünyada böyük populyarlıq qazanmışdı. Heç şübhəsiz, dünən öz işinə başlamış toplantı da eyni populyarlıq əldə edəcək. Azərbaycan belə bir mötəbər konfransa evsahibliyini gerçəkləşdirməklə, İslam dinini, müsəlman dünyasını gözdən salmağa çalışan, ümumən din amilindən imperialist maraqlar naminə yararlanan qüvvələrə qarşı barışmazlıq kursunu daha geniş əhatə dairəsində ortaya qoyur, mövqeyini özünün sistemli multikultural yanaşması, fundamental baxış bucağı ilə təsdiqləyir. Ancaq mənfi meyillər qalmaqdadır və dövlətimizin başçısının da məktubunda vurğuladığı daha bir məqam məhz budur: “Təəssüflər olsun ki, islamofobiya son dövrdə qlobal müstəvidə daha qabarıq və sistematik xarakter almağa başlamışdır. Hazırda bu mənfi tendensiya hər hansı konkret ölkədə deyil, dünyanın bir çox yerlərində müşahidə olunur. İslama qarşı düşmənçilik, müsəlmanlara qarşı nifrət və dözümsüzlük, anti-islam əhvali-ruhiyyəsi getdikcə böyük vüsət almağa başlayır və daha da kəskinləşir”.

Qeyd edək ki, Prezident İlham Əliyev məktubunda, həmçinin, islamofobiyanın müxtəlif formalarda, o cümlədən gündəlik həyatda müsəlmanlara qarşı irqçilik və ayrı-seçkilik, nifrət nitqi, fiziki hücumlar, media və sosial media platformalarında institusional diskriminasiya və digər formalarda təzahür etdiyini vurğulayıb. Bu cür ədalətsiz və qərəzli münasibətin müsəlmanların cəmiyyətə inteqrasiya olunmalarına və özlərini onun bərabərhüquqlu üzvü kimi hiss etmələrinə böyük maneə yaratdığını diqqətə çatdırıb. İslamafobiyanı “əsaslandıran” ən böyük stiqmatizasiya meyli isə terrorizmi İslam dini ilə bağlamaq cəhdləridir. Bu cəhdlərin nəticəsidir ki, terrorçu obrazı üçün sanki bir libas biçilib. Libas ayrı-ayrı müsəlman xalqlarının adət-ənənələrinin göstəricisi sayılan geyimlərdir. Hazırda dünyada və Avropada elə vəziyyət yaradılıb ki, bu geyimlərdə olan hər kəs potensial terrorçu kimi görünür. Ümumən müsəlman obrazının terrorçuluqla əlaqələndirilməsi kimi motivlərdə ən müxtəlif “çalarlar” var. Halbuki, terror əməli törədən müsəlman birliklərinin məhz Qərbin havadarlığı ilə ortaya çıxdığını, müəyyən siyasi məqsədlərin reallaşmasına köklındiyini yaxşı bilirik. Ancaq niyəsə dünya bu reallığı “görmək” istəmir. Dövlətimizin başçısının məktubunda isə reallıqlar vurğulanır, özü də kifayət qədər əhatəli şəkildə: “Vaxtilə qul ticarəti ilə məşğul olan, işğalçılıq və müstəmləkəçilik siyasəti yürüdən, soyqırımları törədən, indi isə özlərini insan hüquqlarının keşiyində duran demokratik ölkələr qismində təqdim edən bəzi ölkələrdə bu gün islamofobiya bir növ dövlət siyasətinə çevrilmişdir. Bu ölkələrdə dünyəvi dəyərlərin müdafiəsi adı altında müsəlmanların hüquqlarını və etiqad azadlığını məhdudlaşdıran qanunlar qəbul edilir, onların təhsil almaq, mənzilə sahib olmaq, işlə təmin olunmaq və digər hüquqları tapdalanır”.

Acınacaqlı məqamlardan biri də odur ki, dünyanın bir sıra ölkələrində söz azadlığının İslam dininin ehkamlarına qarşı qoyulması, birincinin ikincinin təhqiri və təhdidi alətinə çevrilməsi kimi aşkar siyasi manipulyasiya halları adiləşməkdədir. Qərbin bəzi media subyektləri müəyyən məsələləri kontekstindən çıxararaq, fərqli təqdim etməklə, sanki müsəlmanların cəmiyyətə mənfi təsir göstərdiklərini diqqətə çatdırmağa çalışırlar. Görünür, inkişaf etmiş Qərb cəmiyyətlərində dini dəyərlərin bəşəri dəyərlər kimi qavramında da ciddi çatışmazlıqlar və problemlər mövcuddur. Bunun nəticəsidir ki, “məqsəd vasitəyə bəraət qazandırır” deyimi ilə hərəkət edilir. Nəticədə söz azadlığının dini dəyərlərlərə sayğısızlıq motivinə qarşı cəmiyyətlərin daxili müavimətinin olmadığını görürük. Prezident İlham Əliyev məktubunda qabartdığı daha bir məqam elə budur: “Eyni zamanda, Məhəmməd Peyğəmbəri (s.ə.s) təhqir edən hərəkətlər, müqəddəs Quran-i-Kərimin yandırılması, məscidlərə və ibadət yerlərinə qarşı hücumlar, müsəlman qəbiristanlıqlarının vandalizmə məruz qalması və digər hərəkətlər müsəlmanların hisslərini təhqir etməyə yönəlmiş və sayı getdikcə artan anti-müsəlman hadisələri sırasındadır. “Söz azadlığı” adı altında İslam dininə və müsəlmanlara qarşı hücumlar qəbuledilməzdir”.

Ən təəssüfləndirici məqamlardan da biri budur ki, bəzi Avropa ölkələrində islamofobiya cəmiyyətdən dövlətə deyil, dövlətdən cəmiyyətə yayılır. Məsələn, Fransada “dünyəvilik” adı altında sırf müsəlmanların hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yönəlmiş qanunvericilik aktları və siyasi qərarlar qəbul edilir. Ölkədə məscidlər, müsəlman mədəniyyət mərkəzləri və qəbiristanlıqlar müxtəlif formalarda təhqirlərə məruz qalır, müsəlman vətəndaşlar sıxışdırılır. Əlbəttə, bu mühit İslamafobiyaya qarşı mübarizə ab-havası doğura bilməz. Nəinki doğura bilməz, ümumən, mübarizə heç yada da düşmür. Əksinə, islamofobiya ciddi şəkildə təşviq edilir və yumşaq desək, xoşagəlməz prosesdə başlıca rolu “media” oynayır. Dövlətimizin başçısının da vurğuladığı kimi, İslamofobiyanın yayılmasına təkan verən digər faktorlardan biri də ictimai rəyin formalaşdırılmasında və müsəlmanların mənfi obrazının yaradılmasında dağıdıcı rolu olan bəzi media orqanlarının fəaliyyətidir: “Bu media qurumları məqsədyönlü şəkildə ekstremizm, terrorizm və bu kimi anlayışları İslamla eyniləşdirərək dinimizə qarşı qərəzli təsəvvür yaradır, dinimizi təhlükə mənbəyi kimi aşılayır və ona terror damğası vurmağa çalışırlar. Ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatında mövcud problemləri İslam və müsəlmanlarla əlaqələndirərək cəmiyyətdə etimadsızlıq və qorxu hisslərini alovlandırırlar”.

Prezident İlham Əliyev vurğulayır ki, İslam dinini və müsəlmanları Qərb kimliyinə və dəyərlərinə təhdid kimi göstərərək insanların hisslərini və düşüncələrini yönəltməyə çalışan radikal cərəyanların və ifrat sağçı partiyaların pərəstişkarlarının sayı getdikcə artır, onların nümayəndələri parlamentlərdə daha çox yer qazanmağa başlayırlar: “Eyni zamanda, Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası kimi təsisatlar qərəz və ikili standartlara üstünlük verərək anti-müsəlman əhvali-ruhiyyəsini təlqin edirlər”.

Bəli, hazırda islamofobiyanı təşviq edən və bu ideologiya əsasında siyasət yürüdən iki qurum var ki, həmin qurumlardan biri Avropa Parlamenti, digəri Avropa Şurasının Parlament Assambleyasıdır. Hər iki təşkilat erməniпərəst kursunu bəşəri dəyərlərə qarşı qoymaqda, manipulyasiya yolu tutmaqdadır. Yeri gəlmişkən, onu da bildirək ki, otuz ildən artıq davam etmiş, hazırda tarixin arxivinə gömülmüş Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin müxtəlif mərhələlərində müsəlman Azərbaycanının xristian Ermənistanına qarşı mübarizə apardığına dair baxışlar geniş yayılmışdı. Haqq davamız olan 44 günlük müharibə zamanı da bu deyimlər erməni təbliğat maşınının anti-Azərbaycan fəaliyyətinin başlıca alətinə çevrilmiş, mübarizəmiz işğalçılıq kimi qiymətləndirilmişdi.

Beləliklə, ümumbəşəri dəyərlər, torpaqlarımızın işğalı, bir milyondan çox vətəndaşımızın öz doğma yurd-yuvasından didərgin salınması heçə sayılmış, humanizm ideallarına arxa çevrilmişdi. Ölkəmizin lideri bunu diqqətə çatdıraraq vurğulayıb: “Azərbaycan islamofobiya ilə üzləşmiş və bu gün də ondan əziyyət çəkən ölkələrdən biridir. Torpaqlarımızın otuzillik işğalı dövründə xalqımıza qarşı Xocalı soyqırımı törədilmiş, etnik təmizləmə aparılmış və bunun nəticəsi olaraq bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə salınmışdır. Ərazilərimizdə milyona yaxın mina basdırılmış, urbisid, kultursid və ekosid cinayətləri törədilmişdir. Ancaq, əfsuslar olsun ki, Qərbdə bəzi dairələr sırf dini təəssübkeşlik və islamofob mövqedən çıxış edərək Ermənistan tərəfindən torpaqlarımızın işğalına göz yummuş, münaqişənin əsl mahiyyətini təhrif etmiş, onu dini zəmində münaqişə kimi təqdim etməyə çalışmışlar”.

Qeyd edək ki, Azərbaycan-Ermənistan münasibətlərinə hazırkı bəzi yanaşmalarda da din amilinin ön plana keçdiyini, daha doğrusu, alətə çevrildiyini görürük. Məsələn, Ermənistan hakimiyyəti bütün beynəlxalq platformalarda ölkəmizin, guya, Qarabağın xristian dini irsini məhv etdiyi düşüncəsini yayır. Bu, hay millətçiliyinin anti-Azərbaycan ritorikası xüsusunda özünə dərin kök salmış islamofobiyanın nəticəsidir. Rəsmi İrəvan özünün fobiyası ilə, belə demək mümkünsə, dünyanın ritmini tutmaq istəyir. Halbuki, Prezident İlham Əliyevin də bildirdiyi kimi, torpaqlarımızın işğalı dövründə bəşəri əhəmiyyətə malik çoxəsrlik tarixi-mədəni abidələrimiz, o cümlədən İslam dininə aid abidələr, ziyarətgahlar, məscidlər, türbələr, məzarlıqlar dağıdılmış, təhqir edilmiş, yerlə-yeksan edilmişdir. Habelə, “bir sıra mədəni irs obyektləri qarət edilmiş, onların təyinatı dəyişdirilmiş, mənsubiyyəti saxtalaşdırılmışdır”.

Onu da deyək ki, islamofobiyanın xalqımıza təsir arealı daha genişdir. Söhbət soydaşlarımızın indiki Ermənistan ərazisindən deportasiyasından gedir. Həm bu deportasiyadan sonra, həm də ondan qabaq Ermənistandakı türk-müsəlman kimliyini əks etdirən abidələrə qarşı sanki “səlib yürüşü” keçirilib. İndinin özündə də ölkədə “Qərbi Azərbaycanda da xalqımızın zəngin maddi-mənəvi irsini şüurlu və planlı şəkildə tamamilə məhv etmək və ya saxtalaşdırmaq, azərbaycanlıların tarixi-etnik torpaqlarındakı izlərini yox etmək siyasəti aparılır”.

Dövlətimizin başçısı məktubunda onu da vurğulayıb ki, İslam dünyasının ayrılmaz parçası olan Azərbaycan müxtəlif dinlərin, mədəniyyətlərin nümayəndələrinin tarix boyu qardaşlıq və dostluq şəraitində yaşadığı ölkədir. Bu cür nümunəvi münasibətlərin təşəkkülündə və inkişafında ümumbəşəri dəyərlərin daşıyıcısı kimi İslam dini müstəsna rol oynamışdır. “Azərbaycan xalqı bu gün də özünün zəngin tolerantlıq və multikulturalizm ənənələrini qoruyur, sivilizasiyalararası dialoqa, İslam həmrəyliyinə öz töhfələrini verir, İslam dəyərlərinin dünyada təbliği istiqamətində ciddi addımlar atır”, kimi fikirlər isə ölkəmizin İslamofobiya ilə mübarizəyə töhfələr verdiyinin nəticəsidir. Bu mübarizənin daha bir təzahürü isə İrəvan qazılığının yaradılmasıdır ki, Prezident İlham Əliyev bu məqamın üzərində də dayanıb.

Bəli, Azərbaycan bəyan edir ki, islamofobiya dünyanı sülhdən uzaqlaşdıran məqsədə köklənməklə, bütövlükdə bəşəri nizamı təhdid edir. Sonda bu baxımdan bir məqamı da vurğulayaq ki, dünyada bütün dinlərin əsasında mərhəmət və qarşılıqlı hörmət dayanır. Bu prinsiplərin qorunması bəşəriyyətin borcudur. Azərbaycan isə İslamofobiyaya qarşı mübarizəni ənənə çevirməklə, mübarizə platforması yaratmağa, dünyanı cənginə almış pataloji xəstəliklə mübarizəyə səfərbər etmir, eyni zamanda, mübarizə naminə müqavimət, immunitet formalaşdırır: “Hazırkı qlobal çağırışlar və böhranlar, İslam dünyasının üzləşdiyi yeni sınaqlar və çətinliklər, habelə islamofobiya meyillərinin artması, dinimizi gözdən salmaq cəhdləri müsəlman ölkələri arasında həmrəyliyin və birliyin möhkəmləndirilməsini, qarşılıqlı dəstəyin göstərilməsini olduqca labüd edir. Bütün müsəlman dünyasını narahat edən islamofobiya ilə mübarizə aparmaq üçün vahid cəbhədən çıxış etmək, bu ədalətsizliyə və zərərli təmayüllərə etiraz səsimizi birgə ucaltmaq lazımdır”.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Paşinyan II Qareginə qarşı

## *Yaxud “reket jurnalistin” kilsə ilə mübarizə rəzaləti*

**Ermənistanın baş naziri Nikol Paşinyan yenə erməni kilsəsi ilə, daha dəqiq desək, bütün ermənilərin katolikosu adlandırılan II Qareginlə tərs düşüb. O, bir gün əvvəl hökumətin iclasında dini məbədlərin standartlar əsasında fəaliyyət göstərməli olduğunu, ibadət yerlərinin əmlakına nəzarət mexanizminin formalaşmasının vacibliyini vurğulamışdı.**

Belə nəticəyə gəlmək mümkündür ki, Nikol ölkə daxilində hansısa proseslərin getməsindən duyuq düşüb. Ona görə də administrativ mexanizmi işə salıb. Digər tərəfdən, erməni iqtidarı 2026-cı il seçkilərinə hazırlığa indidən start verib və öz rəqiblərini sıradan çıxarmağa başlayıb. Kilsə və II Qaregin isə siyasi proseslərin baş katalizatoru rolunda çıxış etməkdədir. Yəni, erməni kilsəsi təkcə dini məbəd deyil, eyni zamanda, siyasi məsələlərin, hətta terror planlarının qurulduğu məkandır və tarixən də belə olub.

Ümumən, Paşinyan hakimiyyəti ilə Erməni Apostol Kilsəsi arasında ziddiyyətlər Ermənistanda diqqət çəkən mövzulardandır və bu mövzu hər zaman az və ya çox intensivlikdə gündəmdə olub. Ziddiyyətlərin kökündə həm ideoloji, həm də siyasi səbəblər dayanıb. Paşinyan 2018-ci ildə hakimiyyətə gəldikdən sonra, din və dövlət işlərinin ayrılmasına dair Qərbyönlü, sekulyar mövqe tutmağa başladı. Bu isə kilsənin siyasi təsir imkanlarını məhdudlaşdırdı və qarşıdurmaların əsasını qoydu.

Ardınca Paşinyan kilsənin dövlət strukturlarındakı imtiyazlı mövqeyinin zəiflədilməsi istiqamətində tədbirlər gördü. Məsələn, bəzi hallarda dövlətin dini məbədə ayırdığı vəsaitləri azaltdı, dini təhsilin dəstəklənməsi məsələsində dəyişikliklər apardı. Əlbəttə, o, belə demək mümkünsə, sözlü tədbirlərə də baş vurdu - kilsəni keçmiş rejimlə əlaqədə və korrupsiyada günahlandırdı. Paşinyan, həmçinin, kilsənin siyasi intriqalarla məşğul olduğunu və dini fəaliyyətlərdən uzaqlaşdığını açıqladı. Kilsə isə bu ittihamları rədd edərək, hökumətin milli və mənəvi dəyərlərə qarşı münasibətinə qarşı çıxdı.

Böyük rüsvayçılıqla yekunlaşmış İkinci Qarabağ müharibəsi Ermənistanda kilsə-hakimiyyət qarşıdurmasını daha da dərinləşdirdi. Axı Nikolun şəxsində inqilabçı hökumət ölkənin məğlubiyyətə uğraması şəraitini doğurmaqla, birincinin də ənənəvi avantürizmini sarsıtmış, “ümidlərini” puça çıxarmışdı. Nəticədə kilsə açıq şəkildə iqtidarın istefasını tələb etməyə başlamışdı. Katolikos II Qaregin mövqeyini 2020-ci ilin dekabrında ölkənin İctimai televiziyasının efirindən açıqlamışdı. 2021-ci ilin fevralında isə o, yenə eyni fikri təkrarlamış və əlavə etmişdi ki, ölkə heç vaxt indiki qədər çətin vəziyyətdə olmayıb.

Əlbəttə, N.Paşinyan da sakit dayanıb baxmayıb. Məsələn, o, 2023-cü ilin mayında məsxərəli şəkildə bildirmişdi ki, “Ermənistan Apostol Kilsəsi dövlətin üzərində dayana bilməz” və dini qurum siyasi fəaliyyət göstərmək istəyirsə, partiya yaratmalıdır. Nikol, həmçinin, kilsənin dövlət işlərinə qarışmasının təhlükəli olduğunu vurğulamışdı. Həmin vaxt vəziyyəti gərginləşdirən məqam Paşinyanın Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımağa hazır olduğunu bildirməsi olmuşdu. Ardınca yaşananlar və Tavuş yeparxiyasının rəhbəri Baqrat Qalstanyanın anti-hakimiyyət hərəkatı da yaddaşlardadır. Eləcə də Nikolun 2024-cü ilin mayında parlamentdəki çıxışı zamanı kilsəni “ictimai rəyə təsir edən ən böyük agent” adlandırması və bu təsiri aradan qaldırmaq üçün iki-üç ay ərzində qəti tədbirlərin görüləcəyini bildirməsi.



Paşinyan o zaman konkret olaraq bunu iddia etmişdi: kilsə nümayəndələri xaricdə dini təhsil alaraq geri qayıtdıqdan sonra agent qismində fəaliyyət göstərirlər. İndiyə gəldikdə, əvvəldə Nikolun kilsənin standartlar əsasında fəaliyyət göstərməli olduğunu bildirməsindən söz açdıq. Məlum olduğu kimi, baş nazirin bu fikri də kilsə müxalifəti tərəfindən narazılıqla qarşılanıb. Görünür, narazılıq o qədər qeyri-etik hal alıb ki, Paşinyanın cavabı da təxminən eyni ruhdadır. Bir sözlə, Nikol “Facebook” sosial şəbəkəsindəki hesabını anti-kilsə platformasına çevirib. Necə deyərlər, ittihamların biri bir qəpikdir.

Beləliklə, baş nazir ad çəkməsə də, subliminal şəkildə II Qaregini hədəfə alıb və onu yaxın qohumu ilə intim münasibətdə günahlandırıb. Yeri gəlmişkən, Nikolun tərəfdarları olan jurnalist-bloger çevrəsinin bir müddət əvvəl II Qaregini son dərəcə ağır ifadələrə “qonaq etdikləri”, yeniyetmələrə cinsi təcavüzdə qınadıqları məlumdur. Özünün hökumət rəhbərinə yaraşmayan təxribatçı dəst-xəttini işə salan Paşinyan isə növbəti “Facebook” statusunda belə bir sual verib: “Görəsən, yepiskoplardan neçəsi özünün bakirlik andına sadiqdir?”

Amma bu da hələ son deyil. Görünür, Nikola agah olan bəzi məqamlar var. Məsələn, hökumət rəhbəri deyir ki, bəzilərini onun hələ də rəsmi nigahda olmaması və vətəndaş nigahına üstünlük verməsi narahat edir. “Halbuki ruhani elitanın yarısı eyni vəziyyətdədir və bu, heç kimi narahat etmir”, - deyən Nikolun vəziyyəti dramatikləşdirmək əzminin bariz göstəricisi onun din xadimlərini istefaya çağırmasıdır: “Məlum olsa ki, bakirlik andı içmiş bir ruhani bu andı pozub, onda nə baş verəcək? O, vəzifəsindən, rütbəsindən və ruhani libasından məhrum edilir. Bəs mənəvi baxımdan hansı daha dürüstdür: könüllü istefa vermək, yoxsa düşüncələr girdabına düşmək - görəsən istintaq olacaqmı, görəsən həqiqət üzə çıxacaqmı?”

Nəhayət, N.Paşinyan gün ərzində sıraladığı anti-kilsə yönümlü “Facebook” statuslarına son nöqtəni bu fikirlə qoyub. O, qəti şəkildə deyib ki, bakirlik andını pozmuş bütün ruhani şəxslər ruhani xidmətdən uzaqlaşdırılmalıdırlar. Nikolun müvafiq saydığı əsaslandırma da var: “Heç kimin şəxsi həyatı başqa birinin işi deyil. Amma xalqın kilsəyə, mənəvi və əxlaqi dəyərlərə sahib olmağa haqqı var”.

Yekunda belə qənaətə gəldik ki, Nikolun əlində erməni ruhaniliyinə, xüsusən, katolikos II Qareginə qarşı ciddi bilgi – kompramat var. Ona görə də o, indiki durumda kilsəni, bir növ, “reket jurnalist” kimi şantaj edir. Baş nazir, loru dildə desək, barıtı çox etməklə məşğuldur. Çox güman, onun şantajları yaxın günlərdə özünü daha konkret əməllərdə göstərəcək. Əvvəldə də bildirdiyimiz kimi, qarşıdan seçki gəlir və Nikol prosesədək II Qaregini tam neytrallaşdırmağa köklənib.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Separatizmi xristian dəyərləri ilə pərdələyənlər

## *Erməni lobbisinin saxta din təəssübkeşliyinin arxasında nələr gizlənir?*



**Dünyanın bir çox yerlərində, əsasən, Qərb dövlətlərində güclü erməni diaspor və lobbisinin fəaliyyəti heç kəsə sirr deyil. Erməni diasporu mövcud olduğu ölkələrdə siyasi elita ilə "işgüzar" münasibətlər qurur, qanunvericilik orqanlarının üzvləri, ictimai-siyasi xadimlər, mədəniyyət və incəsənət işçiləri, o cümlədən jurnalistlərlə yaxşı əlaqələr yaradaraq, onlardan öz maraqları üçün istifadə edirlər. Haylar özlərini tarix boyu "məzlum, əzabkeş, soyqırımına məruz qalmış xalq" kimi qələmə verərək, işlərini böyük dövlətlərin vasitəsilə həll etməyə çalışıblar.**

Əlbəttə, dünyanın superdövləti olan ABŞ-la münasibətlərin həmişə yüksək səviyyədə olması ermənilər üçün müstəsna əhəmiyyət daşıyıb. Ermənistan hökuməti və millətçi dairələri son illər okeanın o tayında öz maraqlarının təmin etmək üçün səylərini artırıblar. Rəsmi İrəvan ABŞ-ın "Mercury Public Affairs" firması ilə müqavilə bağlayıb. Müqavilənin məqsədi Vaşinqtonda erməni maraqlarına lobbiçilik etməkdir. Xarici Agentlərin Qeydiyyatı Aktı (FARA) çərçivəsində ABŞ Ədliyyə Nazirliyinə təqdim edilən rəsmi məlumata görə, Ermənistan səfirliyi ilə müqavilə 2025-ci il aprelin 1-dən qüvvəyə minib. Müqavilənin şərtlərinə görə, "Mercury" hər ay 50 min ABŞ dolları məbləğində konsaltinq xidmətləri göstərməyi öhdəsinə götürüb. Xidmətlər siyahısına regional və qlobal maraqlar nəzərə alınmaqla, ABŞ-ın Cənubi Qafqazda əsas tərəfdaşı kimi Ermənistanın "geosiyasi və strateji əhəmiyyətinin" təbliği daxildir.

Maraqlıdır ki, əvvəllər, yəni 2018-ci ildən 2020-ci ilin oktyabrına qədər "Mercury" Türkiyənin Vaşinqtondakı səfirliyi ilə bənzər müqavilə əsasında işləyib. Ancaq İkinci Qarabağ müharibəsi başlanandan sonra ABŞ-dakı erməni diasporu Türkiyə hökumətini Azərbaycana dəstək verməkdə suçlayaraq bu şirkətə qarşı təzyiq kampaniyasına start verib. Amerika Erməni Milli Komitəsinin təzyiqi nəticəsində şirkət Ankara ilə müqaviləni illik məbləğinin 1 milyon dollar olmasına rəğmən ləğv etmək məcburiyyətində qalıb. "Mercury" 2022-ci ilin yanvar ayına qədər Türkiyənin Xarici İqtisadi Əlaqələr İdarəsinin nəzdində yaradılmış Türkiyə–Amerika İşgüzar Şurası ilə də əməkdaşlıq edib.

Bundan əlavə, rəsmi erməni diplomatiyası ilə yanaşı, silahlı erməni terror təşkilatı "Sasna Tsrer"in bazasında yaradılmış "Erməni milli demokratik alyansı" adlı radikal siyasi qruplaşma da ABŞ-da fəaliyyət göstərir. Alyansın rəhbərlərindən biri Jirayr Sefilyan Birinci Qarabağ müharibəsi zamanı "Şuşa" könüllü taboruna komandirlik edib. Alyans Rusiyanı "erməni xalqının düşməni" adlandıraraq sərt anti-Rusiya mövqeyi tutur. 2023-cü ildə bu struktur ABŞ-ın "The Livingston Group" lobbi şirkəti ilə müqavilə bağlayaraq, Rusiya və Azərbaycana qarşı təbliğat kampaniyası aparmağı tapşırıb. Maraqlıdır ki, keçmişdə "The Livingston Group" da Azərbaycan və Türkiyəyə yaxınlığı ilə tanınıb. Lakin, bu, onun 2024-cü ildə ABŞ-da ölkəmizi nüfuzdan salmağa yönəlmiş silsilə tədbirlər keçirməsinə mane olmayıb. Bu təşkilatın xətti ilə Qarabağdakı erməni əhalinin, guya, "etnik təmizləmə"yə məruz qaldığına dair Konqresdə dinləmələr təşkil olunub. Eyni zamanda, ABŞ mediasında dezinformasiya xarakterli yazılar dərc edilib.

Məlumata görə, Sefilyanın qrupu Donald Tramp hakimiyyətə gəlməzdən əvvəl "Moran Global Strategies" lobbi strukturunda siyasi məsləhətçi işləyən Elias Gerasoulislə müqavilə imzalayıb. Tramp Ağ Evə qayıtdıqdan sonra qrup taktikasını dəyişərək ABŞ-ın yeni prezidentinin administrasiyası ilə əlaqələrin qurulmasına diqqət yetirib. Trampın yevangelist dairələrlə sıx əlaqələrini nəzərə alaraq, Sefilyan və ətrafı xristian hərəkatları və ABŞ Respublikaçılar Partiyası ilə münasibətləri olan "Sovereign Global Solutions" (SGS) lobbi firmasını vasitəçi kimi seçib. Sefilyanın qruplaşması ilə SGS arasında əməkdaşlığın nəticəsi Amerika xristian təşkilatlarının Azərbaycana mühakimə olunan Qarabağ separatçılarının, o cümlədən keçmiş "dqr" rejiminin "dövlət naziri" Ruben Vardanyanın müdafiəsi üçün kampaniyaya başlamaq təşəbbüsü olub. 2025-ci ilin martında ABŞ xristian liderlərinin koalisiyası adından Donald Trampa məktub göndərilib və ondan "Bakıda həbsdə saxlanılan 23 xristian məhbusu" azad etmək üçün addımlar atmaq xahiş edilib.

*

Əlbəttə, Ermənistanın ABŞ-da lobbiçilik fəaliyyətini genişləndirməsi, onun xarici siyasətində real əməkdaşlıqdan çox təbliğat və imic yaratmağa üstünlük verdiyini göstərir. "Mercury Public Affairs" şirkətinə hər ay 50 min dollar ödəməklə rəsmi İrəvan öz maliyyə resurslarını xalqının sosial problemlərinə deyil, xarici təsir oyunlarına yönəldir. Bu addım Hayastanın regionda sülh və əməkdaşlıqdan çox siyasi manipulyasiyalar yolu ilə mövqe tutmağa çalışdığını təsdiqləyir. İrəvanın özünü Cənubi Qafqazda əsas tərəfdaş kimi təqdim etdirməyə cəhd etməsi isə reallıqdan uzaq, məqsədli şəkildə ABŞ ictimaiyyətini çaşdırmaq niyyətindən qaynaqlanır. Sözsüz ki, belə yanaşma, Ermənistanın xoş məramdan uzaq, daha çox görüntü və qərəz üzərində qurulan siyasət apardığını üzə çıxarır.

Hay diasporunun "Mercury" şirkətinə qarşı təzyiq kampaniyası, onların ABŞ-da söz azadlığını öz maraqlarına uyğun yönəltmək cəhdlərinin bariz nümunəsidir. Yalnız Azərbaycanla strateji tərəfdaş olan Türkiyəyə görə müqavilənin ləğv etdirilməsi, erməni lobbiçiliyinin nə qədər aqressiv və qərəzli formada aparıldığını göstərir. Ermənistan bu vasitələrlə regionda sülhə deyil, qarşıdurmalara rəvac verən təzyiq və təcrid siyasətinə üstünlük verdiyini bir daha bariz şəkildə nümayiş etdirir.

Erməni siyasi dairələrinin separatçıları müdafiə etmək üçün ABŞ-dakı xristian təşkilatlarını ələ çevirməsi onların dini dəyərlərdən siyasi təbliğat məqsədilə sui-istifadə etdiyini göstərir. R.Vardanyan kimi fiqurların "xristian məhbusu" kimi təqdim olunması isə faktların saxtalaşdırılmaq, beynəlxalq ictimaiyyətdə yanlış təsəvvür formalaşdırmaq cəhdidir. Bu kampaniyalar Ermənistanın regionda sabitlik və hüquq normalarına deyil, öz separatçı planlarını legitimləşdirməyə xidmət edən təbliğat üsullarına üstünlük verdiyini ortaya qoyur.

*

Mövzu ilə əlaqədar fikirlərini XQ ilə bölüşən Beynəlxalq Avrasiya Mətbuat Fondunun vitse-prezidenti, siyasi şərhçi Oğuz Mirzəyev bildirdi ki, Ermənistan tarixən reallıqla yox, onun manipulyativ təqdimatı ilə beynəlxalq gündəmdə yer almağa çalışıb. Onun sözlərinə görə, beynəlxalq hüquq İrəvan üçün yalnız formal çərçivə, əsas vasitə isə informasiya yönləndirmə, təsir və duyğu manipulyasiyası olub. Bu taktika zamanla daha da təkmilləşdirilərək, diplomatiyanın hüdudlarından çıxaraq din, təbliğat və radikal emosiyaların birləşdiyi hibrid təsir modelinə çevrilib.

Ekspert qeyd etdi ki, erməni diaspor və lobbisinin Azərbaycanı zəifləmək, onun haqq mübarizəsini şübhə altına almaq və Qərb auditoriyasına emosional tərzdə təsir göstərmək hədəfi dəyişməyib: "Ermənistan heç vaxt faktlara söykənməyib. Onun əsas silahı həmişə emosiyalar və manipulyativ təsvirlər olub. Sadəcə, bu gün həmin üsullar daha təkmilləşmiş texnologiyalar və geniş platformalarla tətbiq olunur. 2025-ci ilin aprelində Ermənistan ABŞ-da çox nüfuzlu lobbi şirkəti olan "Mercury Public Affairs"lə ayda 50 min dollar dəyərində müqavilə imzalayıb. Məqsəd Ermənistanı Cənubi Qafqazda ABŞ-ın strateji tərəfdaşı kimi təqdim edib, Azərbaycanı bu narrativin kənarında buraxmaq idi. Eyni şirkət əvvəllər Türkiyə ilə işləyib, lakin erməni diasporunun təzyiqi ilə bu əməkdaşlıq dayandırılıb. Bu fakt diasporun Qərb siyasi mərkəzlərinə təsir imkanlarını göstərən bariz nümunədir. Bu diplomatik manevrlərin fonunda səhnəyə yeni aktor çıxır: silahlı üsyanla tanınmış və sonradan "Erməni milli demokratik alyansı" adlı platforma yaradan Jirayr Sefilyan. Nikol Paşinyan iqtidarı ilə formal olaraq məsafə saxlasa da, onun ətrafındakı struktur Ermənistanın diplomatik arxa planının qeyri-rəsmi davamı təsiri bağışlayır. 2023-cü ildə Sefilyanın alyansı "The Livingston Group"la müqavilə bağlayaraq informasiya savaşını daha da genişləndirib və təbliğatın istiqamətini birbaşa Bakıya yönəldib".

O.Mirzəyevin sözlərinə görə, lakin bu dəfə informasiya savaşı təkcə siyasi yox, dini hisslərə hesablanmış emosional kampaniyaya çevrilib. D.Trampın yenidən hakimiyyətə qayıdışı Ermənistan üçün yeni fürsət pəncərəsi açıb: "Xristian-sağ cərəyanlara çıxış əldə etmək məqsədilə "Sovereign Global Solutions" şirkəti ilə yeni müqavilə bağlanıb. Şirkətin rəhbəri Jaklin fon Şleppenbax Tramp komandasına yaxınlığı və dini-siyasi dairələrdəki nüfuzu ilə tanınır. Mart ayında Trampa göndərilən və içərisində "23 xristian məhbusun azad edilməsi" tələbi olan müraciət bu əlaqələrin məhsuludur. Bu gün Azərbaycanda separatçılarla bağlı hüquqi proseduralar yerinə yetirilir, Ermənistan isə onları dini təqiblərə məruz qalmış şəxslər kimi təqdim etməyə çalışır. Bu, sadəcə dezinformasiya deyil, "emotional warfare", yəni hisslərə əsaslanan informasiya savaşıdır. Bu metod beynəlxalq rəyin manipulyasiyası üçün seçilib və onun vasitəsilə Azərbaycan haqqında yanlış təsəvvür formalaşdırılmağa çalışılır. Kampaniyanın əsas hədəfi Azərbaycanın beynəlxalq ictimaiyyət qarşısında xristianlara qarşı çıxan müsəlman dövləti kimi təqdim edilməsidir. Paralel olaraq, Ermənistana Qərbin yeni "xristian forpostu" imici qazandırılır və Rusiyaya qarşı ritorika gücləndirilir".

Siyasi şərhçi bildirdi ki, Ermənistan dini emosiyaları manipulyasiya vasitəsinə çevirərək beynəlxalq müstəvidə Azərbaycanın əleyhinə süni qarşıdurma görüntüsü formalaşdırmağa çalışır: "Bu, sadəcə informasiya pozuculuğu deyil, həm metaforik, həm də real minalarla müşayiət olunan, regionun sabitliyini hədəfə alan müasir geosiyasi təxribat planıdır. Ermənistan 30 il ərzində işğal altında saxladığı Qarabağ ərazilərində 2 milyona yaxın mina basdırıb. Bu minalar təkcə fiziki təhlükə yaratmır, həm də informasiya savaşında Azərbaycanın sülh gündəmini və beynəlxalq imicini hədəf alır".

Müsahibimiz onu da bildirdi ki, yeni erməni lobbi doktrinası yalnız Azərbaycana qarşı yönəlmiş hibrid diplomatik hücum deyil. Bu, din pərdəsi altında aparılan, Cənubi Qafqazın güc balansını dəyişdirməyə və sülhü təhlükə altına almağa yönəlmiş strateji təxribatdır.

***Səxavət HƏMİD*** 
***XQ***

# Azərbaycan "yaşıl enerji" layihəsində əsas tərəfdaşdır

**Avropa İttifaqı (Aİ) Qara dəniz bölgəsində təhlükəsiz, dayanıqlı və firavan gələcəyin təmin olunması məqsədilə yeni strateji təşəbbüs irəli sürüb. Bu strategiya Cənubi Qafqaz ölkələri ilə nəqliyyat, enerji və rəqəmsal infrastruktur sahələrində əməkdaşlığın dərinləşdirilməsini hədəfləyir. Ətraf mühitin qorunması və iqlim dəyişikliyinə qarşı tədbirlər bu strategiyanın əsas prioritetlərindən biridir. Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen bildirib: "Biz qonşularımızla sıx əməkdaşlıq edərək bölgədə təhlükəsizliyi və sabitliyi gücləndirəcəyik. Birlikdə daha güclü və firavan gələcək qura bilərik".**

Aİ-nin yeni strategiyasında Azərbaycan Cənubi Qafqazın aparıcı ölkəsi kimi ön plana çıxır. Bu da təsadüfi deyil. Çünki ölkəmiz həm regionda enerji təhlükəsizliyini tam təmin edir, həm də Aİ ölkələrinin enerji tələbatının ödənilməsində mühüm rol oynayır. Neft, təbii qaz, elektrik enerjisi və neft-kimya məhsullarının ixracı Azərbaycanın coğrafiyada yerləşməsi düzgün infrastruktur siyasəti ilə tamamlanaraq ölkənin beynəlxalq nəqliyyat sistemlərinə inteqrasiyasını sürətləndirib. Bu gün ölkədə müasir dəniz limanı, dəmir yolu bağlantıları, beynəlxalq hava limanları və avtomobil yollarından ibarət şaxələndirilmiş nəqliyyat şəbəkəsi formalaşıb.




***Aİ Qara dənizdə strateji əməkdaşlığı genişləndirir***

baycanın Aİ ilə münasibətlərində enerji amilini əsas dayaq nöqtəsinə çevirir.

TANAP və TAP kimi beynəlxalq layihələrdə Azərbaycanın təşəbbüskar və donorluq rolu Aİ tərəfindən yüksək qiymətləndirilir. Bu əməkdaşlıq qarşılıqlı faydalılıq prinsipinə əsaslanır. Məhz bu çərçivədə Azərbaycan Aİ-nin 9 üzvü ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb. Cənub Qaz Dəhlizi isə artıq 12 ölkənin enerji təhlükəsizliyinə töhfə verir.

Azərbaycan neftinin əsas alıcıları arasında İtaliya, Çexiya, Xorvatiya, Almaniya və Portuqaliya kimi Aİ üzvü ölkələr üstünlük təşkil edir. Bu fakt Azərbaycanın Qərb üçün etibarlı enerji tərəfdaşı statusunu möhkəmləndirir.

Avropa Komissiyası Azərbaycanla enerji əməkdaşlığını yalnız karbohidrogen ehtiyatları ilə məhdudlaşdırmır. Günəş və külək enerjisi kimi bərpaolunan enerji sahəsində birgə layihələr prioritetə çevrilib. Xəzər dənizi sahillərində yaşıl enerji potensialının qiymətləndirilməsi və Avropaya "yaşıl kabel" vasitəsilə ixrac planları bu sahədə irəliləyişin göstəricisidir.

Bu məqsədlə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında Qara dəniz enerji sualtı kabeli layihəsini idarə edəcək "Green Energy Corridor Power Company" yaradılıb. Layihə çərçivəsində həm elektrik kabeli, həm də optik rabitə sistemlərinin layihələndirilməsi nəzərdə tutulur. Kabelin 2030-cu ilə qədər istifadəyə verilməsi planlaşdırılır.

***

Yeni enerji dəhlizi Azərbaycan, Gürcüstan və Rumıniyanı birləşdirərək onların enerji sistemlərinin sinxronizasiyasına və bərpaolunan enerjinin Aİ ölkələrinə ixracına xidmət edəcək. Layihə, həmçinin elektrik enerjisinin rəqabətli qiymətlərlə Avropaya daşınmasına imkan yaradacaq. Eyni zamanda, bərpa olunan enerji ölkənin enerji balansının diversifikasiyasına, ətraf mühitin qorunmasına və iqlim dəyişikliyi ilə mübarizəyə töhfə verəcək.

Bu barədə danışan energetika naziri Pərviz Şahbazov qeyd edib: "Azərbaycanda yaşıl enerjinin inkişafı əsas prioritetlərdən biri kimi müəyyən edilib və bu sahədə beynəlxalq şirkətlər və maliyyə institutları ilə sıx əməkdaşlıq həyata keçirilir. Əməkdaşlıq isə ölkəmizin tranzit imkanlarını artırır".

Azərbaycanın tranzit imkanlarının genişləndirilməsi istiqamətində atılan mühüm addımlardan biri də Qazaxıstan və Özbəkistanla "yaşıl enerji" sahəsində strateji tərəfdaşlığa dair razılaşmadır. Bu üç ölkə arasında əməkdaşlıq Mərkəzi Asiyanın yaşıl enerjisini Aİ-yə ötürmək üçün yeni marşrutun əsasını qoyur. Qazaxıstanın təbii resursları, Özbəkistanın geostrateji mövqeyi və Azərbaycanın inkişaf etmiş enerji infrastrukturu tərəflər üçün qarşılıqlı faydalı imkanlar yaradır.

Beləliklə, Azərbaycanın yaşıl texnologiyaların tətbiqində liderliyə doğru irəliləməsi onun regional və qlobal enerji bazarlarında rolunu daha da möhkəmləndirir.

***

Aİ ilə əməkdaşlığın gücləndirilməsində dayanıqlı və çevik nəqliyyat yolları da mühüm rol oynayır. Azərbaycanın bu sahədə strateji mövqeyi və müasir infrastruktur potensialı regionda logistika və nəqliyyat mərkəzinə çevrilməsini təmin edib. Prezident İlham Əliyevin də vurğuladığı kimi, Azərbaycanın əlverişli coğ-

Qeyd edək ki, Azərbaycan açıq dənizə çıxışı olmayan ölkə olsa da, Orta Dəhliz (Transxəzər beynəlxalq nəqliyyat marşrutu) üzərində yerləşməsi və bu dəhlizdə əsas tranzit ölkə funksiyasını yerinə yetirməsi onun regional və qlobal nəqliyyat-logistika zəncirindəki rolunu daha da artırır. Aİ ilə nəqliyyat sahəsində əməkdaşlıq yalnız yük və sərnişin daşımalarının təşkili ilə məhdudlaşmır. Bu əməkdaşlıq, həmçinin infrastrukturun modernləşdirilməsi, gömrük prosedurlarının rəqəmsallaşdırılması, multimodal daşımaların təşviqi, yaşıl logistikaya keçid kimi vacib sahələri əhatə edir. Bu kontekstdə Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı mühüm strateji layihələr kimi ön plana çıxır.

BTQ dəmir yolu Cənubi Qafqaz regionunu Türkiyə üzərindən Avropa ilə birləşdirən və eyni zamanda, Asiyaya çıxışı təmin edən əsas nəqliyyat dəhlizlərindən biridir. Layihənin genişləndirilməsi yalnız yükdaşımaların həcmini artırmaqla kifayətlənmir, eyni zamanda, tranzit gəlirlərinin çoxalmasına və regional iqtisadi inteqrasiyanın dərinləşməsinə şərait yaradır. Bu dəhliz məhsulların hər iki istiqamətdə – Avropa və Asiya bazarlarına – sürətli və sərfəli şəkildə çatdırılmasını təmin edir.

Ümumiyyətlə, Azərbaycan və Gürcüstanın həyata keçirdiyi yol və nəqliyyat infrastruktur layihələri Orta Dəhlizin inkişafına mühüm töhfələr verir. Bu layihələr region ölkələrinin nəqliyyat-kommunikasiya sistemində lider mövqeyini möhkəmləndirməklə yanaşı, tranzit yüklərdən əldə edilən gəlirləri də artırır. Eyni zamanda, bu dəhliz Azərbaycan və Gürcüstanın ixrac potensialının tam şəkildə realizə olunmasına imkanlar yaradır.

Aİ-nin Azərbaycanla əməkdaşlığının önəmli istiqamətlərindən biri də rəqəmsal infrastrukturun inkişafıdır. Bakı ilə birgə həyata keçirilən layihələr çərçivəsində internet şəbəkələrinin genişləndirilməsi, rəqəmsal idarəetmə sistemlərinin tətbiqi, kibertəhlükəsizlik üzrə təlim-təcrübə mübadiləsi həyata keçirilir. Bu proses Azərbaycanın rəqəmsal transformasiya gündəliyinin Avropa texnologiyaları və innovativ yanaşmalarla daha da sürətlənməsinə səbəb olur.

Bu kontekstdə Qara və Xəzər dənizlərinin dibi ilə fiber-optik kabel xətti layihəsi xüsusi əhəmiyyət kəsb edir. Layihə Avropa ilə Asiya arasında rəqəmsal telekommunikasiya dəhlizinin – Rəqəmsal İpək Yolunun – yaradılmasını hədəfləyir. Bu, Azərbaycanın beynəlxalq informasiya axınlarında mühüm tranzit ölkəyə çevrilməsinə xidmət edir. Layihə telekommunikasiya şəbəkələrinin və məlumat mərkəzlərinin inkişafı ilə qlobal kibertəhlükəsizlik arxitekturasına töhfə verir.

Göründüyü kimi, Qara dəniz bölgəsində təhlükəsiz, dayanıqlı və firavan gələcəyin təmin olunması məqsədilə hazırlanan Aİ-nin yeni strategiyasında əsas söz sahibi Azərbaycan və Gürcüstandır. Ermənistan isə bu layihələrdə iştirak etmir. Amma Zəngəzur dəhlizinin açılması Ermənistan üçün də regional infrastruktur layihələrindən kənarda qalmamaq imkanı yarada bilər. Bu, bütövlükdə regionun əlaqəliliyini və əməkdaşlıq potensialını artırar.

Ən önəmlisi odur ki, Aİ ilə əməkdaşlıq təkcə Azərbaycanın deyil, Aİ-nin də maraqlarına cavab verir.

***Pünhan ƏFƏNDİYEV*** 
***XQ***

# Azərbaycanın yatırım imkanları yüksəlir





*(əvvəli 1-ci səhifədə)*

Yatırımların 77,7 faizi tikinti-quraşdırma işlərinə yönəldilib. Bu göstərici ölkədə infrastrukturun, sənaye və sosial obyektlərin, eləcə də yaşayış komplekslərinin genişmiqyaslı tikintisinin sürətlə həyata keçirildiyini sübut edir. İnvestisiya qoyuluşunun strukturunda sənaye (45,2 faiz) və tikinti (26 faiz) sahələri əsas yer tutur. Sənayenin ön planda olması onun iqtisadi dəyər yaratma potensialını və qeyri-neft sektorunun inkişafındakı rolunu əks etdirir.

I rübdə daxili mənbələrdən əsas kapitala yönəldilən investisiya ümumi sərmayənin 72,6 faizini təşkil edib ki, bu da iqtisadiyyatda daxili maliyyə dayanıqlığının yüksəldiyini göstərir. Bununla yanaşı, xarici mənbələrdən yönələn investisiyaların dəyəri də artaraq 0,9 milyard manata (ötən ilin eyni dövrü ilə müqayisədə 19,4 faiz çox) çatıb. Xarici sərmayələr ümumi investisiyaların 27,4 faizini təşkil edib.

Xarici kapital qoyuluşlarının 98,7 faizi əsasən Birləşmiş Ərəb Əmirlikləri, Birləşmiş Krallıq, Türkiyə, İsveçrə, Rusiya, ABŞ, Yaponiya, İran, Fransa, Macarıstan və Hindistan kimi ölkələrə məxsusdur. Bu isə Azərbaycanın ənənəvi ticarət tərəfdaşları ilə sıx iqtisadi əməkdaşlıq əlaqələrinin davam etdiyini və ölkənin beynəlxalq maliyyə mərkəzləri üçün etibarlı investisiya məkanı kimi qəbul edildiyini sübut edir.

Azərbaycan son illərdə iqtisadi və institusional islahatlar nəticəsində investorlar üçün daha cəlbedici bir mühit formalaşdırıb. İnvestisiya qanunvericiliyinin təkmilləşdirilməsi, vergi güzəştləri, sərmayədarların hüquqlarının qorunması və logistika infrastrukturunun genişlənməsi bu sahədə əsas üstünlüklərdəndir. Xüsusilə sənaye zonaları və azad iqtisadi zonaların yaradılması (məsələn, Ələt Azad İqtisadi Zonası), yerli və xarici investorlar üçün geniş imkanlar açır.

Qeyri-neft sektorunda, xüsusən kənd təsərrüfatı, alternativ enerji, İKT, turizm, nəqliyyat – logistika və emal sənayesi sahələri yüksək potensiala malikdir. Dövlətin "yaşıl" inkişaf gündəliyi çərçivəsində bərpa olunan enerji layihələrinə (Günəş və külək enerjisi stansiyaları kimi) artan diqqət, bu sahədə iri xarici investisiyaların cəlb olunmasına səbəb olub. Məsələn, BƏƏ və Səudiyyə Ərəbistanından olan enerji şirkətləri bu istiqamətdə iri layihələr həyata keçirməkdədir.



Eyni zamanda, Azərbaycanın geostrateji mövqeyi - Avropa ilə Asiyanı birləşdirən nəqliyyat dəhlizlərində yerləşməsi - ölkəni regional logistika və ticarət mərkəzinə çevirmə potensialını artırır. Bu isə tranzit daşımaları, anbarlaşdırma və ticarət xidmətləri sahəsində sərmayələrin artmasına səbəb olur.

Cari ilin I rübündə müşahidə olunan investisiya axınları ölkə iqtisadiyyatının sabitliyini, investorlara təqdim olunan şəffaf mühiti və inkişaf strategiyalarının effektivliyini bir daha təsdiqləyir. İstər daxili, istərsə də xarici investorlar üçün Azərbaycanın təqdim etdiyi imkanlar real iqtisadi dəyər və uzunmüddətli gəlirlilik perspektivləri vəd edir. Bu dinamika ölkənin dayanıqlı və rəqabətədavamlı iqtisadi inkişafına təkan verir.

Qeyd edək ki, son illərdə Azərbaycan iqtisadiyyatının diversifikasiyası, biznes mühitinin liberallaşdırılması və xarici investisiyaların cəlbi istiqamətində mühüm addımlar atılıb. Enerji sektorundakı sabit mövqeyini qorumaqla yanaşı, qeyri-neft sahələrinə investisiyaların artırılması da dövlətin əsas prioritetlərindən biri kimi diqqətdə saxlanılıb. Ölkənin geosiyasi mövqeyi, nəqliyyat-logistika imkanları, geniş infrastruktur layihələri və islahat yönümlü iqtisadi siyasəti nəticəsində Azərbaycan regionda cəlbedici investisiya məkanına çevirilib.

İnvestisiya mühitini müəyyənləşdirən əsas amillərə gəldikdə isə qeyd edə bilərik ki, bu məsələdə hüquqi bazanın yaradılması və islahatların həyata keçirilməsi mühüm önəm daşıyıb. Azərbaycan "İnvestisiyaların təşviqi haqqında" qanunvericilik bazasını yenilənməsi, investorların hüquqlarının qorunması, arbitraj mexanizmlərinin təkmilləşdirilməsi və lisenziya-vergi yüklərinin azaldılması istiqamətində mühüm tədbirlər görüb. Əlavə olaraq, "İnvestisiya təşviqi sənədi" alan layihələr 7 il müddətinə vergi güzəştləri əldə edib.

Azərbaycanda əlverişli xarici investisiya mühitindən danışarkən isə bu məsələdə beynəlxalq reytinqlərin ölkəmizin vəziyyəti barədə qiymətləndirmələrinə də diqqət yetirmək istərdik. Məsələn, Doing Business (Dünya Bankı) hesabatına əsasən, Azərbaycan 191 ölkə arasında 34-cü yerdə qərarlaşıb. Bu göstərici "biznesin qeydiyyatı", "tikintiyə icazə", "vergi ödəmələri" və "müqavilələrin icrası" kimi sahələrdə irəliləyişləri əks etdirib. Qlobal Rəqabətlilik İndeksində isə ölkəmiz 141 ölkə arasında 58-ci yeri tutub, infrastruktur, makroiqtisadi sabitlik və bazar ölçüsü üzrə yüksək nəticələr göstərib.

Respublikamızda investorlara cəlbedici olan sahələr də artıq müəyyənləşdirilib. Bura bərpa olunan enerji, aqrobiznes, turizm və xidmət sektoru kimi sahələr daxil edilib. Bu fikri konkret ifadə edərək bildirək ki, xüsusilə Qarabağ və Naxçıvan bölgəsində günəş və külək enerjisi potensialı yüksək qiymətləndirilib. BP, ACWA Power (Səudiyyə Ərəbistanı) və Masdar (BƏƏ) kimi şirkətlər bu sahəyə daxil olunub. İxracyönümlü kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə investisiyalar üçün də əlverişli imkanlar yaradılıb. Aqroparkların və xüsusi iqtisadi zonaların bu sahəyə marağı gücləndirilib. Nəhayət, turizm və xidmət sektoru üçün Qarabağ bölgəsində "yaşıl" turizm, sağlamlıq və mədəni turizm istiqamətləri üzrə layihələr planlaşdırılıb və icrasına başlanılıb.

Beləliklə, Azərbaycan investisiya mühiti baxımından Cənubi Qafqazın ən sabit və perspektivli ölkələrindən biri hesab olunur. Enerji və nəqliyyat sektorundakı möhkəm baza, islahatlar yönümlü iqtisadi siyasət və strateji coğrafi mövqe ölkəyə sərmayə üçün cəlbedici imkanlar təqdim edir. Lakin uzunmüddətli və sabit investisiya axını üçün hüquqi sistemin təkmilləşdirilməsi, institusional şəffaflıq və insan kapitalının inkişafı kimi sahələrdə əlavə layihələrin reallaşdırılmasına ehtiyac duyulur.



# "Startap"çıların sayı 213-ə çatdı

**"Startap" şəhadətnaməsinin verilməsi üzrə Kiçik və Orta Biznesin İnkişafı Agentliyində (KOBİA) yaradılmış Ekspertlər Şurasının növbəti iclası keçirilib. KOBİA-dan bildirilib ki, iclasda KOB subyektlərindən daxil olmuş 8 müraciətə baxılıb və onlardan 3-nə "Startap" şəhadətnaməsinin verilməsi barədə qərar qəbul edilib. Bununla da, "Startap" şəhadətnaməsi almış KOB subyektlərinin sayı 213-ə yüksəlib.**

"Startap" şəhadətnamələri "Cool Bears" MMC-nin mobil və veb – oyunların tərtibi və istehsalı, "Multi Solutions" MMC-nin sürücülər və daşıyıcılar üçün balans idarəetmə və ödəniş sistemi, "Noteservice" MMC-nin xidmətlər üçün veb – platforma və mobil tətbiq layihələri üçün təqdim edilib.

"Startap" şəhadətnaməsi KOB subyektlərini bu şəhadətnaməni aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən qazandıqları gəlirlər üzrə mənfəət və ya gəlir vergisindən 3 il müddətinə azad edir.

Layihələri inkişaf mərhələsində olan mikro və kiçik sahibkarlıq subyektləri "Startap" şəhadətnaməsi üçün KOBİA-ya müraciət edə bilərlər. Müraciət üçün ərizə forması və lazım olan digər sənədlər, eləcə də müvafiq meyarlarla bağlı ətraflı məlumatla bu linkdən (https://smb.gov.az/az/nav/startap-sehadetnamesi) tanış olmaq olar.

# Azərbaycan "OPEC plyus" öhdəliyinə sadiqdir

**Neft İxrac edən Ölkələr Təşkilatına (OPEC) üzv və qeyri-üzv ölkələrin nazirlərinin 39-cu iclasında Azərbaycan da təmsil olunub. İclasda ölkəmiz gündəlik neft hasilatının 2026-cı ilin sonuna qədər sabit qalması ilə bağlı qərara öz dəstəyini ifadə edib. Beləliklə, Azərbaycanın gündəlik 551 min barel həcmində olan mövcud xam neft hasilatı kvotası bu dövrdə sabit saxlanılacaq.**




İclasda, həmçinin OPEC katibliyinə 2027-ci il üçün "OPEC plyus" ölkələri üzrə xam neft hasilatının baza səviyyəsinin müəyyənləşdirilməsi tapşırılıb. Neft İxrac edən Ölkələr Təşkilatına üzv və qeyri-üzv ölkələrin nazirlərinin 40-cı iclasının isə bu il noyabrın 30-da keçirilməsi razılaşdırılıb.

## 2 İyun Azərbaycanda Mülki Aviasiya Günüdür

# Milli səma nəqliyyatının 85 yaşı tamam olur



**Prezident İlham Əliyevin 2006-cı il 18 may tarixli sərəncamı ilə hər il iyunun 2-si ölkəmizdə mülki aviasiya işçilərinin peşə bayramı günü kimi qeyd edilir. Xatırladaq ki, 1938-ci il iyunun 2-də Azərbaycanda mülki aviasiyanın təməli sayılan ilk uçuş qrupu yaradılmışdır.**

Azərbaycan mülki aviasiyasının tarixi bir neçə mərhələyə bölünür. İlk mərhələdə Bakıdan Moskva, Xarkov, Tbilisi, Həştərxan şəhərlərinə hava xətləri açılıb, sərnişinlərin və poçtun təyyarə ilə daşınmasının təməli qoyulub. Ölkəmizdə ilk mülki hava reysi 1921-ci ildə poçt-sərnişin təyyarəsində həyata keçirilib. Lakin hələ 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gündən başlayaraq aviasiya sahəsində bir sıra işlər görülüb. Azərbaycan mülki aviasiyasında ilk dəfə 1923-cü il avqustun 8-də "Yunkers" təyyarəsi ilə sərnişin daşınmaları həyata keçirilib. Ölkəmizdə ilk hava limanı 1931-ci ildə Binə qəsəbəsinin yaxınlığında tikilib və 2 ildən sonra istifadəyə verilib.

1941–1945-ci illər Böyük Vətən müharibəsi dövründə bir çox sahələr kimi, mülki aviasiya da "Hər şey cəbhə üçün!" şüarı ilə fəaliyyət göstərib. Müharibədən sonrakı illərdə isə mülki aviasiya yeni mərhələyə qədəm qoyub. Belə ki, "İL-14", "İL-18" sərnişin təyyarələri, xüsusi təyinatlı aviasiya üçün "An-2" təyyarələri, "Mi-1" və "Mi-4" vertolyotları istismara daxil olub. Bu dövr 1970-ci illərə qədər davam edib.

1970-1980-ci illər isə ölkədaxili hava xətlərinin inkişaf mərhələsi olub. Məhz bu dövrdə Gəncə, Yevlax, Naftalan, Naxçıvan, Zaqatala, Lənkəran, Ağdam, Ağstafa və Şəki şəhərlərində aeroportlar tikilib, paytaxt Bakı ilə bu şəhərlər arasında hava əlaqəsi yaradılıb.

XX əsrin 90-cı illərinin əvvəllərində müstəqilliyini bərpa etmiş Azərbaycanın mülki aviasiyasında, onun inkişafında yaranmış böhran ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra aradan qaldırılıb. Ulu öndərin imzaladığı sərəncamlar və qəbul etdiyi qərarlarla aviasiya tarixində yeni bir mərhələ açılıb, onun sürətli inkişaf dövrü başlanıb. Mülki aviasiyaya böyük investisiyalar qoyulub və bunun nəticəsində müasir tələblərə cavab verən yeni təyyarələr, texniki avadanlıq alınaraq respublikaya gətirilib.

Azərbaycanın mülki aviasiyası Beynəlxalq Mülki Aviasiya Təşkilatının standartlarına tamamilə cavab verir, "Azərbaycan Hava Yolları" QSC mülki aviasiyanın ən nüfuzlu assosiasiyası – Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının üzvüdür.

Milli aviadaşıyıcımız olan "Azərbaycan Hava Yolları"nın və onun tabeliyindəki aşağıbüdcəli "Buta Airways"in təyyarə parkında bu gün yetərincə "Airbus", "Boeing", "Embraer" kimi ən müasir avialaynerlər var. Bu tipli təyyarələrlə uzaq Amerika qitəsinə, Cənub-Şərqi Asiya və Avropanın bir sıra ölkələrinə yüksək komfortlu və təhlükəsiz uçuşlar həyata keçirmək mümkündür.

Ümumiyyətlə, ölkəmizdə mülki aviasiyanın inkişafı daim diqqətdə saxlanılıb. Bu il mayın 28-də prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın birgə iştirakı ilə Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsi də bunun bariz ifadəsi kimi yüksək dəyərləndirilib.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş torpaqlarımızda genişmiqyaslı bərpa və yenidənqurma işləri həyata keçirilir.

Mürəkkəb dağlıq relyefdə yerləşən Laçın Beynəlxalq Hava Limanı işğaldan azad olunmuş ərazilərdə inşa edilən üçüncü beynəlxalq aeroportdur. Bu layihələr arasında hava limanlarının inşası xüsusilə mühüm strateji əhəmiyyət daşıyır. İndiyədək bu ərazilərimizdə müasir standartlara cavab verən Füzuli və Zəngilan Beynəlxalq Hava limanları inşa olunub. Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsi ilə Azərbaycanın beynəlxalq hava limanlarının sayı doqquza çatıb.

Tikintisinə 2021-ci ilin avqust ayında başlanılmış bu mühüm infrastruktur obyektinin inşası ən yüksək texnoloji və mühəndislik standartlarına uyğun həyata keçirilib. Hava limanının təməli 2021-ci ildə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub. Ötən müddət ərzində dövlətimizin başçısı və birinci xanım bir neçə dəfə burada tikinti işlərinin gedişi ilə tanış olublar.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Süni intellektin yaradıcılıq potensialı yüksəkdir

**Müsahibimiz Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun Multimedia Texnologiyaları Mərkəzinin rəhbəri Anar Səmidovdur.**



***– Bildiyiniz kimi, müasir dövrdə süni intellekt gündəlik həyatımızın bütün sahələrində istifadə olunur. Bəs sənət əsərlərinin bərpasında bu texnologiya necə tətbiq olunur? Süni intellekt mədəni irsin qorunmasına tam olaraq necə kömək edir?***

– Sənət əsərlərinin bərpası rəssamların və ustaların daim diqqət mərkəzindədir. Gələcək nəsillər üçün maddi-mədəni irsin qorunması hər zaman aktual olub. Maddi-mədəni irsin qorunması məqsədyönlü bərpa tədbirlərinin həyata keçirilməsini tələb edir. Süni intellektin inkişafı və onun müxtəlif fəaliyyət sahələrinə inteqrasiyası incəsənətə də mühüm təsir göstərir. Sənət əsərlərinin bərpasında süni intellektin tətbiqi son illərdə əhəmiyyətli dərəcədə artıb və bu texnologiya bir sıra vacib sahələrdə istifadə olunur.

Süni intellekt qabaqcıl alqoritmlərdən istifadə edərək, sənət əsərlərinin, əlyazmaların və memarlıq abidələrinin yüksək keyfiyyətli rəqəmsal nüsxələrini yaratmağa qadirdir ki, bu da onları fiziki itki zamanı belə gələcək nəsillər üçün qoruyub saxlamağa imkan verir. Məsələn, bu cür texnologiyalar muzeylərdə fəal şəkildə istifadə olunur, burada süni intellekt kolleksiyaları rəqəmsallaşdırmağa kömək edir və onları bütün dünyada virtual tədqiqat üçün əlçatan edir.

Bundan əlavə, süni intellekt zədələnmiş obyektlərin vəziyyətini təhlil edir və itirilmiş hissələrin dəqiq şəkildə yenidən qurulması üçün optimal üsullar təklif edərək onların əvvəlki vəziyyətinə gətirilməsində istifadə olunur. Süni intellekt şifahi və yazılı qeydləri təhlil edərək nadir və ya təhlükə altında olan dilləri belə deşifrə və tərcümə etməyə də kömək edir. Bu cür texnologiyalar unudula biləcək ənənələri, mifləri və şifahi ənənələri canlandırmağa imkan verir.



Həmçinin süni intellekt materialın strukturunda və ya tərkibində ən kiçik uyğunsuzluqları müəyyən etməklə əsl sənət əsərlərini saxtakarlıqdan qorumaq üçün istifadə edilə bilər. Bu, tədqiqatçılar üçün yeni imkanlar açır, tarixi kontekstləri daha dərindən dərk etməyə imkan verir. Süni intellekt həmçinin qeyri-qanuni qazıntılar və ya təbii fəlakətlər kimi təhlükələri müəyyən etmək üçün peyk şəkillərini təhlil edərək mədəni obyektlərin sağlamlığına nəzarət edir. Bu, əlçatmaz və ya münaqişə zonalarında yerləşən obyektlər üçün xüsusilə vacibdir.

Beləliklə, süni intellekt təkcə fiziki və intellektual irsi qoruyub saxlamır, həm də onu daha geniş auditoriya üçün daha əlçatan edir. Bu texnologiyalar sayəsində mədəni irs zamanın çağırışlarına davamlı olur və yeni nəsilləri ruhlandırmaqda davam edir. Bütün bunlar süni intellekti bəşəriyyətin mədəni yaddaşının qorunmasında tarixçilərin, arxeoloqların və muzey işçilərinin güclü müttəfiqinə çevirir.

***– Sənət əsərlərinin bərpasında hansı süni intellekt texnologiyalarından istifadə olunur?***

– Süni intellekt təsvirin təhlili və böyük həcmli məlumatların işlənməsi imkanları sayəsində sənət əsərlərinin bərpası prosesində əvəzolunmaz vasitədir. Onun köməyi ilə nəinki zərər aşkar edilib təsnif edilə, həm də işlərin itirilmiş hissələrinin necə görünə biləcəyi proqnozlaşdırıla bilər. Bu, rəsm, heykəltəraşlıq və digər sənət əsərlərini mümkün qədər orijinal görünüşünə yaxın şəkildə bərpa etməyə imkan verir. Süni intellekt insanların və maşınların yeni və innovativ əsərlər yaratmaq üçün əməkdaşlıq etdiyi yaradıcılığın yeni dövrünü başlatdı. İnsan və süni intellektin birgə yaradıcılığı həm tədqiqatçıların, həm də təcrübəçilərin diqqətini cəlb edir, bu sahəyə marağı artırır. Məqsəd həm insanların, həm də süni intellektin güclü cəhətlərindən istifadə edərək, hər birinin tək əldə edə biləcəyi imkanlarından kənara çıxan yaradıcı nəticələr yaratmaqdır. Bu sinerji müxtəlif sahələrdə moda dizaynı, memarlıq, reklam, təsviri incəsənət və musiqidə öz tətbiqini tapmışdır. Musiqi yaradıcılığında süni intellektlə işləyən alətlər getdikcə populyarlaşır, həm təcrübəli musiqiçiləri, həm də yaradıcılıq prosesində yeni başlayanları dəstəkləyir.

Süni intellektin heyrət doğuran xüsusiyyətlərindən biri də onun itirilmiş və ya zədələnmiş əsərlərin dəqiq rekonstruksiyalarını yaratmaq üçün arxiv fotoşəkillərinə, təsvirlər və hətta ədəbi mənbələr kimi tarixi məlumatlara müraciət etmək qabiliyyətidir. Çox vaxt insan gözünə görünməyən bu məlumatlar əsərlərin tarixi-mədəni bütövlüyünün bərpasının açarına çevrilir. Son onilliklər ərzində çoxsaylı sənət əsərləri əlverişsiz saxlama şəraiti, təbii fəlakətlər və hətta insan müdaxiləsi səbəbindən tədricən zədələnir. Ənənəvi bərpa üsulları çoxlu vaxt və maliyyə xərcləri, eləcə də, yüksək ixtisaslı mütəxəssislər tələb edir. Lakin ənənəvi bərpa üsulları ilə müəllifin niyyətini təhrif etmək riski olmadan itirilmiş bəzi elementləri tamamilə bərpa etmək mümkün deyil. Generativ süni intellektin inkişafı ilə bərpa prosesini avtomatlaşdırmaq və sürətləndirmək, həmçinin dəqiqliyini artırmaq mümkün olmuşdur.

***– Generativ süni intellekt vasitəsilə sənət əsərlərinin bərpası hansı mərhələlərdən keçir?***

– Generativ süni intellekt vasitəsilə sənət əsərlərinin bərpasının bir neçə mərhələləri mövcuddur: şəkillərin təhlili, zərərlərin aşkarlanması və bərpası texnologiyaları. Süni intellekt texnologiyalarından istifadə edərək təsvirin təhlili əsərin bərpası prosesində əsas addımdır. Müasir maşın öyrənməsi və dərin öyrənmə alqoritmləri işlərin rəqəmsal təsvirləri əsasında müxtəlif növ zərər və itkiləri müəyyən etməyə qadirdir.

İlkin mərhələdə təhlil etməyə başlamazdan əvvəl şəkilləri əvvəlcədən emal etmək lazımdır. İncəsənət əsərləri yüksək keyfiyyət ilə skan edilir və dəqiq rəqəmsal nüsxəsi hazır olur. Rəqəmsal şəkillərin dəqiq təhlilini təmin etmək üçün parlaqlıq, kontrast və rəng balansına düzəlişlər daxil olan normallaşdırma prosesindən keçirilir.

Növbəti mərhələdə zərərin aşkarlanması mərhələsidir. Burada şəkillərin təhlili üçün dərin təlim alqoritmlərindən istifadə olunur. Bu alqoritmlər müxtəlif növ zədələrin təsvirlərini əhatə edən böyük verilənlər bazasında öyrədilir. Çatları, aşınmaları, solğunluğu, parçaların itirilməsini və digər qüsurları müəyyənləşdirir. Təlim keçmiş modellərdən istifadə edərək, süni intellekt avtomatik olaraq zərərləri aşkarlaya və təsnif edə bilir.

Zərərlər müəyyən edildikdən sonra süni intellekt onların yenidən qurulmasına kömək edir. Belə ki, o, oxşar strukturların təhlili və tarixi məlumatlar əsasında itirilmiş və ya zədələnmiş hissələrin mümkün görünüşünü proqnozlaşdırır. Bu məlumatlara əsaslanan alqoritmlər isə 3D printerdə ya əl ilə bərpa, ya da avtomatik çap üçün dəqiq şablonlar yaradır.

Süni intellekt təsvirinin təhlili konservatorlara sənət əsərlərinə dəyən ziyanı müəyyən etmək və bərpa etmək üçün güclü alət təqdim edir. Müasir dərin təlim alqoritmləri müxtəlif növ qüsurları aşkar etməklə yanaşı, itən hissələrin necə görünə biləcəyini də proqnozlaşdıra bilir. Bu, gələcək nəsillər üçün mədəni irsi qoruyub saxlayaraq bərpa işlərini yüksək dəqiqliklə və minimum risklə həyata keçirməyə imkan verir.

***– Süni intellekt vasitəsi ilə bərpa edilmiş işlərin həqiqiliyi necə təmin olunur? Bərpa ilə yanaşı süni intellekt yeni əsərlər də yarada bilirmi? Bu yaradıcılıq prosesinə necə təsir edir?***

– Süni intellektin apardığı bərpa proseslərində həqiqiliyin təmin olunması üçün bir neçə yanaşmadan istifadə edilir. Əvvəla, AI tarixi mənbələr, sənədlər, arxiv şəkilləri, oxşar əsərlər və mövcud obyektin toxuması, forması və üslubu kimi xüsusiyyətləri təhlil edir. Daha sonra bu məlumatlar əsasında zədələnmiş və ya itirilmiş hissənin mümkün olan ən real görünüşü modelləşdirilir. Prosesin elmi əsaslara söykənməsi, insan mütəxəssislərlə əməkdaşlıq və nəticələrin vizual və material uyğunluğuna görə qiymətləndirilməsi həqiqiliyin qorunmasında əsas rol oynayır.

Bəli, süni intellekt təkcə bərpa funksiyası ilə məhdudlaşmır, həm də yeni əsərlərin yaradılmasında aktiv şəkildə istifadə olunur. Məsələn, rəssamlıq, musiqi, memarlıq və ədəbiyyat sahələrində süni intellekt əsaslı sistemlər unikal və orijinal məhsullar yarada bilir. Bu yaradıcılıq alqoritmləri əvvəlki sənət nümunələrini öyrənərək onların üslubunda yeni ideyalar irəli sürə və tamamilə yeni əsərlər formalaşdıra bilir.

Süni intellekt yaradıcılıq prosesinə həm sürətləndirici, həm də ilhamverici təsir göstərir. O, sənətçilərə və dizaynerlərə yeni üslublar kəşf etməkdə, mövcud fikirləri inkişaf etdirməkdə və eksperimentlər aparmaqda yardımçı olur. Bununla yanaşı, süni intellekt yaradıcılığın sərhədlərini genişləndirərək, insan təxəyyülünün çata bilmədiyi formalarda və məntiqdə yeni məhsullar yaratmağa şərait yaradır. Bununla belə, bu prosesdə insan zövqü, estetik baxışı və kontekstual biliklər hələ də əvəzolunmaz olaraq qalır.

***– Süni intellekt vasitəsilə yaradılan sənət əsərinin müəllifi kim hesab olunur – insan yoxsa maşın?***

– Əslində, hazırda dünyanın əksər ölkələrinin müəllif hüquqları qanunvericiliyi bir məqamda yekdildir – müəllif yalnız insan ola bilər. Yəni süni intellekt özü-özlüyündə hüquqi subyekt deyil və yaradıcı kimi tanınmır. Məsələn, əgər mən bir rəsm çəkməyi süni intellektə tapşırıramsa, amma bu prosesi tam idarə edirəmsə, kompozisiyanı düşünürəmsə, hansı rəngdə, hansı üslubda olacağını müəyyənləşdirirəmsə, bu zaman bu əsərin müəllifi mən sayıla bilərəm. Çünki burada yaradıcı qərarları verən mənəm.

Amma əgər süni intellekt tamamilə avtomatik şəkildə, heç bir müdaxilə olmadan bir əsər yaradırsa, o zaman bu əsərə müəllif hüququ tətbiq olunmur. Belə əsərlər bir növ "ictimai mülkiyyət" hesab olunur, yəni hər kəs ondan istifadə edə bilər.

Bu məsələnin bir də fəlsəfi tərəfi var. Yaradıcılıq nədir? Sadəcə texniki kombinasiyamı? Yoxsa daxili emosiyalarla, niyyətlərlə bağlı bir aktdır? İndiyə qədər bu, insan təcrübəsinə əsaslanırdı. Amma süni intellektin inkişafı bu sərhədləri bulanıqlaşdırır.

Gələcəkdə bu sahədə hüquqi dəyişikliklər ola bilər. Ola bilər ki, süni intellektlə insanın ortaq müəllifliyi tanınsın və ya proqramçıların rolu xüsusi qeyd edilsin. Amma bu gün üçün yekun cavab budur: əsərin müəllifi, yaradıcı qərarları verən və süni intellekti bir alət kimi istifadə edən insandır. Maşın – heç nə hiss etmir, heç nəyə dəyər vermir. O, sadəcə hesablayır. İnsan isə yaradır.

***– Süni intellektin sənət sahəsində geniş yayılması rəssamlar, dizaynerlər və sənətşünaslar üçün hansı imkanlar və problemlər yaradır? Gələcəkdə generativ süni intellekt incəsənət sahəsinə, bədii yaradıcılığa necə təsir göstərə bilər?***

– Bilirsiniz, bir vaxtlar rəssam palitrasını, fırçasını əlinə alıb bir ağ kağızın qarşısında dayananda tək idi. Yalnız özü və xəyal gücü var idi. İndi isə yanında bir tərəfdaş var – görünməz, səssiz, lakin çox məlumatlı və çevik bir tərəfdaş, yəni süni intellekt.

Süni intellekt rəssamlar üçün, necə deyərlər, bir növ yaradıcılıq güzgüsüdür. Onunla ideya paylaşmaq olur, eskizlər hazırlatmaq olur, hətta tamamlanmamış bir əsərin necə davam edə biləcəyini soruşmaq mümkündür.

Dizaynerlər üçün isə bu texnologiya demək olar ki, "super alət"ə çevrilib. Tutaq ki, bir logo hazırlamaq lazımdır. Süni intellekt saniyələr içində onlarla variant təqdim edir. Ya da bir interyer dizaynı üçün kompozisiya qurmaq əvvəllər bir neçə gün çəkirdisə, indi bir neçə saat kifayətdir. Amma bu sürət bəzən elə dizaynerin özünü də çaşdırır: "Görəsən, mənə ehtiyac qalacaqmı?" – deyə düşünür.

Sənətşünaslar üçün süni intellekt həm dostdur, həm də bir az qəribə qonaq. Çünki əsərin müəllifini təyin etmək, onun dövrünü və mənbəsini araşdırmaq indi daha dəqiq və sürətli ola bilir. Amma eyni zamanda, süni intellektin yaratdığı əsərlərin sənət olub-olmadığı, müəllifin kim olduğu, ya da bu əsərlərin hansı kontekstdə dəyərləndirilməsi sualları da yaranır. Bu da onları yeni etik və nəzəri mübahisələrə aparır.

Gələcəyə gəldikdə isə, mənə elə gəlir ki, generativ süni intellekt bədii yaradıcılığı dəyişməyəcək, o, sadəcə yeni bir dil gətirəcək. Necə ki, bir vaxtlar fotoqrafiya gəldi və rəssamlıq dəyişdi, indi də bu texnologiya sənətin sərhədlərini genişləndirəcək. Amma insan hissi, düşüncəsi, mədəni kontekst – bunlar hələlik süni intellektin anlaya bilmədiyi dəyərlərdir. Yəni texnologiya nə qədər irəliləsə də, sənətin ruhu hələ də insanda qalır.

***S.MƏMMƏDOV***
***XQ***

# Yeni dünyanın kodları – VII

## *Beyində kvant sürprizi: Şüur bir hesablama gücüdürmü?*




**Oğuz ARİF**

İnsan beyni haqqında biliklərimiz getdikcə dərinləşsə də, hələ də çoxsaylı suallar cavabsız qalır. Şüurun necə yarandığı, yaddaşın necə saxlandığı, qərarların hansı səviyyədə alındığı sualları hələ də bəşər övladını düşündürür. Son illərdə isə bu sahəyə tamamilə yeni bir istiqamətdən – **kvant fizikasının və biologiyanın kəsişməsindən** baxılır. ABŞ və Avropa tədqiqatçılarının apardığı təcrübələr, **beyində kvant hesablamaların mümkün olduğunu** ortaya qoyur. Bu isə təkcə neyrofiziologiya üçün deyil, süni intellekt, fəlsəfə və texnologiya üçün də yeni bir dövrün başlandığını göstərir.

### Triptofan – sadəcə, amin turşusu deyil

Yeni tədqiqatlarda diqqət mərkəzində **triptofan** adlı amin turşusu yer alır. Klassik biologiyada bu molekul əsasən zülalların tərkibində yer alan, müəyyən kimyəvi reaksiyalarda iştirak edən element kimi tanınır. Lakin **Howard Universitetinin** Kuantum Biologiyası Laboratoriyasının direktoru **Filip Kurian** və komandası bu molekulun daha dərin, hətta bəlkə də transformativ bir funksiyasını üzə çıxarıblar.

Triptofan molekulları **ultrabənövşəyi işığı** udaraq aşağı enerjili işıq yayır. Bu, "floresans" adlanan yaxşı tanınmış bir effektdir. Ancaq daha maraqlısı odur ki, çoxlu triptofan molekulu **çox dəqiq strukturlaşmış protein torlarında birləşdikdə**, bu işıq saçma effekti **"süperradyasiya"** (super-ışıma) adlanan kvant davranışına çevrilir. Yəni bu molekullar bir-biri ilə **kollektiv şəkildə işləyir**, sanki bir kvant kompüteri kimi davranır.

### Kvant siqnallar beyin sürətini dəyişir

Ənənəvi neyrobiologiya bizə məlumat ötürülməsinin sinapslar vasitəsilə, yəni kimyəvi siqnallar sayəsində olduğunu öyrədib. Bu prosesin sürəti isə **millisaniyə** ilə ölçülür. Ancaq Kurian və onun əməkdaşları sübut ediblər ki, **triptofan şəbəkələri məlumatı "pikosaniyə" ilə ötürə bilər**. Bu, təxminən bir milyard dəfə daha sürətli siqnal ötürülməsi deməkdir.

Əgər bu kəşf öz təsdiqini daha geniş miqyasda taparsa, bu, **beynin sadəcə kimyəvi deyil, həm də optik bir siqnal sisteminə sahib olduğunu** göstərər. Hətta belə deyək: **beyin, müəyyən strukturları ilə fiber-optik kabellər kimi işləyir və bu zaman kvant informasiyasını emal edir**.

### Həyatın kvant kökləri varmı?

Bu nəticələr bir çox fundamental sualları yenidən gündəmə gətirir. Məsələn, fizikanın nəhəngləri arasında sayılan Ervin Şrödinger hələ 1944-cü ildə yazdığı "**Həyat nədir?**" adlı əsərində canlıların klassik fizikanın izah edə bilmədiyi dərəcədə mürəkkəb və səmərəli informasiya emal etdiyini vurğulamışdı. Kurianın təklif etdiyi model məhz bu fikrin elmi əsaslarını təqdim edir: **canlı hüceyrələr kvant effektlərini istifadə edərək mövcud olur və öz funksiyalarını yerinə yetirirlər**.

Bu isə həm də o deməkdir ki, **şüur – bəlkə də təkcə sinir sistemində yaranan təsadüfi mexanika deyil**, özündə kvant enerji düzənlərini birləşdirən mürəkkəb bir hesablama mexanizmidir. Bəs bu mexanizm sadəcə beyinəmi aiddir?

### Kvant şüur yalnız insana aid deyil

Tədqiqatçılar iddia edirlər ki, **bakteriyalardan tutmuş bitkilərə qədər bir çox canlı orqanizmlər triptofan əsaslı şəbəkələrə malikdir**. Bu isə o deməkdir ki, kvant siqnallaşma təkcə insan beyni üçün deyil, ümumilikdə həyat üçün fundamental bir prinsipi ifadə edə bilər. Kurianın dediyinə görə, "şüur bir əlavə deyil, həyatın mahiyyətidir".

Yəni sual daha da genişlənir: **şüur bəlkə də yalnız insanın üstün keyfiyyəti deyil, həyatın öz kodlaşdırılmış formasının təzahürüdür**.

### Yeni nəsil kompüterlər və həyatın təqlidi

Bu cür kəşflər təkcə təbiəti anlamağa yox, həm də texnologiyanı yeni səviyyəyə qaldırmağa imkan yaradır. **Süni intellekt və kvant kompüterləri birləşdirməyə çalışan tədqiqatçılar**, artıq **canlı orqanizmlərdən öyrənmək zərurətini** anlayırlar. Bəlkə də gələcəyin ən güclü kompüterləri **insan beynindən deyil, bakteriyalardan ilham alacaq**.

Triptofan əsaslı kvant şəbəkələrinin yaradılması, optik hesablama modellərinin tətbiqi və neyrooptik əlaqələrin simulyasiyası süni intellektin növbəti mərhələsinin əsaslarını qoyur.

### Azərbaycan üçün nə vəd edir?

Azərbaycan da bu cür tədqiqatların gələcək mərhələlərində iştirak edə bilər. **Biotexnologiya və neyroelm sahəsində fəaliyyət göstərən elm mərkəzlərimiz**, beynəlxalq əməkdaşlıqlarla **kvant-bioloji təcrübələrin** iştirakçısına çevrilə bilər. Eyni zamanda, bu sahədə **beynəlxalq informasiya mübadiləsi və tərcümə proqramları** üçün ciddi intellektual potensial var.

Bəlkə də bu sahədə atılan ilk addım, **elmsevər oxucularımızı bu məsələlərə yaxınlaşdırmaqdan** keçir – elə bu yazı da o niyyətin təzahürüdür.

### Sonda – sualdan gerçəyə

Kurianın və onun komandasının kəşfləri sadəcə elmi məlumat vermir, həm də bir **paradiqma dəyişikliyi**ni ifadə edir: **şüur nədir, həyat nədir, informasiya necə doğulur?** – bu suallara yeni cavab formalaşır. Şüur sadəcə beyin kimyasının məhsulu deyil, həyatın **kvant düzənində yazılmış kodu** ola bilər.

Əgər belədirsə, demək ki, **şüur da, həyat da, informasiya da – işıqdan yaranır.**

Qanla yazılmış tarix

# Şuşada daşnakların törətdiyi amansız qırğının tarixçəsi

## *Qəzetimizin 25 fevral 1921-ci il sayında bu barədə "Şəhidlərin dəfni"adlı yazı çap olunmuşdu*

**1921-ci ilin qışı Qarabağa daha sərt gəlmişdi. Yollar buz bağlamış, gediş-gəliş çətinləşmişdi. Soyuq qılınc kimi kəsir, adamın iliyinə işləyirdi. Bu şaxtalı, boranlı gündə daşlı-kəsəkli kəsə yolla Şuşadan Malıbəyliyə bir atlı şütüyürdü. O, atını dəhmərləyərək Bakıdan Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun göndərdiyi məktubu, nəyin bahasına olursa-olsun, ünvanına vaxtında çatdırmağa tələsirdi.**

Nəhayət, atlı dizə çıxan qarı yara-yara səhər tezdən çətinliklə Malıbəyliyə çataraq atını birbaşa hələ neçə il əvvəl şəxsən tanıdığı İsfəndiyargilin qapısına sürdü. Həyət darvazasını döyəcləyərək ev yiyəsini hayladı. Səsə İsfəndiyar özü çıxdı. Salam-kəlamdan sonra qonağı evə dəvət elədi. Ancaq atlı təcili geri qayıdacağını bildirib, surqutlu üçkünc məktubu ona verdi. İsfəndiyar məktubu tələm-tələsik açıb, oxumağa başladı. Doktor Nərimanov xahiş edirdi ki, o, bu gün hökmən Şuşa qalısında olmalı, Qarabağ zəhmətkeşlərinə konsert vermək üçün Bakıdan - Xalq Maarif Komissarlığının göndərdiyi bir neçə nəfərlik aktyor truppasını qarşılasın və onları bələdçi kimi lazımi yerlərə aparsın.

İsfəndiyar məktubu oxuyub, başa çatandan sonra dərhal həyətə bağlanmış kəhər atını yəhərlədi və təcili iş dalınca getdiyini evlərinə bildirib, Şuşadan gələn atlı ilə birlikdə yola düzəldi. Yol boyu o, öz böyük dostu, xeyirxahı, yolgöstərəni Nəriman Nərimanovu minnətdarlıqla xatırladı, doktorun onu unutmadığına görə bir fərəh, qürur hissi keçirdi...

İsfəndiyargil artıq Şuşa həbsxanasının yaxınlığına çatmışdılar. O, atının cilovunu bir anlığa çəkdi, geri çönüb, qayanın döşünə məğrur bir qartal kimi "qonmuş" doğma kəndinə tamaşa elədi. Elə bil, ürəyinə dammışdı ki, o, Malıbəylini sonuncu dəfə görür. Onu tərk etməyən xatirələr işığında uşaqlıq, gənclik illəri gəlib gözləri önündə canlandı. Yenə də məktəb illəri yadına düşdü.

Onda 1909-cu ilin payızı idi. Novoçerkassk Politexnik İnstitutunun tələbəsi, şuşalı Mirhəsən Vəzirovun nəfinə Malıbəylidə teatr tamaşası göstərilirdi. O da bu xeyirxah tədbirdə iştirak edirdi. Müəllimlər, kənd əhli, hətta məktəb şagirdləri maddi çətinlik çəkən tələbəyə kömək əlini uzatmaq üçün ianə toplayırdılar. İsfəndiyar da "kasıbın olanından" - deyib 20 qəpik pul vermişdi. Bir neçə gündən sonra Tiflisdə çıxan "Zaqafqaziya" qəzetində tədbir iştirakçıları sırasında atası Hacı Məmməd kişiylə birlikdə İsfəndiyarın da adı çəkilmişdi. İsfəndiyar da bu xatırlamadan daha da ruhlanmış və kənd səhnəsində oynanılan bütün tamaşalarda fəal iştirak etməyə başlamışdı...

Məmməd Qarayevin vaxtı ilə özünün də oxuduğu Zaqafqaziya (Qori) Müəllimlər Seminariyası barədə söhbətləri İsfəndiyarın da qəlbində Qoridə oxumaq, müəllim olmaq arzusu oyatmışdı. Ona görə də kənd məktəbini qurtarandan sonra Məmməd müəllimin xeyir-duası ilə seminariyaya qəbul imtahanları vermək üçün məktəb yoldaşları Əhəd, Yusif və İsgəndərlə birlikdə Qori şəhərinə yola düşmüş, dördü də imtahanları uğurla verib, seminariyaya daxil olmuşdu.

Təhsil illərində İsfəndiyar əla oxumaqla bərabər, seminariyada müxtəlif tədbirlərdə, müsamirələrdə, gecələrdə fəal iştirak eləyir, get-gedə dünyagörüşü formalaşır, milli azadlıq ideyaları qanına, canına hopurdu... Quş qanadlı beşillik təhsil həyatı artıq geridə qalmışdı. O, böyük həvəslə xalqın balalarını maarifləndirməyə tələsirdi. Lakin 1917-ci lin Fevral Burjua Demokratik inqilabı, Rusiyada, onun ardınca isə Qafqazda başlanan siyasi hərc-mərclik gənc müəllimə təyinat yerinə getməyə imkan vermədi.

İsfəndiyar həmin vaxtlar siyasi hadisələrin mərkəzinə çevrilən Bakıya üz tutdu. Çoxdan görmək istədiyi Nəriman Nərimanovla tanış oldu. Aralarında xeyli yaş fərqi olmasına baxmayaraq, onlar tezliklə dostlaşdılar. Oktyabr çevrilişi baş verəndən bir neçə ay sonra isə İsfəndiyar gələcək fəaliyyətini davam etdirmək üçün Gəncəyə getdi. Artıq həmin vaxt Azərbaycan Demokratik Respublikası qurulmuşdu. İsfəndiyar da, onun sifarişilə Qarabağdan Gəncəyə gələn məktəb və seminariya yoldaşları Əhədlə İsgəndər də yenicə yaranmış respublikanın milli ordusuna götürüldülər. Seminariya təhsilləri olduğu üçün onlara hərbi rütbə verib, Xan kəndindəki polka göndərdilər.

Bu vaxt Qarabağda vəziyyət son dərəcə kəskinləşmişdi. Bir yandan ermənilər və bolşeviklər, bir yandan isə ingilislər və almanlar hakimiyyəti ələ almağa çalışırdılar. Bu ağır vaxtlarda İsfəndiyar və yoldaşları kənd-bəkənd gəzərək vətənini, millətini sevən gəncləri milli orduya cəlb edir, onları yadellilərə qarşı mübarizəyə səsləyirdilər. Bir neçə ay ərzində bu zabitlər təbliğat aparmaqla Malıbəyli, Quşçular, Xocalı, Gülablı, Xəlifəli, Kosalar, Kərgicahan və sair ətraf kəndlərdən yüzlərlə gənci milli ordu sıralarına səfərbərliyə ala bildilər. Onlar gənc əsgərlərə hərbi təlim keçir, tüfəng atmağı, döyüş qaydalarını öyrədirdilər. Məhz bu cür qeyrətli vətənpərvər oğulların sayəsində Qarabağdakı milli ordunun sıraları xeyli möhkəmlənmiş, döyüşçülərin sayı artmışdı.

İsfəndiyar 2 ilə yaxın milli ordunun Xan kəndindəki alayında rota komandiri vəzifəsində qulluqda oldu. Bu müddət ərzində o, dəfələrlə ermənilərə qarşı döyüşlərdə iştirak elədi. Xüsusilə, Laçın, Qubadlı, Gorus istiqamətində hücuma keçən daşnak quldur dəstələrinin qarşısının alınmasında şəxsi igidlik nümunələri göstərdi. 1918-ci ilin iyulunda tayqulaq Andronikin başçılıq etdiyi erməni milli birləşmələri Zəngəzur qəzasının ərazisini işğal edərək Şuşa istiqamətində irəliləyirdilər. Artıq onlar Əsgəran yolunu da bağlamış, azərbaycanlılar yaşayan kəndləri mühasirəyə almışdılar.



İsfəndiyar Hacıyev



Əbülhəsən Anaplı

Sentyabr ayında Azərbaycan ordusu erməni qoşunlarını Qarabağın dağlıq hissəsindən və Zəngəzurdan sıxışdırıb çıxarmaq üçün əmr aldı. Bu əməliyyatlarda İsfəndiyar Hacıyevin rotası da iştirak edirdi. Qızğın döyüşlərin birində Azərbaycan ordusunun bir neçə topu Zabux dərəsində qalmışdı. Ermənilərin bu topları ələ keçirmək təhlükəsi vardı. Topları xilas etmək üçün həmin yerləri beş barmağı kimi tanıyan İsfəndiyara qərargahdan xüsusi tapşırıq verildi: Nəyin bahasına olursa-olsun, toplar xilas edilib, geri gətirilməlidir. Gənc zabit böyük risqə gedərək gecə saat üç-dörd radələrində heç bir itki vermədən həmin topları salamat dərədən çıxarıb, qərargaha gətirdi. Bu igidliyinə görə İsfəndiyar komandanlıq tərəfindən mükafatlandırıldı.

1920-ci ilin may ayında Xl Qızıl Ordu hissələri Qarabağa daxil oldu. Milli ordunun əsgər və zabitləri pərən-pərən düşərək hərəsi bir tərəfə dağıldı. Bəziləri Arazı o taya adladı, bəziləri isə həbs olunub, güllələnməyə məhkum edildi. İsfəndiyarı isə Gəncədə haqladılar, güllələmək üçün Bakıya göndərdilər. El-obasını, torpağını, millətini sevən bu gənc zabitin günahı isə minlərlə başqaları kimi "millətçi təşkilat"ın üzvü olması və erməni daşnaklarına qarşı mübarizə aparması idi.

Lakin xoş bir təsadüf, necə deyərlər, onun qanını satın aldı, məsul vəzifədə işləyən həmyerlisi Məmmədxan Məmmədxanovla tanış çıxması İsfəndiyarı ölümün caynağından qopardı. Və onun köməyi ilə həbsdən və ölüm cəzasından azad olundu. Elə həmin il oktyabrın 10-da Nəriman Nərimanov Şuşaya gələndə İsfəndiyar da bir neçə gün doktoru müşayiət edən dəstənin tərkibində oldu, onun təhlükəsizliyini təmin edərək sağ-salamat Bakıya yola saldı...

Gözlərinin qarşısından gəlib-keçən bu ağrılı-acılı anlar İsfəndiyarı yenidən xəyala daldırdı. "Bütün zəhmətimiz puç oldu, müstəqilliyimiz əldən getdi! Ancaq neynəmək olar?! Zəmanə belə gətirdi!" - deyə fikirləşdi. Bu yolda həlak olmuş, itkin düşmüş silahdaşlarını xatırladı... Elə bil yuxu görürdü. Qəflətən ayılıbmış kimi "birdən qonaqlar gəlib çıxmış olar!" - deyə sonuncu dəfə uzaqda görünən kəndinə baxıb, yol yoldaşı ilə bərabər, atını şəhərə tərəf sürdü. "Gəncə qapısı"ndan keçib, "Bazarbaşı meydanı"na çıxdı. Atının yüyənini meydandakı ağacların birinə keçirib, qonaqlarını gözləməyə başladı.

Günortadan xeyli keçmiş qonaqlar onlar üçün sifariş edilmiş faytonda gəlib-çıxdılar. İsfəndiyar cəld onların qarşısına yeriyib, özünü təqdim elədi, bildirdi ki, doktor Nərimanovun dediyi adam odur və bütün qastrol boyu bələdçi kimi onları müşayiət edəcək. Qonaqlar - Bakı səhnəsinin məşhur artistləri Əbülhəsən Anaplı və Mirpaşa Sadıqov özlərini təqdim elədilər. Qarabağda vəziyyət sabit olmadığından aktyorları hərbi məktəbin 3 kursantı - zabit Əbdülhəmid Yusifxanov, yunkerlər Mirəhməd Mirhəsənov və Möhsün (Rza) Əsgərov müşayiət edirdilər.

Nahardan sonra dincəlmək üçün qonaqlar yerbəyer edildi, sabahdan kəndlərə çıxmaq planlaşdırıldı. İlk səfər Şuşa yaxınlığındakı ermənilər yaşayan Keşiş kəndinə oldu. Birinci olaraq bu kəndi seçməkdə məqsəd yaxınlarda daşqından zərər çəkmiş yerli əhaliyə maddi yardım göstərmək, yeni qurulmuş fəhlə-kəndli hökumətinin qısa müddətdə əldə elədiyi nailiyyətləri və iki xalq arasında dostluq və əməkdaşlıq ideyalarını təbliğ etmək idi. Amma İsfəndiyar erməni nankorluğuna, erməni etibarsızlığına yaxşı bələd olduğu üçün hər ehtimala qarşı, Şuşa cəza batalyonunun əsgərləri – Teymur Əliyevi, Məhərrəm İsgəndərlini və kursant Teymur Hüseynovu da özüylə götürdü. Adyutantı Yusif Paşayev də onlarla getmişdi.

1921-ci il fevralın 13-də İsfəndiyar Hacıyevin başçılığı ilə Şuşadan çıxan təşviqatçı dəstəsi axşam saat 6-da Keşiş kəndinə gəldi. Kilsə zəngi çalındı. Kəndlərinə qonaq gələcəyini qabaqcadan bilən sakinlər kilsənin ətrafına toplaşdılar. Təşviqatçılar burda mitinq təşkil etməli, gəlişlərinin məqsədini kənd əhlinə bildirməli və yaxından tanış olub, bir-biriləri ilə ünsiyyət qurmalı idilər. Lakin həmin gün neft olmadığı üçün lampalar yanmırdı və ona görə də qaranlıqda mitinq baş tutmadı.

Şənlik növbəti günə keçirildi. Əvvəlcədən planlaşdırıldığı kimi kənd keşişi Şamir Sərkisoviç Məlikallahverdov qonaqları evinə dəvət elədi. Şam yeməyi zamanı ev sahibi təzə hökumətin və Azərbaycan xalqının sağlığına badələr qaldırdı, onların dost və qardaş olduğunu dönə-dönə xatırlatdı, buna aid misallar da çəkdi. Sonra bu "dostluğu və qardaşlığ"ı davam etdirəcəklərini xüsusi vurğuladı, özünü "beynəlmiləl din xadimi" adlandırdı. Boğazdan yuxarı deyilən növbəti sağlıqlar da bu axarda oldu.

Məclis boyunca ev sahibinin bir neçə dəfə durub, o biri otağa keçdiyi, oğlu ilə öz dillərində nə barədəsə danışdığı qonaqların gözündən yayınmadı. Ancaq ağıllarına başqa bir şey gətirmədilər. Qonaqların qarşısında dəridən-qabıqdan çıxan keşiş gecəni burda qalmağı onlardan təkidlə xahiş elədi, razılıqlarını alandan sonra yatmaq üçün onlara ikimərtəbəli evinin üst mərtəbəsindəki geniş zalında yer düzəltdilər. Yorğun-arğın qonaqlar başlarını atıb yatdılar. Onlar yuxuya keçən kimi Samson atasının göstərişi ilə gizlicə evdən çıxıb, kəndin kənarındakı meşədə marıqda duran quldur daşnak dəstəsinin başçısı Tevanın qərargahına tələsdi...

Tevan Arakelyants Antanta dövlətlərinin Qarabağda agenti kimi Fransa və İngiltərə hakim dairələrinin göstərişlərini yerinə yetirirdi. O, daşnaklardan ibarət 300 nəfərlik silahlı quldur dəstəsi düzəldərək dinc vətəndaşlar arasında fitnə-fəsad törədir, əhalini qorxuya salaraq müxtəlif yollarla özünün dəstəsinə götürür, onları qətllərə və qarətlərə təhrik edirdi. Bu vasitələrlə də o, Sovet hakimiyyətini devirmək üçün hər əmələ əl atırdı.

Səhər açılmaq üzrə idi. Saat 5–6 radələrində qəflətən kəndin küçələrində vəhşi "ura!" səslərçığırtısına qarışmış atəş səslərindən daş kimi yuxuya gedən qonaqlar yerlərindən dik atıldılar. Əcaib-qəraib bağırtılar artıq keşişin evinin dörd tərəfində də eşidilməyə başladı və onlar Şamirin evini mühasirəyə aldılar. Sən demə, bu qara keşiş oğlundan Tevana xəbər göndərib ki, əlimizə yaxşı "ov" keçib, fürsəti əldən vermək olmaz. Bu xəbəri alan kimi tevançılar dərhal hücum çəkib, kəndə girib.

"Gör sizin başınıza nə oyun açacağıq!" – sözlərini eşidən İsfəndiyar cəld yoldaşlarına evdən çıxmağı əmr elədi. Adyutantını birtəhər aradan çıxarıb, kömək dalınca Şuşaya göndərdi. Özü və digər yoldaşları da evi tərk edərək müxtəlif səmtlərə üz tutdular. İt kimi pusquda duran tevançılar isə onları gülləyə basıb, hamısını öldürdülər. Yalnız Rza Əsgərovu güllə tutmadı və o, geri keşişin evinə qayıtdı. Ev sahibinə yoldaşlarının hamısının öldürüldüyünü deyib, xahiş elədi ki, onu gizlətsin, tevançıların əlinə verməsin. Üstəlik, zərərçəkən keşişkəndlilər üçün gətirdikləri 350 manatı da ona verdi. Tevançılar isə kiminsə sağ qalacağını fikirləşib, ev-ev gəzərək onları ələ verməyi camaatdan tələb edirdilər. Elə bu vaxt dörd tevançı quldur keşişin evinə girdi. Rzanın xahişinə məhəl qoymayan Şamir onu tevançılara təslim elədi və quldur dəstəsinin komandiri Ağacan Rzanı güllələdi.

Bir azdan kənd adamları öldürülənləri basdırmaq məqsədi ilə meyidləri yığmağa başladılar. Lakin tevançılar buna yol vermir, onları itlərə yem eləmək istəyirdilər. Şmavon adlı birisi qılıncını siyirib, irəli atıldı və meyidləri şaqqalamağa başladı. Digər silahlı daşnaklar da onun bu qansız və vəhşi hərəkətini təkrarladılar. Ürəkləri soyumayan qəddar və qaniçən bu vəhşilər öldürdüklərini dəhşətli dərəcədə eybəcər hala saldılar, meyidlərin əllərini, ayaqlarını kəsdilər, başlarını bədənlərindən ayırdılar, dillərini çəkib yerindən qopartdılar, mədələrini yararaq içalatlarını çıxarıb çölə tökdülər və sair və ilaxır. 9 nəfəri qətlə yetirən tevançılar kəndi tərk etdilər. Onlar gedəndən sonra yerli əhali meyidləri basdıra bildi.

Hadisədən xəbər tutan Şuşadakı 250-ci polkun cəza batalyonunun əsgərləri dərhal özlərini Keşiş kəndinə çatdırdılar. Polk komandiri Voyçixovski həlak olanların aqibətini öyrənib-bilmək üçün yerli sakinləri bir yerə topladı, bu hadisənin törədilməsində şübhə doğuranları tutmağı əmr elədi. 42 şübhəli daşnak həbs olundu. Əvvəlcə onlar heç nəyi boyunlarına almaq istəmirdilər. Lakin xislətlərində anadangəlmə satqınlıq olan ermənilər meyidlərin harda basdırılmasının yerini dedilər. Cəza batalyonunun əsgərləri torpağı qazıyıb meyidləri çıxartdılar və meyidlərlə birlikdə həmin 42 nəfəri də Şuşaya gətirdilər.

... Həbs olunanları Gəncə qapısından sola döndərib, həbsxanaya sarı apardılar və yarı yolda qəzəbli izdihamla qarşılaşdılar. Xüsusi təyinatlı dəstənin komandiri Əhməd Əhmədovun və dustaqları aparan silahlı əsgərlərin göstərdikləri səylərə baxmayaraq, onlar hücum çəkib, caniləri əzişdirməyə başladılar... Ermənilərdən cəmi yeddi nəfəri sağ qaldı, onlar da lazaretə aparıldı.

Yazıya bir neçə haşiyə əlavə etmək istəyirik.

... İsfəndiyar Hacıyevin adyutantı olmuş Yusif Paşayevin 1977-ci ildə sağ-salamat olduğunu bilib, dərhal onun yaşadığı Ağdam şəhərinə yollandım. Artıq 90 yaşını haqlamış bu ahıl kişi ilə görüşdüm. Kim olduğumu biləndən sonra mənim suallarıma cavab verməyə başladı. İlkin olaraq bildirdi ki, sağ qalmasında komandiri və həmkəndlisi İsfəndiyar (onu qısaca olaraq "İspən" də çağırırdılar) Hacıyevə borcludur. Əlavə elədi ki, həmin gün o, səhər tezdən məni yuxudan durğuzub, atlara yem verməyi tapşırdı. Elə bu vaxt atışma səsləri eşidilərkən İsfəndiyar, sanki, nə olacağını duyubmuş kimi məni kömək dalınca Şuşaya göndərdi. Və mən Şuşaya xəbərə getməyimlə sağ qalmışam.

...Erməni vəhşilərini camaat cəzalandırarkən bu hadisəni öz gözləri ilə görmüş Surxay RzayevYusif Rzayevə danışırmış:

– Uşaq idim, on 11 yaşım vardı. Bir gün səhər tezdən kimsə bizə gəlib, o vaxt Şuşa həbsxanasının rəisi olan atam Məşədi Abbas Rzayevə həyəcanla nəsə dedi. Atam cəld durub, onunla getdi və mən də atamın xəbəri olmadan onun arxasınca qaçdım. Və yolda baş verənlərə gizlicə tamaşa eləməyə başladım. Ordakı mənzərəni görəndə dəhşətdən, az qala, ağlımı itirmişdim. Şuşa camaatının xain, qaniçən erməniləri necə cəzalandırdığını gördüm. Birdən atam məni görüb, ordan çıxıb-getməyimi tapşırdı. Bununla belə, mən o murdar məxluqların ölüm səhnəsinin şahidi oldum.

...Televiziya verilişlərinin birində məşhur aktyorumuz Ağasadıq Gəraybəylidən eşitdim ki, Qarabağa qastrol səfərinə çıxan həmin o artistlərin arasında o da olub. Və mən bu hadisə ilə bağlı tədqiqat işləri apararkən Ağasadıq müəllimlə təsadüfən rastlaşdım. 1977-ci illərdə rejissor Mehdi Məmmədovun Azərbaycan Dövlət Milli Akademik Dram Teatrında yeni quruluşda tamaşaya qoyduğu Səməd Vurğunun "İnsan" pyesinin premyerasında bu böyük aktyoru gördüm və tamaşa başa çatandan sonra teatrın qarşısında ona yaxınlaşdım.

Salamlaşıb, kim olduğumu dedim və bir neçə sualıma cavab verməsini xahiş elədim. O, razı olduğunu bildirdi və biz küçə ilə söhbət eləyə-eləyə birgə addımlamağa başladıq. Mən çəkinə-çəkinə: "Siz də, deyəsən, Bakıdan Qarabağa gedən həmin teatr truppasında olmusunuz", – deyəndə o, sözümü kəsib, kədərlə: "Düz deyirsən, bala, nə soruşacağını bilirəm. Ağdamda bizi Şuşaya gedən aktyorlardan ayırıb, Abbas Mirzə Şərifzadənin rəhbərliyi ilə Qarabağın başqa kəndlərinə göndərdilər. Deyəsən, anam məni namaz üstə doğmuş. Ona görə mən də, digər yoldaşlarım da salamat qaldıq.

Qısa söhbətimiz elə burdaca qurtardı və sağollaşıb ayrıldıq.

... Keşiş faciəsindən sonra aktyorların və kursantların cəsədləri Bakıya gətirildi. Dəfn komissiyası yaradıldı. Sədr Abbas Mirzə Şərifzadə, katib Hacağa Abbasov, xəzinədar Ələbbas Rzayev təyin olundu, Hüseynqulu Sarabski, Mirzağa Əliyev, Sidqi Ruhulla, Murad Muradov və başqaları üzv seçildilər. Qəzetlər aktyorlar barəsində nekroloqlar dərc elədi.

"Kommunist" qəzeti 25 fevral 1921-ci il tarixli nömrəsində "Şəhidlərin dəfni" adlı məqaləsində bu təntənəli mərasim haqqında yazmışdı: "Qarabağda inqilab uğrunda facianə bir surətdə şəhid olan artistlərdən Əbülhəsən Anaplı ilə Mirpaşa Sadıqovu və zabitlərdən Əbdülhəmid Yusifxanov, yunkerlərdən Mirəhməd Mirhəsənov ilə Möhsün (Rza) Əsgərov yoldaşları dəfn etdilər. Əvvəlcə bu 5 cənazə böyük izdihamla Təzəpir məscidindən qaldırılıb, dövlət teatrı qarşısına gətirildi. Teatr qarşısında aktyorlar tərəfindən, fəhlə klubundan, Rusiya teatr dəstəsindən, yəhudi artistlərindən, "Satiragit" teatrından nümayəndələr yanıqlı və atəşin nitqlər söylədilər. Sonra cənazələr "Rabis" qarşısında saxlanıb, "Rabis" nümayəndəsi ilə Gəncə artistləri nümayəndəsi danışdılar.

Ordan cənazələr maarif xalq komissarlığı qarşısına gətirildi. Burda maarif xalq komissarı yoldaş Dadaş Bünyadzadə, maarif xadimləri ittifaqı tərəfindən Müslüm bəy Maqomayev nitq söylədilər. Hərbiyyə məktəbi qarşısında yoldaş Mirzə Davud Hüseynov, Cəbiyev və hərbiyyə məktəbi tərəfindən Kənan yoldaşlar əlvida dedilər.

Ordan cənazələr Azərbaycan İnqilab Komitəsi qarşısına gətirildi. Burda yoldaş Nərimanov atəşin və mənalı bir nitq söylədikdən sonra Azərbaycan Kommunist Firqəsinin Mərkəzi Komitəsi qarşısında yoldaş Mirzə Davud Hüseynov Mərkəzi Komitə tərəfindən danışdı. Ordan Bakı İcraiyyə Komitəsi qarşısına gətirilib, burda Bakı Şurası tərəfindən Mirbəşir Qasımov və şəhərimizdə davam edən füqəra komitələri qurultayı tərəfindən bir nəfər nümayəndə axırıncı əlvida nitqləri söylədilər! Sonra cənazələr qaldırılıb, qara torpaqlara tapşırılmaq üçün qəbristana aparıldı.

Mərasimi dəfndə bütün xalq komissarları, hərbiyyə nümayəndələri, artistlər, füqara komitələri, qurultayın bütün nümayəndələri isbati vücud edirdilər. Bunlardan başqa, şəhər əhalisi dəxi qəmlərə şərik olub, mərasimi dəfndə iştirak edirdi".

İsfəndiyar Hacıyev isə Şuşanın "Mirfəseh qəbiristanlığı"nda dəfn olundu. "Cıdır düzü"ndə – şəhərin fəxri qəbiristanlığında baş daşı üzərində aşağıdakı şeir parçası həkk olundu:

**Qadir Allah, qədrini mən bilmişəm,**
**Baş götürüb, dərgahına gəlmişəm.**
**Qoy bu daşı oxuyanlar bilsinlər,**
**Mən burada nə dərd ilə ölmüşəm.**

1921-ci il aprelin 2-də Azərbaycan İnqilab Tribunalının Səyyar Sessiyasında erməni daşnaklarına mizan-tərəzi quruldu, onların cinayət işinə baxıldı. Səyyar Sessiyanın 4 aprel 1921-ci il tarixli məhkəmə iclasında əmlakları müsadirə olunmaqla canilər Şamir Məlikallahverdov, Ambarsum Petrosov, Arşak Arakelov, Akop Arzumanov, Samson Məlikallahverdov layiq olduqları ən ağır cəzaya - güllələnməyə məhkum edildilər.

*Vasif QULİYEV,*
*"Şuşa"qəzetinin redaktoru*

# Türkdilli dövlətlərin mənəvi dünyasının təcəssümü

**Mayın 24-də start götürmüş IV Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı bu gün sona yetəcək. Ötən günlərdə festivalda bir sıra maraqlı görüşlər, panellər, imza saatları, əyləncəli tədbirlər təşkil olunub.**



AMEA Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə festival çərçivəsində "Bəxtiyar Vahabzadə – 100 paneli" keçirilib. Tədbiri açan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli ölkə rəhbərinin "Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında" 2025-ci il 21 fevral tarixli sərəncamının alimlərimiz üçün tədqiqat aparılması baxımından geniş imkanlar yaratdığını bildirib. Vurğulayıb ki, görkəmli şairin yubileyinin yüksək səviyyədə keçirilməsi məqsədilə akademiyanın elmi müəssisə və təşkilatlarında geniş tədbirlər planı icra edilir.



Bəxtiyar Vahabzadənin milli istiqlal düşüncəsi və azadlıq eşqi ilə yaşadığını deyən akademik, şairin hələ sovet hakimiyyəti illərində yazdığı "Gülüstan" poeması ilə bu ideyalarını tərənnüm etdiyini, ana dilimiz haqqındakı cəsarətli şeiri ilə milli özünüdərkin inkişafına çalışdığını söyləyib. Qeyd edib ki, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi həm də Türk dünyasının birliyinə çalışıb və bu gün onun uğrunda mübarizə apardığı ideallar reallığa çevrilib. Artıq Azərbaycanın ərazi bütövlüyü və dövlət suverenliyi tam bərpa olunub, eyni zamanda, Azərbaycan Türk Dövlətləri Təşkilatının fəaliyyətində yaxından iştirak etməklə Türk dünyasının birliyinə misilsiz töhfələr verir.

"Bəxtiyar Vahabzadə – 100 paneli"ndə, həmçinin, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşları – dosent Aygün Bağırlı, filologiya elmləri doktorları Vaqif Yusifli, Esmira Fuad və Əlizadə Əsgərli çıxış edərək Bəxtiyar Vahabzadənin yaradıcılığını incələyiblər.

Kitab bayramında maraqlı konsert də təşkil edilib. Nurəli Cavadovun dahi şair Əhməd Cavadın "Çırpınırdı Qara dəniz" şeirinə bəstələnmiş məşhur mahnını ifa etməsini tamaşaçılar və festival iştirakçıları alqışlarla qarşılayıblar. O, həmçinin, bir neçə Azərbaycan xalq və bəstəkar mahnılarını ifa edib. "Qubadan salamlar" adlı şeir saatı isə Azərbaycan Yazıçılar Birliyi Quba bölməsinin sədri, tanınmış şair Ramiz Qusarçaylının yaradıcılığına həsr olundu. 28 May – Müstəqillik Gününə təsadüf edən görüşdə bayraqdar şairin "Azərbaycan bayrağı" şeirinə bəstələnmiş mahnını FHN Akademiyası Hərbi Orkestrinin solisti Anar İlhamlı (Məmmədbağırov) məharətlə ifa edib. Ramiz Qusarçaylı vətənpərvərlik ruhlu şeirləri ilə poeziyasevərlərin könüllərini oxşayıb.

Ədəbiyyat və kitab bayramında Festivalda Azərbaycan Yazıçılar Birliyinin Sumqayıt və Beyləqan Bölmələrinin təmsilçiləri Gülnarə Cəmaləddin, Məmmədyar Ziyadoğlu, Ağa Savalan Rövşən Qarabudaq və başqaları da gözəl çıxışları ilə yadda qalıblar. Festivalın diqqətçəkən ədəbi tədbirlərindən biri olan "Qəzəl saatı" da böyük maraqla qarşılanıb. Xanım şairlər Lilpar Cəmşidqızı, Xatirə Xatun və Gülarə Munis özünəməxsus poetik nəfəs və bədii ustalıqla klassik və çağdaş qəzəlləri səsləndiriblər.

Qəzəllərdə insan ruhunu oxşayan, milli-mənəvi dəyərləri əks etdirən obrazlar və poetik duyğular hər kəsə xoş anlar yaşadıb. "Bizim median" portalının masasında "Burulğan", "Zərrə", "Səssiz xatirə" kitablarının müəllifi, şair Gülər Eldarqızının imza günü keçirilib.

Qeyd edək ki, festivalın hər günü bir türk dövlətinin tarixi və ədəbiyyatına həsr olunub. Bu sıradan Qırğızıstan, Özbəkistan, Macarıstan, Qazaxıstan, Türkiyə, Türkmənistan və Şimali Kipr Türk Respublikalarının poeziya və nəsri barədə söhbətlər aparılıb, bədii nümunələr səsləndirilib, kitablar təqdim olunub.

Pavilyonlarda yerli nəşriyyatların çap etdiyi çoxsaylı bədii nümunələr də endirimli qiymətlərlə satışa çıxarılıb. Dəyərli poeziya və nəsr nümunələri satış qiymətlərindən 15–30 faiz aşağı olmaqla oxuculara təklif edilib və bu da oxucular üçün böyük fürsət olub. Uşaqlar üçün nəzərdə tutulan kitablar, yeni çıxmış əsərlər, hətta klassik ədəbiyyat nümunələrinə əlçatanlıq təmin olunub.

**Tanınmış şair, "Azərbaycan" jurnalı Poeziya şöbəsinin müdiri, Əməkdar mədəniyyət işçisi Qəşəm Nəcəfzadənin ürək sözləri:**



– Bir qələm adamı kimi, son vaxtlar müntəzəm keçirilən və gözəl ənənə halı alan bu kimi kitab bayramlarının keçirilməsini ürəkdən təqdir edirəm. Bakının müxtəlif məkanlarında, digər şəhərlərimizdə kitab sərgiləri, festivalları oxucuları cəlb edir, gənclərin mütaliə mədəniyyətinin artmasına stimul verir. Bir həftə davam edən 4-cü Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı da bu baxımdan istisna olmadı. Türkdilli dövlətlərin söz və qələm sahibləri, kitab naşirləri bir yerə toplaşıb fikir və təcrübə mübadilələri apardılar, şair və yazıçılar bir-birinə daha da yaxınlaşdılar, dostlaşdılar. Festivalın bir önəmli cəhəti də budur ki, oxucular kitab müəllifləri ilə canlı ünsiyyətə girdilər, onlardan avtoqraflı kitabalar aldılar. Bir sözlə, festival hər kəsdə zəngin təəssürat yaratdı.

Nəhayət qeyd edək ki, bu il ilk dəfə olaraq Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə 1 iyun tarixində I Türk Dünyası Uşaq Festivalının da keçirilməsi nəzərdə tutulub.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Bakıda Xalq şairi Rəsul Rzanın ev-muzeyi açılıb



**Mayın 31-də Bakıda Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi Rəsul Rzanın ev-muzeyinin təntənəli açılış mərasimi keçirilib.**

Xalq yazıçısı Anar Rzayev muzeyin yaradılması ideyasının necə formalaşdığı barədə danışıb, Rəsul Rzanın həyat və yaradıcılığından söhbət açıb.

Mədəniyyət naziri Adil Kərimli ev-muzeylərinin xalqın mədəni yaddaşının qorunmasında oynadığı rolu vurğulayıb. Bildirib ki, Rəsul Rzanın ev-muzeyinin əsası Prezident İlham Əliyevin 2022-ci il tarixli sərəncamı ilə qoyulub, 2023-cü ildə rəsmi olaraq təsis edilib və bu gün ictimaiyyətin istifadəsinə verilib. Qeyd olunub ki, Rəsul Rzanın Göyçay şəhərindəki ev-muzeyi isə 2004-cü ildə yaradılıb.

Xalq artisti, diplomat Polad Bülbüloğlu, Xalq şairi Sabir Rüstəmxanlı, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov, Azərbaycan Yazıçılar Birliyinin katibi, şair Səlim Babullaoğlu çıxış edərək Rəsul Rza ilə bağlı xatirələrini bölüşüb, onun ədəbiyyatdakı yenilikçi təfəkkürünü, klassik mövzulara yeni yanaşmalar gətirməsini xüsusi vurğulayıblar.

Rəsul Rzanın ailə üzvləri sevinc və qürur hisslərini ifadə ediblər. Anar Rzayevin həyat yoldaşı Zenfira Səfirovanın təşəkkür məktubu nəvəsi tərəfindən oxunub.

Tədbir bədii hissə ilə davam edib.

***XQ***

**Gəncə Dövlət Filarmoniyası – 90**

# Nizami yurdunun musiqi məbədi



**Bu gün Ulu Şeyx Nizami yurdu olan qədim Gəncə sürətlə müasirləşir, abadlaşır, inkişaf edir və öz yeni simasına qovuşur. Buradakı mədəniyyət ocaqları sahəyə göstərilən dövlət qayğısı sayəsində daha da fəallaşıb. 90 illik yubileyi qeyd olunan Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası bu sahədə flaqman sayılır.**

Gəncədə bu sənət məbədi vaxtilə dahi bəstəkar Üzeyir Hacıbəyovun təşəbbüsü ilə yaradılıb. Bir müddətdən sonra çox qısa zamanda Filarmoniya öz fəaliyyətini dayandırmaq məcburiyyətində qalıb. 1941-ci ildə orduya çağrılan və 1942-ci ildə ağır xəstəliyi üzündən cəbhədən qayıdan Fikrət Əmirov bir müddət Gəncədə qalıb və buradakı teatrda baş rejissor Mehdi Məmmədovla birgə işləyərək, bir neçə tamaşaya musiqi yazıb. Sonra Bakıda konservatoriya təhsilini başa vuraraq Gəncəyə göndərilib. Burada Xalq artisti Məhəmməd Burcəliyev və bəstəkar Qəmbər Hüseynli ilə Dövlət Filarmoniyasını bərpa etmək qərarına gəliblər. Bu zaman Fikrət Əmirov bədii rəhbər, Məhəmməd Burcəliyev isə filarmoniyanın direktoru təyin olunublar. Gəncə Dövlət Filarmoniyası 1949-cu ilə kimi fəaliyyət göstərib. 1949-cu ildə Filarmoniyanın fəaliyyətinə yenidən xitam verilib.

Sonradan Dövlət Filarmoniyasının Gəncədə yaradılması Əməkdar mədəniyyət işçisi Şirin Rzayevin üzərinə düşüb. Mədəniyyət Nazirliyinin 1990-cı il tarixli qərarı ilə Gəncə çayının sol sahilində yerləşən konsert binasında "Göy-göl" Dövlət Mahnı və Rəqs Ansamblının bazası əsasında Dövlət Filarmoniyası yenidən fəaliyyətə başlayıb. Şirin Rzayevin xatirələrindən: "Mən Filarmoniyaya direktor təyin olunduqdan sonra Əməkdar artist Elçin Elçiyevlə Xalq Çalğı Alətləri Orkestrini, daha sonra Namiq Verdiyevlə "Ulu Gəncə" ansamblını yaratmağa müvəffəq olduq".

Gəncə Dövlət Filarmoniyasının yeni binasının təməli Prezident İlham Əliyev tərəfindən 21 yanvar 2012-ci ildə Gəncəyə səfəri zamanı Nizami rayonu ərazisində, Cavad xan və Heydər Əliyev prospektinin kəsişməsində, əvvəllər Bakı kinoteatrının yerləşdiyi ərazidə memar Ramiz Hüseynovun orijinal layihəsi əsasında qoyulub. Tikinti işləri 2017-ci ilin noyabr ayınadək davam etdirilib və həmin ayın 10-da dövlət başçısının iştirakı ilə yeni binanın açılış mərasimi olub.

Bu gün şəhərin memarlıq görünüşünə xüsusi estetik gözəllik bəxş edən, klassisizm üslubunda inşa edilmiş altımərtəbəli filarmoniya binasının inşasında Qərb Renessans arxitekturasının bir çox elementlərinin Şərq memarlıq ənənələri ilə üzvi şəkildə birləşməsi diqqəti cəlb edir. Bu mötəbər bina bir sıra mədəni tədbirlər, festivallar, həmçinin ölkə və beynəlxalq əhəmiyyətli müsabiqələrin keçirilməsi üçün əvəzsiz məkana çevrilib. 1200 nəfərlik tamaşaçı auditoriyası üçün nəzərdə tutulan binada həm də 2 kinozal, açıq havada yay estrada meydanı, eləcə də bir çox studiya və məşq otaqları var. Burada, eyni zamanda 10 loja və 1 VİP loja vardır. Binanın üçüncü mərtəbəsinin eyvanında Üzeyir Hacıbəyovun, Fikrət Əmirovun, Qara Qarayevin, Niyazinin və Arif Məlikovun heykəlləri ucaldılıb. Ərazidə açıq havada yay konsert meydançası ilə yanaşı, həmçinin baxış qülləsi və ümumi sahəsi 2 min kvadratmetr olan 2 korpusdan ibarət ikimərtəbəli qalereya inşa edilib.

Gəncə Dövlət Filarmoniyasının nəzdində "Göy-göl" Dövlət Mahnı və Rəqs Ansamblı, Xalq Çalğı Alətləri Orkestri, Kamera Orkestri məhsuldar fəaliyyət göstərir. Xalq Çalğı Alətləri Orkestrindən söhbət açan Əməkdar artisti Elçin Elçiyev deyir: "Bu gün orkestrimiz 44 nəfərdən ibarətdir. Ancaq əsas heyətin tərkibi 25 nəfərdir. Səbəb də bundan ibarətdir ki, Xalq Çalğı Alətləri Orkestrinin tərkibində "Xəmsə" Estrada qrupu da ictimai əsaslarla fəliyyət göstərir. Bu estrada qrupu Əməkdar artist Teymur Əmrahın təşəbbüsü ilə yaradılıb. Həmçinin Salam Cavadovun rəhbərliyi ilə ictimai əsaslarla "Gülşən" Uşaq Rəqs Ansamblı da fəaliyyət göstərir. Xalq Çalğı Alətləri Orkestri tarixi bayramlar və əlamətdar günlərdə, yubileylərdə, şəhər günlərində hər zaman müvəffəqiyyətlə çıxışlar edir.

"Göy-göl" Dövlət Mahnı və Rəqs Ansamblı dəfələrlə Türkiyə Respublikasında, müxtəlif beynəlxalq festivallarda, o cümlədən "Dədə Qorqud" Festivalında, Azərbaycan Xalq Rəqsləri Festivalında, Giresun-Aksu Beynəlxalq Festivalında, TÜRKSOY-un Novruz şənliklərində Azərbaycanı böyük uğurla təmsil edib. Gəncə Dövlət Kamera Orkestrinin repertuarında Azərbaycan bəstəkarları ilə yanaşı, klassik xarici bəstəkarların əsərləri əsas yer tutur.

Hazırda Gəncə Dövlət Filarmoniyasının yeni binasında mədəni tədbirlərin yüksək səviyyədə keçirilməsi, əməkdaşların və yaradıcı kollektivlərin səmərəli fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb. Yubilyar filarmoniyanın yeni binasının istifadəyə verilməsi bir daha Azərbaycanda mədəniyyət sahəsinə göstərilən dövlət qayğısının əyani təsdiqinin təzahürüdür.

***Anar Ərtoğrul-BURCƏLİYEV,***
***teatrşünas-tənqidçi***

**Maraq dairəsi**

# Çin çayı Azərbaycanda necə milliləşib?

**Məlum olduğu kimi, Prezident İlham Əliyev aprel ayında Çinə dövlət səfəri zamanı Pekində CGTN (China Global Television Network) telekanalına müsahibə verən zaman qarşısındakı masaya Azərbaycanın milli atributları kimi "İstisu", bütöv bir limon və armudu stəkanda çay qoyulub. Bu, həm də ölkəmizdə ən sevimli içki sayılan çayın ilkin olaraq Çinə mənsubluğuna işarə idi.**



Bəs Azərbaycana çay həqiqətənmi Çindən gəlib? Elədirsə, nə vaxt və necə?

Fakt budur ki, ölkəmizdə çay bitkisi ilk dəfə XIX əsrin sonlarında əkilib, onun elmi əsaslarla becərilməsinə 1929-cu ildən, sənaye miqyaslı plantasiyaların salınmasına isə 1932-ci ildən başlanıb. Beləliklə, çay Azərbaycan mətbəxinin dadlı təamları ilə birləşərək milli atributumuza çevrilməyi bacarıb.



Maarifçi və etnoqraf Əhməd Nəbiyevin (1885-+1970) Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli Mənbələr Fondunda, 486 inventar nömrəsi altında mühafizə olunan əlyazmasında çayın Böyük İpək Yolu üzərində yerləşən Şəki şəhərinə gətirilməsi haqqında yazdıqları maraqlıdır. Ə.Nəbiyev qeyd edir ki, yaşlı adamların dediyinə görə, 100–150 il bundan qabaq Şəkidə çay içmək nadir, bilməzdilər. Şəkiyə çay XIX əsrdə Çin və Hindistandan gətirilib. Yerli əhali quru çaya çay xatası, yəni xatay-kitay deyirmiş. "Xata" sözü günümüzdə də Şəkinin bəzi kəndlərində işlənməkdədir.

İlk zamanlar Şəkidə müştərisi çox olmayan çayın necə dəmləndiyini Ə.Nəbiyev belə izah edir: "O zaman mis qulplu qazanın ortasında külbəsi olurdu. Qazanı su ilə doldurub külbəsinə kömür töküb qızdırardılar. Qaynayanda içinə döyülmüş darçın, zəncəfil tozu töküb iki əlində qulplu qazan dükanbədükan gəzdirib çay satardılar... Axır zamanda XIX əsrin əvvəlindən başlayaraq Həvə Qədir adlı birisi bu cür bütün yuxarı bazarı gəzərək çay təklif edərdi. O, Omar Əfəndi məscidinin üstündə bir balaca evdə arvadı ilə yaşayırdı. Get-gedə, təxminən 1860-cı ildən çayçı dükanları – çayxanalar açılmağa başladı. Rusiyadan böyük, qulplu samovarlar alınmağa başlandı. Rus samovarı çıxandan sonra bu qazanların adı çaydan oldu".



Bu gün artıq bütün Azərbaycanda çay milli içki kimi qəbul olunur və tanıdılır. Müxtəlif şirniyyat və mürəbbələrlə armudu stəkanda təqdim olunan və limonla içilən çay Azərbaycan mətbəxinin bir parçası olmaqla yanaşı, Şərqin bir-birindən uzaq iki ölkəsini birləşdirən dərin tarixi əlaqələrinin sübutudur.

***Zəminə RƏSULOVA,***
***Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi Qoruqları İdarəetmə Mərkəzinin elmi işçisi***

1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür

# Azad Xocalının yeni nəsli boy atır



**Xocalıdayam. Yaşıllıqların ortasında yerləşən, təbii güllərlə, çiçəklərlə əhatələnmiş parkda uşaqlar oyunlar oynayır, yelləncəkdə yellənir, əylənirlər. Səs-küyləri, şən, şaqraq gülüşləri, sevinc dolu qışqırıqları ətrafa yayılıb. Qayğısızcasına öz uşaq dünyalarının keyfini çıxaran bu balaca fidanlara baxdıqca insanın də uşaqlaşmağı, onlara qoşulub oynamağı gəlir. Nə gözəldir azad Xocalının balaca sakini olmaq! Nə gözəldir gündən-günə abadlaşan Xocalının ağır yaralarına məlhəm olan bu mənzərələri izləmək!**



Yaxınlaşıb salamlaşıram, bayramlarını təbrik edirəm. Bu gün onların günüdür axı, 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü. Hamısı bir ağızdan "çox sağ ol" deyir, di gəl çoxu nə "beynəlxalq"ın nə demək olduğunu bilmir, nə də "hüquq"-dan, "müdafiə"dən xəbərləri yoxdur. Şirin-şəkər Nihalın, onu hər addımda izləyən, qoruyan Şəmsəddinin, gülüzlü Nurayın, balıq bürcündən olan Zeynəb və gözəllər gözəli Zəhranın, böyüyəndə əsgər olacağını deyən zabit uniformalı Yusifin, dil-dil ötən ağıllı Aminənin, qardaşı "ağsaqqal" Asimanın, "mənim adımı yazdınmı" deyə soruşan Üzeyirin, Xəyalın, düz bir il əvvəl əlində Xocalıda onlara verilən yeni evin açarları olan şəkli ilə qəzetimizin səhifəsini bəzəmiş Rüqəyyanın indi üstündə atılıb-düşdükləri bu torpaqlarda yaşanmış, bu torpaqların əsl sahiblərinin yaşadıqları faciələrdən də xəbərləri yoxdur. Bilmirlər ki, bir vaxtlar həmyaşıdları elə bu yerlərdə vəhşiləşmiş, insan qanına susamış erməni cəlladları tərəfindən qətlə yetiriliblər, zülmə, işgəncəyə məruz qalıblar. Özü də başqa vaxt insan haqlarından, uşaq hüquqlarından dəm vuran dünyanın gözü qarşısında, laqeyd baxışları altında. Haradan bilsinlər ki, onların ata-babaları illər boyu tək bircə dəfə Xocalını görməyin, onun havasını udmağın, suyunu içməyin həsrətini nə qədər çəkiblər. Şən-şən oyun oynayan bu şirin balalar hələ bilmirlər ki, Xocalı adı çəkiləndə göz yaşlarımızı saxlaya bilmədiyimiz, boğazımızı qəhərə boğan dərdimiz olub. Hərəsi ölkəmizin başqa-başqa yerlərində doğulmuş bu xocalılı uşaqlar böyüdükcə, özlərinin dedikləri kimi, bu gün bulağını, lalələrini, təzə evlərini sevdikləri Xocalının azadlığı uğrunda neçə-neçə qəhrəmanımızın öz canından keçdiyini öyrənəcəklər. Biləcəklər ki, beynəlxalq hüququ da, ilahi ədaləti də müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında biz özümüz təmin etmişik. Bu fidanlar azad Xocalıda rahat yaşasınlar, qayğısız böyüsünlər, adlarının əvvəlinə "məcburi köçkün" söz birləşməsi qoşulmasın deyə...

Bu gün yenidən həyat qayıdan, gündən-günə dirçələn, inkişaf edən Qarabağımızın, Şərqi Zəngəzurumuzun azadlığı naminə çəkilən bütün əziyyətlərin ən böyük mükafatı, sözsüz, Xocalıda, yaşıllıqların ortasında yerləşən, təbii güllərlə, çiçəklərlə əhatələnmiş bu parkda oynayan tər qönçələrin, sevimli balacaların şirin, dərdsiz gülüşləridir. Onların bayramına – Uşaqların Beynəlxalq Müdafiəsi Gününə ən böyük hədiyyə də elə azad Xocalıdır. Çünki hər soruşan olanda onlar fəxrlə deyəcəklər ki, biz azad Xocalının övladlarıyıq!

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**

# Sumqayıtda balacaların şənliyi

**Milli Məclisin deputatı, filologiya elmləri doktoru Elnarə Akimovanın təşəbbüsü ilə Sumqayıt şəhər Sağlamlıq İmkanları məhdud uşaqlar üçün Xüsusi məktəbdə maraqlı bayram görüşü keçirilib.**



Əvvəlcə uşaqların əl işi nümayiş olunub, onların yaradıcı potensialının təzahürləri sərgilənib. Məktəbin direktoru Arzu Alizadə qonaqları salamlayaraq belə tədbirlərin uşaqlara motivasiya olduğunu, onlara xoş ovqat aşıladığını qeyd edib. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın qayğısı sayəsində məktəbin və sağlamlıq imkanları məhdud uşaqların daim sevgi ilə əhatə olunduğu diqqətə çatdırılıb. Tədbir uşaqların ifasında müxtəlif rəqslər, şeir və musiqi ifalarının təqdimatı ilə davam edib.

Deputat Elnarə Akimova uşaqlara üz tutaraq deyib ki, əziz gündə onlarla birlikdə olmaqdan böyük bir qürur və sevinc hissi keçirir. "Bu tədbir sevgi, anlayış, dəstək və birlik tədbiridir. Bugünkü görüşümüz, hər bir fərdin cəmiyyətimiz üçün nə qədər dəyərli olduğunu bir daha xatırladır".

Sonra Qızıl Aypara Cəmiyyətinin Sumqayıt şəhər bölməsinin sədri Mətanət Məhərrəmova ilə birgə uşaqlara hədiyyələr təqdim olunub və hamının birgə rəqsi ilə tədbir yekunlaşıb.

***XQ***

# Türkiyə və Gürcüstanın din xadimləri Ağdamda



**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və tabeliyində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə ölkəmizə səfər edən Türkiyədən və Gürcüstandan olan din xadimləri Şuşa şəhərindən sonra Ağdama gəliblər.**

Nümayəndə heyəti əvvəlcə Ağdam şəhərindəki Şəhidlər xiyabanını ziyarət edib. Məlumat verilib ki, Ağdam Şəhidlər xiyabanında Birinci Qarabağ müharibəsində şəhid olan qəhrəman Vətən övladları, o cümlədən Xocalı soyqırımında öldürülən şəhər sakinlərinin bir hissəsi dəfn edilib. Ağdamda hər şeyi məhv edən erməni vandalları Şəhidlər xiyabanındakı qəbirləri də qazaraq dağıdıblar.

Din xadimləri sonra Ağdam şəhər Cümə məscidinə gəliblər. Onlara ermənilərin mədəni, tarixi, dini abidələri məhv etmələri və Ağdam işğaldan azad edildikdən sonra Azərbaycan dövləti tərəfindən həyata keçirilən bərpa-quruculuq işləri barədə məlumat verilib. Bildirilib ki, ermənilər işğal etdikləri digər rayonlarda olduğu kimi, Ağdamda da Azərbaycanın tarixi-mədəni irsinə qarşı görünməmiş vandalizm aktları həyata keçiriblər. Rayondakı abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib.

Din xadimləri məsciddə namaz qılıblar.

Nümayəndə heyəti daha sonra Qarabağ xanlığının banisi Pənahəli xanın sarayının yerləşdiyi İmarət kompleksi ilə tanış olub.

Burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar - İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarları olub. Ağdam şəhəri işğal olunduqdan sonra qəbiristanlıq da erməni vandalizminə məruz qalıb.

***XQ***

Teatrlarımız

# "Vəfa" yenidən səhnədə

**Xalq şairi Rəsul Rzanın "Vəfa" tamaşası səksən iki ildən sonra yenidən səhnəyə qayıtdı. Böyük şairimiz bu pyesi Böyük Vətən müharibəsinin qızğın çağlarında - 1942-ci ildə qələmə almışdı. 1943-cü ildə "Vəfa" pyesi" Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında tamaşaya qoyuldu. Tamaşaya Xalq artisti Adil İsgəndərov rejissor Ələsgər Şərifovla birlikdə quruluş vermişdi. Vəfa obrazını böyük sənətkarımız Hökümə Qurbanova canlandırırdı. Məhz bu roldan sonra Hökümə xanıma teatrda baş rollar həvalə edilməyə başladı. Vəfa onun teatrda yaratdığı ən uğurlu rollarından biridir. Təsadüfi deyil ki, aktrisa öz qız övladına da Vəfa adını vermişdi ki, həmin qız sonralar Azərbaycan teatrının tanınan, sevilən aktrisalarından birinə çevrildi – Vəfa Fətullayeva.**

O zaman bu tamaşada böyük sənətkarlarımız Ələsgər Ələkbərov, İsmayıl Osmanlı, Mərziyə Davudova, Möhsün Sənani, Leyla Bədirbəyli, Məhluqə Sadıqova, Mirvari Novruzova və digərləri iştirak edirdilər. Tamaşa 1945-ci ilə qədər Akademik Teatrın səhnəsində üç yüz dəfədən çox oynanılıb. Tamaşaçılar igid oğul və qızlarımızın şücaətinə səhnədə şahidlik edirdilər. Onu da deyək ki, həmin vaxt özü də Krım cəbhəsində düşmənlə üz-üzə olan Rəsul Rza bu əsəri qələbəyə böyük inam hissiylə qələmə alıb.

Xalq yazıçısı Anarın Rəsul Rzanın həyat və yaradıcılıq yolundan bəhs edən "Mübarizə bu gün də var" kitabında "Vəfa" pyesi ilə bağlı olduqca qiymətli, maraqlı məqamlar var. Bu pyesin yazılması ilə bağlı Rəsul Rza dostu, teatrşünas Cəfər Cəfərovla fikirlərini bölüşürmüş. Cəfər Cəfərovun dostuna yazdığı məktub bunu təsdiqləyir. O, məktubunda "Vəfa"nın taleyi məni yaman maraqlandırır" yazırdı və əlavə edirdi ki, sentimentallığa qapılmadan həm məzmun, həm də stil etibarilə yaxşı bir əsər yazmalısan. Məktubdan o da bəlli olur ki, rejissor Adil İsgəndərov Rəsul Rzanı tələsdirirmiş ki, pyesi tez tamamlayıb teatra təhvil versin.

"Vəfa" pyesinin uğurlu nümayişindən sonra Cəfər Cəfərov pyesi müharibə haqqında yazılmış ən yaxşı əsərlərdən biri adlandırır.

Bu dəfə "Vəfa" tamaşası Bakı Bələdiyyə Teatrının repertuarında səhnə həyatı qazandı. Rəsul Rzanın 115 illik yubiley tədbirləri çərçivəsində hazırlanan tamaşanın quruluşçu rejissoru Xalq artisti Mərahim Fərzəlibəyovdur. Azərbaycan teatrının son 50 illik tarixinə öz imzasını atmış görkəmli rejissor monumental bir tamaşa hazırlamışdı. Müharibə temasını səhnəyə gətirmək, dövrün atmosferini əks etdirmək, tamaşaçıda lazımi əhval-ruhiyyə yaratmaq üçün rejissor bir sıra bədii ifadə vasitələrindən istifadə edərək nəticədə istəyinə nail olmuşdur. Səhnədə hərəkət iştirak edən şəxslərin söylədikləri söz vasitəsilə meydana çıxır. Bu zaman bunlardan hər birinin öz dilində danışması, təkrarolunmaz nitqə malik olması çox vacibdir. Ən yaxşı pyeslərdə həmişə belə olur. "Vəfa" pyesində də aktyorlar obrazların xarakterlərini öz danışıq tərzində, hərəkətlərində uğurla ifadə edirlər. Tamaşada kollektiv yaradıcılıq, ansambl bütövlüyü öndə idi.

Vəfa obrazını canlandıran istedadlı aktrisa Ülviyyə Rza əri müharibədə döyüşən gənc qadının hiss və həyəcanlarını son dərəcə təbii şəkildə ifadə edir. O, bir prokuror olaraq müharibədən yayınan tüfeylilərə, rüşvətxoralara qarşı nə qədər amansızdırsa, sevgisində də o qədər vəfalı, sədaqətlidir. Bu iki fərqli situasiyanı bir obrazda birləşdirməyi bacaran aktrisanın oyun tərzi tamaşaçıda unudulmaz təəssürat oyadır.

Bahadır pyesin aparıcı xəttini təşkil edir, o, komandirdir, döyüşü idarə edir. Vəfanın adından yazılmış yalançı məktubla onun iradəsini sarsıtmağa çalışırlar. Bu işin başında dayanan müxtəlif yollarla cəbhədən yayınan Minnətovdur. Yeri gəlmişkən, İsmayıl Atakişiyevin oyununda Minnətov olduqca təbii, inandırıcı görünür. Aktyorun obrazın xarakterinə uyğun dinamik səhnə plastikası, uğurlu tapıntıları tamaşaçıda da ona qarşı rəğbət hissi oyadır. Ümumiyyətlə, İsmayıl Atakişiyev geniş imkanlara malik aktyordur, xarakterlər ustasıdır. Düşünürəm ki, hələ də onun yaradıcı potensialından tam istifadə edilməyib. Bir sözlə, "Vəfa" tamaşasında oynadığı obraza öz möhürünü vurmağı bacardı.

Bahadır rolunu canlandıran gənc aktyor Elməddin Zakirli haqda onu deyə bilərik ki, bu obraz sanki onun boyuna biçilib. Bahadırın düşmənə nifrəti, Vətən sevgisi, öz yarından ayrı düşməsinin möhnəti, nisgili təbii ştrixlərlə zahiri görkəmində, səhnə hərəkətlərində qabarıq görünür. Xüsusən, faşistlərə əsir düşməsi səhnəsindəki situasiyada aktyor şəraitin tələb etdiyi davranış qaydalarına ustalıqla riayət edir. Düşmən tərəfin zabiti qarşısında öz qürurunu itirməyən, ona sərt cavablar verməyi bacaran Bahadır tamaşaçının gözündə əsl qəhrəmana çevrilir.

Mayor əsir düşmüş kapitana deyir:

– Siz ağıllı adamsınız, kapitan. Mənim sizə heyfim gəlir. Bu dava böyük millətlər arasında gedən amansız bir mübarizədir. Siz azərbaycanlılar kiçik bir millət olaraq bu davada nə qazana bilərsiniz? Siz qolunu daha bərk bağlamaq üçün zəncir hazırlayan bir qula bənzəyirsiniz.

Bahadır isə ona belə cavab verir:

–Millətin böyüklüyü sayında deyil, cənab mayor. Ali irq dediyiniz siz almanların babaları vəhşi dəstələrlə basqın edib Roma mədəniyyətini dağıdanda kiçik millət dediyiniz azərbaycanlılar sənət sarayları yaradırdı.

Müharibənin hələ bitmədiyi bir zamanda Azərbaycan səhnəsində bu fikirlər səslənirdi. Rəsul Rza azərbaycanlıların guya döyüşmək istəmədiyi fikrini də bu əsərlə alt-üst edir. Bu yalan, iftira dolu fikirlərə də əsərdə qəhrəmanın dilindən tutarlı cavablar verilir. Pyesin bütün personajları azərbaycanlılardır. Müəllif düşünərək əsəri bu formada qələmə alıb. Həqiqət ön güclü silahdır.



Əməkdar artist Aydın Əliyev alman zabitini özünəməxsus plastika ilə ifa edir və yadda qalır. Geniş yaradıcı diapazona malik aktyor bu tamaşada da obrazına uğurlu çalarlar qatır.

Əməkdar artist Səmayə Sadıxovanın ifasında Ülkər xala tamaşanın ən təsirli, ən emosional məqamlarını təşkil edir. O, Bəxtiyarın anasıdır. Aktrisa oğulları cəbhədə döyüşən anaların mərd, mübariz xarakterini ifadə etməyi bacarıb.

Günel Həmidovanın ifasında İntizarın sevgidən doğan iztirabları, daxili çırpıntıları tamaşaçını mütəəssir edir. Tamaşaçı onun qəlbini bürüyən kədərli duyğuların həzin musiqisini eşidərək ona acıyır. Aktrisa Arzu Ağayeva tamaşada Firuzə obrazını canlandırır və öz rolunun öhdəsindən uğurla gəlir. Əməkdar artist Əhməd Salahovun ifasında Vəzir bir az komik, bir az laübalı, bir az əhlikef, bir az da hiyləgər adam təəssüratı yaradır. Aktyor Toğrul Rza Bəxtiyar rolunda "öz qabında" görünür, Bahadırla Bəxtiyarın əsir düşdükləri səhnədə öz rolunun öhdəsindən məharətlə gəlir.

Yaddaqalan obrazları ilə tamaşaçılar tərəfindən sevilən Zülfiyyə Qurbanova Vəsfiyyəni rəqsvari hərəkətlərlə "bəzəyir" və bu qadının xarakterini uğurlu tapıntıları ilə tamaşaçıya təqdim edir.

Rəsul Rza hələ həmin illərdə üçrəngli bayrağımıza şeir yazmışdı:

**Al günəşdən, yaşıl dağdan,**
**göy dənizdən rəng alaraq**
**Sənin azad göylərində**
**öz bayrağın ucalacaq!**

Rejissor tamaşanın finalını da böyük şairimizin bu misraları üzərində qurub. Bu sətirlərin müəllifi də pyesin yenidən işlənməsində iştirak edib. Biz şairin şeirlərindən, məktublarından istifadə edərək tamaşanın müasir versiyasını hazırladıq.

Tamaşada əməkdar artistlər Şahzadə Babayeva, Gülsabah Quliyeva, aktyorlardan Rəşad Kəsəmənli, Əzizə Həşimova, Elçin Muradov, Namiq Cavadov, Təzəgül Məmmədova, Rəşid Soltanov, Asif Rəhimov və digərləri iştirak edirlər.

Tamaşanın quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Əsgərov, musiqi hissə müdiri Əməkdar mədəniyyət işçisi Nazim Əbidov, işıqçı rəssamı Tərlan Ələsgərli, bədii işlər üzrə tərtibatçısı Elnur Ehtiramoğludur.

***Kənan HACI,***
***yazıçı-dramaturq***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 113 (30807) 1 iyun 2025-ci il, bazar

## İdman

### Bakıda voleybol festivalı keçiriləcək




**İyunun 1-də Dənizkənarı Milli Park ərazisində Voleybol Festivalı keçiriləcək.**

Azərbaycan Voleybol Federasiyasının təşkilatçılığı ilə baş tutacaq festival Bakı ilə yanaşı, bölgələrdə də təşkil olunacaq. 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə keçirilən tədbirdə 12 yaşadək voleybolçu qız və oğlanlardan ibarət komandalar iştirak edəcəklər. Onlar arasında simvolik yarışlar və müxtəlif oyunlar baş tutacaq.

Festivalın məqsədi uşaqların idmana marağını artırmaq, sağlam həyat tərzini təbliğ etmək və dostluq, komanda ruhu kimi dəyərləri təşviq etməkdir.

### “World Boxing” məcburi gender testini tətbiq edəcək




**“World Boxing” təşkilatın himayəsi altında yarışan 18 yaşdan yuxarı bütün idmançılar üçün məcburi gender testini tətbiq edəcək. “Reuters” xəbər verir ki, sınaqlar bütün iştirakçılar üçün təhlükəsizlik və bərabərliyin təmin edilməsinə yönəlmiş yeni siyasətin bir hissəsi olacaq.**

Əlcəzairli boksçu İman Xeliflə bağlı mübahisədən sonra idmançıların gender tələblərinə cavab verdiyini təsdiqləmək üçün genetik testlər məcburi olacaq.

***FİDAN***
***XQ***

## HAVA

### Dəyişkən buludlu bir bazar günü



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən mətbuata bildiriblər ki, bu gün Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu, əsasən yağmursuz olacaq, mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 19-22° isti, gündüz 28-33° isti, atmosfer təzyiqi norma daxilində - 760 millimetr civə sütunu olacaq. Nisbi rütubət gecə 60-65 faiz, gündüz 40-45 faiz təşkil edəcək.**

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Səhər bəzi yerlərdə zəif duman olacaq, Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 16-21° isti, gündüz 31-36° isti, dağlarda gecə 10-15° isti, gündüz 22-27° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

## Zərif duyğular



# Mələksima Qumru quşu

**Qış fəsli bağçamızın xətrinə çox dəydi. Bağçamızda təbiətdən nəvaziş gözləyən nərgizlərin, bənövşələrin bir çoxunu vaxtından tez soldurdu. Torpaqdan yaz ətri, mor bənövşələrin qoxusu gələndə qışın pisliyi özünə qaldı. Baharın nəfəsi duyulduqca, yaz mehi əsdikcə elə bil, güllərə mələklərin nəfəsi dəyirdi. Torpaq buğlanır, otlar cücərir, gül kolları, meyvə ağacları tumurcuqlanırdı.**

Gül–çiçəkli, kəpənəkli yaz mövsümü də belə başladı. Sübhün sakit vaxtı bağa gedəndə quşların səsini, ilk baharın ılıq nəfəsini hiss edəndə özözümə dedim:

– Tanrı yaratdığı gözəlliklərlə canlılara nə gözəl can verir, nə gözəl dövran verir!

Torpaq oyandıqca, güllər, çiçəklər də bir-bir oyanırdı, torpaqdan boy verirdi. Yazın gözəl çağında, qönçələr gül budağında açılırdı. Yaz yağışından sonra al-əlvan çiçəklər, yaşıl yarpaq donunda təbiət cana gəlirdi. Yaz yağışı pislikləri yuyub aparır, öz nəğmələri ilə çağlayırdı. Yağışın həzin səsilə quşların cəh–cəhi bir–birinə qarışmışdı.

Yazın hər çağının öz gözəlliyi var. Bağda nar çiçəyi görəndə elə bilirəm ümidlərim, arzularım gül açıb. Qumrular da xoş buyurub bağçamıza gəlibdi. İki ildir qumru quşları balaca bağçamıza özlərinə məskən edib. Ötən il bağ mövsümü başlayanda qumrulardan biri bağda su qızdırıcısının üstündə yuva qurmuşdu. Yuvada qumrunun iki yumurtası vardı. Gündüz müəllim dedi ki, suqızdırıcı işə düşəndə quşlar perikə bilər. Düz deyirdi. Qumruların yumurtasına da əl vurmaq olmazdı. Bilirdik ki, yumurtalara əl vursaq, quşlar bir daha yuvaya gəlməz.

Qumruların yuvasını – öz dünyasını yerindən tərpətmək günah olardı. Belə qərara gəldik: “Nə qədər ki, qumru quşunun yuvası burdadır, suqızdırıcıdan istifadə etməyək”. Ona görə də qızdırıcıya gələn qaz və su xətlərini bağladıq. Bir müddət sonra gördük ki, yuvadan bala qumruların civiltisi eşidilir. Sevincimizdən yerə-göyə sığmırdıq. Bala qumrular böyüdü və yuvadan uçub havada pərvazlandılar. Yuvasından köç eyləyib yenidən bağçamıza döndülər. Yaz gələndə bağçamıza seyrə gəlib göylərdən endilər. O dəqiqələr, o anlar elə gözəl idi ...Bütün qayğılarımızı unutmuşduq.

Yay ötdü, havalar soyumağa başlayanda, durnalar qatara düzüldülər. Qumrular da bağımıza vida etdilər. Uçub isti ölkələrə getdilər.

Bağçamız mənə elə kədərli görünürdü. Bağçaya yarıkönül, tərəddüd içində gedirdim. Vaxt üzüntülü, maraqsız keçirdi. Payız səhərinin sükutunu tez-tez budaqdan qopub düşən yarpaqlar pozurdu. Ağacların saralmış yarpaqlarının xışıltısı da xoş təsir bağışlamırdı. Həmin vaxtlarda elə düşünürdüm ki, köçüb gedən qumrular bağçamızdan əbədi ayrılıblar. Bəlkə də qayıtmadılar.

Ötən həftə Gündüz müəllim dedi:

– Çoxdandır iş-gücdən vaxt edib bağa getməmişik, çay süfrəsi ətrafında ürəkdolusu söhbət etməmişik. Bağçanızın şairanə aurası üçün yaman darıxmışam.

– Hə, düz deyirsən, -dedim. Gedək...

...Gündüz müəllimlə bağda çay içdiyimiz zaman üzüm çardağında, sıx yarpaqların arasında quşların həzin səsi gəldi. Gündüz dedi:

– Oxuyan qumrulardır, müəllim. Çardaqda yenə yuva qurublar.

Sevincək dilləndim:

– Ay, nə gözəl! Səni şad xəbər olasan. Elə bil, yaradan qumruları bizim bağımız-bağçamız üçün yaradıb, - deyə çardaqdakı yuvaya sarı boylandım.

– Müəllim, qumrular da kimə sığınmağı, münbit məkanı özlərinə məskən seçməyi yaxşı bilirlər..

– Eh, nə bilim, vallah. Kaş ki, həmişə belə olaydı. Kim bilir, nə qədər quşqonmaz yerlərdən keçib buranı özlərinə məskən seçiblər, -dedim.

Könlümdəki gümanlar məni kövrək duyğulara köklədi:

**Elə bilmə, o, çardaqda dayanıb,**
**Şirin nəğməsini pəsdən oxuyur,**
**Ürəyimdə yatıb, durub, oyanıb..**
**Könlümdə gizlənib qəsdən, oxuyur...**

***

**Evim kimi doğmadı,**
**Qumruların yuvası,**
**Sahibsiz bir komadı**
**Quşların boş yuvası.**
**Yuva isti qəfəsdi,**
**Hənirtidi, nəfəsdi,**
**Bir ömür mənə bəsdi**
**Qumruların duası...**

...Bağdan çıxıb şəhərə gəlmək istəyəndə dönüb qumruların yuvasına tərəf baxdım. Üzüm ağacının sıx budaqları arasında yaşıl yarpaqlardan üzünə Peyğəmbər niqabı tutmuş müqəddəs qumru quşları elə bəxtəvər görünürdü ki...Özlərinin yaz nəğməsini bizdən xəbərsiz könül boyu oxuyurdular. Kaş, qumruların ömrü öz nəğmələr dünyasında həmişə, hər yerdə belə xoş keçəydi. Mələksima Tanrı quşudu Qumru quşu!!!

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

# Təzyiqin cilovu – manqo!



**Damarları tıxayan xolesterolu azaltmaq üçün həkimlər manqo yeməyi məsləhət görür. Dietoloq Jessika Haggens manqonun damarlara təsirindən danışıb.**

Bildirib ki, onun tərkibində ürək-damar sisteminin düzgün işləməsi üçün vacib olan çoxlu miqdarda kalium var. Bu məhsulu müntəzəm olaraq qəbul etsəniz, infarkt, iflic, hipertoniya kimi xəstəliklərin riski azalar.

Öz növbəsində, dietoloq Maya Vadivelu manqonun qanda xolesterinin səviyyəsini azaltmağa kömək edə biləcəyini söyləyib. O izah edib ki, göstəricilərin normallaşması lif sayəsində baş verir, bu da bağırsaq mikroflorasına və ümumiyyətlə həzmə müsbət təsir göstərir. Bundan əlavə, manqonun tərkibində immunitet sistemini gücləndirmək üçün lazım olan C vitamini var, həkim izah etdi.

Narahatlıq vəziyyəti həyata çox müdaxilə edir: o, bizim kortəbii təzahürlərimizi manea törədir, azadlığa və rahatlığa mane olur. Ancaq qorxularımızı araşdırmaq, onları tanımaq və onları ram etməyə çalışmaq bizim gücümüzdədir.

***Z.HÜSEYNLİ***
***XQ***

# Uşaqlar “Vətəni tərənnüm” edir

**1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə AZƏRTAC-ın Uşaq Bilik Portalı ilə Özbəkistanın “Tonq Yulduzi” uşaq və gənclər qəzetinin təşkilatçılığı ilə keçirilən “Vətənin tərənnümü” mövzusunda rəsm yarışması yekunlaşıb.**




Afşin Sadıxzadə




Nuray Məmmədli



Şahriza Sadriddinova

Martın 18-dən mayın 22-dək keçirilən müsabiqənin məqsədi şagirdlərdə vətənpərvərlik hissini gücləndirmək, iki ölkənin uşaqları arasında dostluq və qardaşlıq əlaqələrini möhkəmləndirmək, onların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək, milli adət-ənənələri geniş təbliğ etmək, həmçinin istedadlı uşaqları üzə çıxarmaqdan ibarət olub.

8-12 yaşlı uşaqlar arasında keçirilən müsabiqəyə hər iki ölkədən ümumilikdə 100-dən çox rəsm işi təqdim olunub. Müraciət mayın 22-də yekunlaşıb və seçim mərhələsi başlayıb. Təqdim edilən rəsm işləri münsiflər heyəti tərəfindən müvafiq meyarlar üzrə qiymətləndiriləcək qaliblər müəyyən olunub.

Azərbaycan üzrə I yerin qalibi Nigar Ömərova, II yerin qalibi Afşin Sadıxzadə, III yerin qalibi isə Nuray Məmmədli olub. Özbəkistan üzrə isə I yerə Şahriza Sadriddinova, II yerə Mahiçohra Rustamova, III yerə isə Xurşida Kamolova seçilib.

***XQ***

### Sabirabadda Sabirin 163-cü ildönümü qeyd olunub

**Sabirabaddakı “Hophopnamə” Kitab Mərkəzində Azərbaycanın dahi satirik şairi, Mirzə Ələkbər Sabirin anadan olmasının 163-cü ildönümünə həsr edilmiş “Gəl, gəl a yaz günləri” adlı ədəbi-bədii toplantı keçirilib.**



Toplantının rəsmi hissəsində çıxış edən natiqlər böyük şairin Azərbaycan ədəbiyyatında tutduğu yer, cəmiyyətə təsiri və onun yaradıcılığının gənc nəslin tərbiyəsindəki rolu barədə fikirlərini bölüşüblər.

Tədbirin bədii hissəsində Sabirin yaradıcılığı əsasında İmişli Uşaq İncəsənət Məktəbinin müəllimi Elnur Məcidovun ifasında “Oxutmuram, əl çəkin!” mahnısı, Sabirabad Sosial İqtisad Kollecinin tələbələrinin ifasında “Satılır” şeiri səslənirilib və “Vur, vur...” kompozisiyası nümayiş olunub.

***XQ***

### ALLAH RƏHMƏT ELƏSİN

Əflatun Amaşov və Umud Mirzəyev Qüddəsər Niftəliyevə anası

**SƏNƏM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3468
SİFARİŞ 1085
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00